# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 249 (8565) ŞƏNBƏ, 28 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Qətiyyətin, milli mübarizənin və tarixi ədalətin qələbəsi

## İlham Əliyev Ermənistanı müharibə yolu ilə cəzalandıraraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi

**Azərbaycan Ordusunun şanlı Qələbəsinin nəticəsi olaraq torpaqlarımızın işğaldan azad olunması prosesi davam edir. Ermənistanın kapitulyasiyasına əsasən, Ağdamdan sonra Kəlbəcər rayonu da ordumuzun nəzarətinə keçdi. Beləliklə, üçtərəfli bəyanatda nəzərdə tutulmuş 3 rayondan 2-si artıq azad olundu. 44 günlük müharibədə işğalçının güc yolu ilə cəzalandırılmasının ardından Ali Baş Komandan İlham Əliyev siyasi-diplomatik yolla Ermənistanı zəbt etdiyi ərazilərimizi boşaltmağa məcbur edir.**

### Beynəlxalq hüquqi baza formalaşdıran diplomatiya

Tarix çox dövlətlər arasında müharibələrə şahidlik edib. Və hər bir müharibənin nəticəsi sübut edir ki, öz haqqı uğrunda mübarizə aparan tərəf mütləq qalib gəlir. Lakin bugünkü beynəlxalq münasibətlər sistemi daha çox güc amilinə əsaslandığından, ayrı-ayrı dövlətlərin konyunktur və istilaçı maraqlarına xidmət etdiyindən bir çox hallarda bəzi ölkələrin və xalqların haqq səsi elə yerindəcə boğulur.

Öz milli haqqı olan ərazi bütövlüyü uğrunda 30 ilə yaxın idi ki, mübarizə aparan Azərbaycan da danışıqlar prosesində işğalçı Ermənistanın maraqlarına cavab verən bir mövqe ilə üz-üzə qalmışdı. Beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, ayrı-ayrı təşkilatların ölkəmizin mövqeyini müdafiə edən müvafiq sənədləri, o cümlədən BMT-nin qətnamələri olsa da, Ermənistanın himayə olunması və işğal siyasətinə göz yumulması reallıq idi.

Lakin 1994-cü ilin atəşkəsindən ötən dövrün təhlili göstərir ki, Azərbaycan heç vaxt bu reallıqla barışmadı, bir gün də olsun ruhdan düşmədi və bütün diplomatik müstəvilərdə ərazi bütövlüyünün təmin olunması istiqamətində fəal iş apardı. *"Heç vaxt biz bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun"* - deyə Prezident İlham Əliyev xalqa müraciətində bu barədə bildirib.

İndiyədək bu fəaliyyətin nəticəsi olaraq bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlər əslində Azərbaycanın Ermənistana qarşı hərbi əməliyyatları daha inamla və daha dərindən əsaslandırılmış formada həyata keçirməsi və işğalçı ölkəni təslimçi sülhə məcbur etməsi üçün böyük hüquqi baza formalaşdırdı. Azərbaycanın tərəfdar çıxdığı mühüm ikitərəfli və çoxtərəfli sənədlərə respublikamızın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının dəstəklənməsi ilə müddəalar daxil edilməsi mühüm diplomatik uğurlarımız sırasında yer aldı.

Məlum olduğu kimi, bir neçə gün öncə Niderland parlamenti erməni lobbisinin sifarişləri əsasında Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan, həmçinin Türkiyənin əleyhinə olan qərar qəbul edib. Niderland parlamenti bu məsələni Avropa Parlamentinin müzakirəsinə də çıxarmaq niyyətindədir. Amma unudulmamalıdır ki, cəmi bir neçə il öncə Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi paraflanıb. Bu sənəddə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənib. Beləliklə, İlham Əliyevin milli maraqlarımızı uğurla təmin edən siyasi-diplomatik fəaliyyətinin nəticəsi olan bu sənəd Avropa İttifaqı çərçivəsində Azərbaycanın mənafelərinə zidd olan bütün təşəbbüslərin qarşısında etibarlı hüquqi-siyasi baryerdir.

### Sübut olundu ki, işğala güc yolu ilə son qoymaq mümkündür

Onu da qeyd etməliyik ki, həmin təşkilatlar müvafiq sənədlər qəbul etməklə yanaşı, hər zaman iddia edirdilər ki, münaqişənin hərbi həlli mümkün deyil, Dağlıq Qarabağ problemi danışıqlar yolu ilə yoluna qoyulmalıdır və s. Bununla da əslində problemin həllinə yanaşmada ikili standartlara rəvac verirdilər. Çünki beynəlxalq praktikada xüsusən son onilliklərdə işğala güc yolu ilə son qoyulmasına dair kifayət qədər faktlar mövcuddur.

Azərbaycan sentyabrın 27-dən başlatdığı hərbi əməliyyatlarla göstərdi ki, Ermənistanın işğal siyasətinə də güc yolu ilə son qoymaq mümkündür. Noyabrın 25-də xalqa müraciətində Kəlbəcərin işğaldan azad olunması münasibətilə həmvətənlərimizi təbrik edən Prezident İlham Əliyev bu barədə deyib: *"Mən bir daha danışıqlar dövrünə qayıtmaq istəyirəm. O vaxt dəfələrlə mənə deyilirdi ki, münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır.*

*Ardı 6-cı səh.*

# "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2020-ci il*



# İlham Əliyev Ağdam həsrətinə son qoydu

**Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsində işğaldan azad olunan rayonlarımızın sırasına noyabr ayının 20-də biri də əlavə olundu.**

Əhalisinin sayına görə işğal olunmuş rayonlarımız arasında birinci olan, olduqca strateji əhəmiyyət daşıyan Ağdam ordumuzun nəzarəti altına keçdi. Ağdamın işğaldan azad olunması möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbənin nəticəsidir.



44 günlük müharibə Azərbaycan üçün şərəf və milli ləyaqət məsələsi idi. İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəmanlıqla döyüşən ordumuz və öz rəhbəri ətrafında sıx birləşən, həmrəylik nümayiş etdirən xalqımız bu müharibədən şərəflə və ləyaqətlə çıxdı.

*Ardı 5-ci səh.*

# "Qobu"dan doğan işıq

### Bu layihə enerji sistemində bir mənbədən asılılığı aradan qaldıracaq, bölgələrdəki stansiyaların paytaxta yönəldilən yükünü azaldacaq

**Bütün dünyada elektrik enerjisinə tələbat getdikcə artır. Təbii ki, həyata keçirilən sənayeləşmə prosesi, əhalinin artım tempi, sosial infrastrukturun genişlənməsi, insanların yaşayış səviyyəsinin yüksəlməsi Azərbaycanda da elektroenergetika sektorunun daim inkişaf etdirilməsi vəzifəsini qarşıya qoyur.**

Uzun illərdir işğal altında olan torpaqlarımızın azad edilməsindən sonra elektrik enerjisinə tələbatın çoxalması bu sistemdə aparılan tikinti və yenidənqurma işlərinin daha da sürətləndirilməsini şərtləndirir.

Bu baxımdan tikilməkdə olan 1000 meqavat yükötürmə gücündə 330, 220, 110 kilovoltluq "Qobu" yarımstansiyası və 385 meqavatlıq "Qobu" elektrik stansiyası mühüm əhəmiyyət kəsb edir. Belə ki, "Qobu" enerji layihəsi Bakının və Abşeronun elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdıracaq. Bununla ölkənin enerji sistemində bir mənbədən asılılıq aradan qaldırılmış olacaq. Yəni regionlardakı elektrik stansiyalarının Bakıya yönəldilən yükü azalacaq. Həmin stansiyalarda istehsal olunan enerji bölgələrin ehtiyacına sərf ediləcək.

*Ardı 8-ci səh.*

# Terror və soyqırımı Fransa tarixinin əsl simasıdır

**Tarixin inkaredilməz həqiqətlərindən biri də odur ki, Fransa terroru və soyqırımını əsrlərboyu dövlət siyasəti kimi qəbul edib.**

Əlcəzairdə 1,5 milyon insanı, Vyetnamda, Mərakeşdə, Cibutidə, Çadda, Qabonda, Tunisdə 100 minlərlə sakini məhv etmişdir. Özünü "insan haqlarının və demokratiyanın vətəni" sayan Fransa tarixi ilə üzləşməkdən ona görə qorxur ki, Böyük Fransız inqilabının prinsiplərinə dəfələrlə xəyanət etmiş, insan haqları və demokratiya ilə bir araya sığmayan bəşəri cinayətlər törətmişdir.



Fransızları ermənilərlə yaxınlaşdıran, onların hamisi olaraq çıxış etməyə vadar edən xristian təəssübkeşliyi ilə yanaşı, türk düşmənçiliyidir, islami dəyərlərə qarşı barışmazlığıdır. Fransa tarixinin heç bir dövründə nə Osmanlı imperiyasının, nə də Türkiyə Cümhuriyyətinin dostu olmuşdur.

*Ardı 4-cü səh.*

# Ermənistan vətəndaş müharibəsi astanasındadır



**Ermənistanda cərəyan edən son proseslər vətəndaş qarşıdurması ehtimalını sürətlə artırır.**

Buna əsas səbəb odur ki, müharibədəki məğlubiyyətdən sonra Paşinyan hakimiyyətinin istefasını tələb edən xalqa qarşı iqtidar repressiya siyasətini davam etdirir. Etirazçılar isə məqsədlərinə çatmayana qədər mitinqlərə son qoymayacaqlarını bildirirlər.

### Baş nazirin kortejinin keçdiyi yolu bağladılar

İki həftədən çoxdur Yerevanda baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən kütləvi aksiyalar davam edir. 17 müxalifət partiyasının təşkil etdiyi nümayişə minlərlə insan qatılır.

*Ardı 6-cı səh.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Rusiya Federasiyası, Azərbaycan və Ermənistan respublikaları arasında imzalanmış tarixi razılaşma nəticəsində Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi, bölgədə sülhün və sabitliyin bərqərar olması münasibətilə zati-alinizi səmimiqəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Azərbaycanın mədəniyyətlərarası dialoq və birgəyaşayış modeli, elm xadimləri ilə zəngin olması, habelə qədim Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkanda yerləşməsi bizə yaxşı məlumdur.

Qardaş Misirdən Vətən şəhidlərinə Allahdan rəhmət və məkanlarının cənnət olmasını, yaralılara isə şəfa diləyirəm.

Zati-aliləri, Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə qardaş Azərbaycan xalqının azadlıq, əmin-amanlıq və rifah içində yaşamasını arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Professor Əli Cümə,***
***"Əl-Əzhər" dini müəssisəsinin***
***Böyük Alimlər Şurasının üzvü***

# Milli Məclisin sədri MDB PA-nın 51-ci plenar iclasında iştirak edib

Noyabrın 27-də Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurasının iclası və MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının videokonfrans formatında 51-ci plenar iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videokonfrans formatında keçirilən tədbirdə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Özbəkistan nümayəndə heyətləri və bir sıra beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

İclasda Milli Məclisin sədri, MDB PA-da nümayəndə heyətimizin rəhbəri Sahibə Qafarova da iştirak edib.

Tədbirdə təşkilati məsələlərə baxılıb, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Sədri Valentina Matviyenko yenidən MDB PA Şurasının Sədri seçilib. Sonra iclasda COVID-19 pandemiyası ilə əlaqədar MDB iştirakçısı olan dövlətlərdə qanunvericilik sahəsində görülmüş tədbirlər, Avrasiya məkanında iqtisadi inteqrasiyanın vəziyyəti, perspektivləri və onun normativ-hüquqi təminatı, 2021-ci ildə MDB ölkələrinin dövlət orqanlarına keçiriləcək seçkilərin müşahidəsinə hazırlıq, MDB PA-nın AŞ PA ilə əməkdaşlığının istiqamətləri, MDB PA-nın 2021-ci il üçün fəaliyyət planı, bir sıra təşkilati və maliyyə məsələləri müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib.

# Azərbaycanın və İtaliyanın xarici işlər nazirlərinin telefon danışığı olub

**Noyabrın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə telefon danışığı baş tutub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazirlər bölgədə mövcud son vəziyyəti müzakirə edib, o cümlədən 10 noyabr tarixli tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar imzalanmış üçtərəfli bəyanatın icrası və bəyanatdan irəli gələn bir sıra məsələlərin həyata keçirilməsinin vacibliyini, bu bəyanatın bölgədə dayanıqlı sülh, təhlükəsizlik və rifahın təmin edilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

Nazirlər həmçinin ölkələr arasında mövcud olan ikitərəfli əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparıblar. Çoxtərəfli formatlarda əməkdaşlığın genişlənməsi imkanlarını müzakirə ediblər.

Tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# YAP İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib

**Noyabrın 27-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.**

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Fransa Senatının qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasının tövsiyə edilməsinə dair noyabrın 25-də qəbul etdiyi qətnamə müzakirə edilib, həmin sənədin münaqişənin həlli istiqamətindəki səylərə, eləcə də ölkələrimiz arasındakı münasibətlərə mənfi təsirləri barədə fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, bu qətnamə beynəlxalq aləmdə ən qeyri-obyektiv, zərərli və prinsipsiz sənəd hesab edilməlidir. Bu qətnamənin timsalında beynəlxalq ictimaiyyət vasitəçinin öz vəzifə borcuna hansı prizmadan yanaşmasının şahidi olub. Müzakirələrdə vurğulanıb ki, BMT Təhlükəsizlik Şurasının verdiyi mandata uyğun olaraq, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında vasitəçilik missiyasını yerinə yetirməli olan Fransadan tələb olunan ən mühüm şərt obyektivlik, tərəfsizlik və qərəzsizlikdir. Lakin Fransa Senatı noyabrın 25-də Dağlıq Qarabağın tanınması haqqında məsuliyyətsiz qətnamə qəbul etməklə üzərinə götürdüyü öhdəliklərə məhəl qoymaq fikrində olmadığını nümayiş etdirib.

Qeyd olunub ki, BMT Təhlükəsizlik Şurasının üzvü kimi Fransadan istənilən mübahisəli məsələlərdə ədalətli mövqe nümayiş etdirmək məsuliyyəti tələb olunur. Bu məsuliyyəti dərk etməyən Fransanın beynəlxalq münasibətlərlə əlaqədar taleyüklü qərar qəbul etmək, hakim rolunu oynamaq səlahiyyəti ciddi suallar doğurur. Fransa Senatının qəbul etdiyi bu qətnamə BMT Təhlükəsizlik Şurasında qəbul edilmiş qətnamələrdə əks olunan beynəlxalq hüquq və prinsiplərlə daban-dabana ziddiyyət təşkil edir.

İclasda xüsusilə vurğulanıb ki, Fransa Senatının qəbul etdiyi məlum qətnamənin Minsk qrupunun fəaliyyətinə ağır zərbə vurduğu şəksizdir.

Müzakirələrin yekunu olaraq YAP-ın adından Fransa Senatında noyabrın 25-də "Dağlıq Qarabağ respublikası"nın tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamənin qəbul olunmasını qətiyyətlə pisləyən bəyanat qəbul edilib.

# Yeni Azərbaycan Partiyası, Türkiyə parlamentinin siyasi partiya qrupları və AHİK-in İcraiyyə Komitəsi Fransa Senatına etiraz bəyanatı veriblər

AZƏRTAC həmin bəyanatları təqdim edir.

Yeni Azərbaycan Partiyası olaraq Fransa Senatında noyabrın 25-də "Dağlıq Qarabağ respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamənin qəbul olunmasını qətiyyətlə pisləyirik. Avropa demokratiyasının aparıcı dövlətlərindən sayılan Fransanın qanunverici orqanı tərəfindən belə addımın atılmasını suveren Azərbaycan dövlətinə qarşı qeyri-dost münasibət, onun daxili işlərinə kobud müdaxilə cəhdi, beynəlxalq hüququn fundamental prinsiplərinə böyük hörmətsizlik nümunəsi hesab edirik. Eləcə də məlum qətnamədə qardaş Türkiyəyə qarşı əsassız iddiaların yer almasına, Dağlıq Qarabağ problemindən Türkiyə Respublikasının əleyhinə çirkin təzyiq kampaniyasında vasitə kimi istifadə edilməsinə dərin etirazımızı bildiririk.

Bu qətnamə erməni lobbisinin təsiri altında hərəkət edərək Fransanın maraqlarını və beynəlxalq hüququ heçə sayan bir qrup senatorun Azərbaycana uğursuz təzyiq göstərmək cəhdindən başqa bir şey deyil. Qətnaməyə səs verənlər, görünür, Fransanın ATƏT-in Minsk qrupunun həmsədri olduğunu unudur və ya öz ölkələrini artıq bu statusda görmürlər.

Fransa Senatına onu da xatırlatmaq istəyirik ki, məhz sizin ölkəniz BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi, Azərbaycanın ərazi bütövlüyünü tanıyan və Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən məlum 4 qətnamənin qəbul edilməsində iştirak edib. Təəssüf hissi ilə bildiririk ki, 30 ilə yaxın müddət ərzində Fransanın da daxil olduğu beynəlxalq vasitəçilər bütün zəruri hüquqi bazanın olmasına rəğmən, Ermənistan tərəfindən işğala məruz qalmış Azərbaycan torpaqlarının azad edilməsi, bir milyona yaxın məcburi köçkünün öz evlərinə qaytarılması üçün üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri addımları atmadılar və ya atmaq istəmədilər. Belə olan halda Azərbaycanın hüquq çərçivəsində beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü bərpa və təcavüzkar Ermənistanı sülhə məcbur etməsinə qərəzli münasibət sərgiləmək, Azərbaycana və Türkiyəyə qarşı heç bir əsası olmayan ittihamlar irəli sürmək Fransanın bitərəf qalmalı olan vasitəçilik missiyası ilə qətiyyən uzlaşmır, onun ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətinə Azərbaycan cəmiyyətinin inamını kökündən sarsıdır.

Sözügedən qətnamənin qəbulu bəzi Qərb siyasi dairələrində islamofob meyillərin və özlərinin təşviq etdikləri dəyərləri, demokratiya prinsiplərini və qanunları pozmaq ənənəsinin növbəti təzahürü olmaqla, Fransanı beynəlxalq ictimaiyyət qarşısında nüfuzdan salmağa xidmət edir. Bu gün dünya Azərbaycanın azad olunan ərazilərində 30 il ərzində işğalçıların törədikləri vəhşiliklərin şahidi olur və Fransa Senatının həmin vəhşilikləri törədənlərin kor-koranə müdafiəsinə qalxması onun söykəndiyi humanizm dəyərləri ilə bir araya sığmır. Digər tərəfdən, Ermənistanın özünün belə tanımadığı qondarma Dağlıq Qarabağ rejiminin tör-töküntülərini müstəqil dövlət kimi tanımaq çağırışı ilə ermənidən artıq erməni olmağa çalışan Fransa Senatı özünü gülünc vəziyyətə saldı.

Yaxşı olardı ki, Fransa Senatı öz səylərini Minsk qrupunun həmsədrliyi çərçivəsində bu ölkəyə verilən vasitəçilik mandatının sərhədləri ilə məhdudlaşdırsın və tarixə qovuşmaqda olan Ermənistan-Azərbaycan münaqişəsinin yenidən alovlanmasını təşviq edən məsuliyyətsiz bəyanatlardan və təhrikçi çağırışlardan çəkinsin.

Sonda onu da vurğulamağı lazım bilirik ki, görünür, Fransa Senatı qəbul etdiyi qətnamənin Azərbaycan-Fransa əlaqələrinə mənfi təsir göstərəcəyini, habelə Cənubi Qafqazda sülhə və əmin-amanlığa növbəti zərbə vuracağını axıra qədər qiymətləndirməmişdir. Fransalı senatorlar unutmamalıdırlar ki, Azərbaycanın beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanata uyğun olaraq ərazi bütövlüyünü bərpa etməsi prosesinin qarşısını bu cür məkrli üsullarla almaq mümkün olmayacaq.

❖ ❖ ❖

Türkiyənin Ədalət və İnkişaf, Cümhuriyyət Xalq, Milliyyətçi Hərəkat və İYİ partiyalarının Türkiyə Böyük Millət Məclisindəki qrupları Fransa Senatının Dağlıq Qarabağla bağlı qərəzli qətnaməsini pisləyən ortaq bəyanat yayıblar.

Siyasi partiyaların birgə imzası ilə yayılan bəyanatda Fransa Senatının beynəlxalq hüquqa, əxlaqa və ədalətə zidd olaraq Dağlıq Qarabağla bağlı noyabrın 25-də qətnamə qəbul etməsi şiddətlə qınanılıb. Qeyd olunub ki, Fransa Senatı özünü görməməzliyə vursa da, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə əsasən, Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Fransa Senatının qətnaməsi beynəlxalq hüquqa görə yox dərəcəsindədir. Dağlıq Qarabağın Azərbaycan torpağı olduğu Fransa Prezidenti Emmanuel Makron tərəfindən bir neçə gün əvvəl bəyan edilib. Qondarma "Dağlıq Qarabağ respublikası" Ermənistan tərəfindən belə tanınmadığı halda, Fransa Senatı həqiqətdən uzaq qərar qəbul edir.

Birgə bəyanatda vurğulanıb ki, otuz ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqları Azərbaycan Ordusunun son aylarda qəhrəmancasına apardığı mübarizə sayəsində işğaldan azad edilib. Türkiyə olaraq bu haqlı mübarizəsində və şanlı qələbənin hər anında Azərbaycanın yanında olduğumuz üçün qürur duyuruq. Azərbaycan Ordusunun BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən özünümüdafiə hüququna əsaslanaraq həyata keçirdiyi əməliyyat nəticəsində əsl sahiblərinə qaytarılan Azərbaycan torpaqlarının əbədi olaraq Azərbaycanın hakimiyyəti altında qalacağına heç bir şübhəmiz yoxdur.

Bildirilib ki, ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, 30 ilə yaxındır Ermənistanın işğalına göz yuman, bitərəf qalmalı olduğu halda işğalçı Ermənistanın yanında yer alan, Azərbaycanın haqqına və hüququna laqeyd qalan, BMT-nin bütün qərarlarını heçə sayan, son zamanlar Türkiyəyə qarşı düşmənçilikdə sərhəd tanımayan Fransanın bu addımı bizim üçün təəccüb doğurmur. Bu qərarla Fransa hökumətinə çağırış edən Senatın son dərəcə ciddi əqli böhran yaşadığını düşünür, anlayışlı Fransa xalqının daha ağlabatan, ağlı başında və hər şeydən vacib beynəlxalq hüquqa hörmətlə yanaşan təmsilçilərə layiq olduğunu düşünürük. Sözügedən qərarın Fransa Senatında səs çoxluğu ilə qəbul edilməsi isə Fransanın gələcəyi ilə bağlı qayğılarımızın artmasına səbəb olub.

Bəyanatda Fransa hökumətinin beynəlxalq hüquqa, haqqa və bölgədəki həqiqətlərlə uyğun olmayan, ağlasığmaz əsassız iddiaları, xəyali iftiraları və qeyri-ciddi təklifləri ehtiva edən bu qərarı diqqətə almayacağına və sağlam düşüncə ilə hərəkət edəcəyinə əminlik ifadə olunub. Bu cür qərəzli və təxribat xarakterli cəhdlərin bölgə ilə yanaşı, dünyaya da sülh və sabitlik gətirməyəcəyi xatırladılıb, Türkiyə və Azərbaycan əleyhinə bu cür addımlar atanların Türkiyə Böyük Millət Məclisi və Türk milləti adından qınandığı ifadə olunub.

❖ ❖ ❖

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi noyabrın 25-də Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilərindən olan Fransa Senatının bu ölkədə fəaliyyət göstərən türkofob, islamofob siyasi dairələrinin və erməni lobbisinin təhriki ilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış və noyabr ayında (2020-ci il) mövcudluğuna son qoyulmuş "Dağlıq Qarabağ respublikası"nın tanınmasını tövsiyə edən qətnamə qəbul etməsi ilə əlaqədar bəyanat yayıb.

"Fransa rəhbərliyinin, bu Qərbi Avropa ölkəsinin dövlət orqanlarının Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə tutduğu mövqe, əslində, tam mövqesizlikdir, hüquqtanımazlıqdır. Fransanın bu "mövqeyə" istinadən etdiyi hərəkətlər ən elementar tənqidə belə tab gətirmir. Ona görə ki, Fransa BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir, bu, onun üzərinə tarixi, siyasi, mənəvi məsuliyyət qoyur.

Fransa Respublikası Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasının mümkünlüyü haqqında sənədin müzakirəyə çıxarılması Azərbaycanın dünya birliyi, beynəlxalq ictimaiyyət tərəfindən, o cümlədən Fransanın özü tərəfindən tanınmış suverenliyinə, ərazi bütünlüyünə qarşı qəsddir. Bu, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış suveren hüquqlarına, birgəyaşayış normalarına qarşı çox kobud müdaxilə cəhdidir. Bu, Qafqazın iki dövləti arasında ədalətli sülh anlayışının elementar tələblərinə cavab vermir. Müharibənin hərbi mərhələsinin başa çatdığı, siyasi-diplomatik mərhələnin başladığı, ədalətli nizamlanmaya inam yarandığı bir dövrdə Fransa 44 gün ərzində də ermənipərəst mövqe tutmuşdu. Fransa elan olunmamış Ermənistan-Azərbaycan müharibəsinə münasibətdə, demək olar, həmişə Ermənistanın yanında durub. Ona görə, heç olmazsa, müharibənin başa çatıb, siyasi çözümün başladığı dövrdə Fransa öz dövlət imicinin, vasitəçi mandatının qayğısına qalmağa borcludur.

Fransa Senatının qəbul etdiyi bu qətnamə Avropa İttifaqının və Avropa Parlamentinin, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa İnsan Hüquqları Məhkəməsinin qəbul etdiyi sənədlərin, Fransa Respublikasının özünün də dəstəklədiyi, BMT-nin dörd qətnaməsinin tələblərinin heçə sayılmasıdır.

Qətnamədə Azərbaycanın həyata keçirdiyi əks-hücum əməliyyatında Türkiyə Silahlı Qüvvələrinin və Yaxın Şərqdən cəlb olunan muzdluların iştirakı, dinc əhaliyə qarşı, guya, müharibə cinayətləri barədəki iddia heç bir fakta əsaslanmır və böhtan xarakterlidir. Əksinə, bir sıra ölkələrin, o cümlədən Fransanın erməni millətindən olan vətəndaşlarının Dağlıq Qarabağda Azərbaycan Silahlı Qüvvələrinə qarşı döyüşmələri təkzib oluna bilməyən faktlarla öz təsdiqini tapmışdır. Bunu Ermənistan Respublikasının prezidenti də öz müsahibəsində etiraf etmişdir. Erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın əməliyyat zonasından xeyli uzaqda yerləşən yaşayış məntəqələrinin qadağan olunmuş silahlardan atəşə tutulması nəticəsində 94 dinc sakinin həlak olması əsl müharibə cinayətidir.

Yaxşı olardı ki, Fransa Senatı müstəmləkəçilik dövründə bir sıra ölkələrdə həyata keçirdiyi soyqırımlara və ya bu gün Sakit okeanda, Hind okeanında və Karib dənizində yerləşən 11 ada dövlətində və Cənubi Amerikada yaşayan 3 milyona yaxın insanın şəxsiyyət vəsiqəsində milliyyətlərinin məcburi şəkildə "fransız" yazılması faktlarına diqqət yetirsin.

Fransa senatorları özləri üçün aydınlaşdırmalıdırlar ki, 1992-1994-cü illərdə Azərbaycana qarşı Ermənistan tərəfindən aparılan işğalçılıq müharibəsində qaçqın və köçkün vəziyyətə düşmüş 700 mindən çox insanın taleyi, dinc əhaliyə qarşı törədilən qətliamlar və XX əsrin dəhşətli faciəsi - Xocalı soyqırımı barədə 30 ilə yaxındır ki, nə üçün susurlar.

Fransız elitası Qarabağda "erməni dini və tarixi abidələri"nin qorunmasının vacibliyini vurğulayarkən, 30 ilə yaxın bir dövrdə işğal altında olan Azərbaycanın tarixi abidələrini dağıdan, məscidləri mal-qara tövləsinə çevirən erməni vandallığından bir kəlmə də danışmır. Bu yaxınlarda ölkəmizdə səfərdə olan Fransa nümayəndə heyətinin üzvləri də gördülər ki, bədnam qonşularımızdan fərqli olaraq Bakıda, içərisində minlərlə qədim erməni dini kitabları olan, erməni kilsəsi Azərbaycan dövləti tərəfindən qorunur.

AHİK hesab edir ki, son dövrlərdə Fransa Respublikasının prezidenti və digər məsul şəxslərin səsləndirdikləri bəyanatlar və senat tərəfindən qəbul edilən qətnamə bu ölkənin vasitəçilik missiyasına kölgə salır.

Həmçinin Fransa Senatında qəbul edilmiş bədnam qətnamədən fərqli olaraq 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının, Rusiya Federasiyasının prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları bəyanat 30 ildən artıq davam edən münaqişəyə son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yol açmışdır. Bu bəyanat uzun müddət ərzində əmək və sosial hüquqları pozulmuş insanların hüquqlarının bərpa edilməsinə şərait yaradır.

Biz, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi bəyan edirik ki, Fransa Senatının Dağlıq Qarabağla əlaqədar qəbul etdiyi qətnamədə irəli sürülən tövsiyələr Fransa Respublikasının Ermənistan - Azərbaycan münaqişəsinin həllində Minsk qrupundakı həmsədrlik vəzifəsi ilə uzlaşmadığı üçün onun həmsədrlikdən kənarlaşdırılması məsələsi ATƏT qarşısında qaldırılmalı və Fransa ilə Azərbaycan arasında mövcud olan siyasi və mədəni, iqtisadi əlaqələrə yenidən baxılmalıdır".

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan regional əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində davamlı iş aparır"

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının 42-ci iclasında iştirak edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən nazir Ceyhun Bayramov QDİƏT-in gündəliyindəki bir sıra vacib məsələlərin əlaqələndirilməsi və həlli üçün Rumıniya nümayəndə heyətinin səylərini yüksək qiymətləndirib, Rumıniyanı səmərəli sədrliyinə görə təbrik edib. Şimali Makedoniya Respublikasını qurumun 13-cü üzvü olması ilə salamlayan Ceyhun Bayramov bu üzvlüyün müştərək maraq sahələrində əməkdaşlığın artırılması üçün imkanlar yaradacağını, bu ölkə ilə QDİƏT-ə üzv dövlətlər arasında əlaqələrin gücləndirilməsinə xidmət edəcəyini vurğulayıb.

Təşkilatın gələcəyə birgə baxış və qarşılıqlı əməkdaşlıq yolu ilə Qara dənizi sülh, sabitlik və firavanlıq bölgəsinə çevirmək məqsədilə yaradıldığını qeyd edən nazir deyib ki, QDİƏT bir sıra sahələrdə, o cümlədən ticarət, enerji, nəqliyyat, turizm kimi istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlıq imkanlarının genişləndirməsinə xidmət edən əhəmiyyətli bir platforma səviyyəsinə yüksəlib.

C.Bayramov bildirib ki, bir çox vacib təşəbbüslərin irəli sürülməsi təqdirəlayiqdir, lakin xalqlarımızın mənafeyi naminə bu təşəbbüslərin praktiki nəticələrini təmin etmək üçün daha böyük əməkdaşlıq zəruridir. Müxtəlif işçi qrupları arasında qarşılıqlı əlaqənin asanlaşdırılması, sektoral və dövlət-özəl əməkdaşlığının gücləndirilməsi vasitəsilə QDİƏT üzv dövlətlərə COVID böhranının çoxsaylı təsirlərinin öhdəsindən gəlmək və daha yaxşı yenidənqurmanı həyata keçirməkdə kömək göstərə bilər.

"Azərbaycan regional əməkdaşlığın möhkəmləndirilməsi və asanlaşdırılması istiqamətində davamlı iş aparır. Ölkəmiz Xəzər dənizi-Qara dəniz əməkdaşlığının gücləndirilməsində konkret təşəbbüslər vasitəsilə fəal rol oynayır. Enerji, nəqliyyat, İKT, ticarət və KOBİ-lər əsas prioritetlərimiz sırasındadır. Biz QDİƏT-in sektoral qurumları və müvafiq təşkilatlarında əməkdaşlığımızın dərinləşəcəyinə ümidvarıq. Növbəti sədr kimi Albaniyanın nəticəyönümlü səylər vasitəsilə əməkdaşlığı inkişaf etdirəcəyinə inanırıq", - deyən Ceyhun Bayramov əlavə edib ki, COVID-19 pandemiyası iqtisadi itkilərə gətirib çıxaran zərərini davam etdirir. Eyni zamanda pandemiya regional ticarəti inkişaf etdirmək, özəl sektoru təşviq etmək və davamlı artımı dəstəkləmək üçün fürsət yaradır. Ticarət, sərmayə və artıma yenidən diqqət yetirərək, QDİƏT bölgəsində sürətli və davamlı sosial-iqtisadi bərpaya töhfə vermək mümkündür.

Nazir vurğulayıb ki, inkişaf etmiş infrastruktur və biri-biri ilə daha yaxşı birləşən nəqliyyat dəhlizləri vasitəsilə geniş Qara dəniz bölgəsində daha yaxşı əlaqələr naminə iş davam etdirilməlidir. Bu kontekstdə tranzitin asanlaşdırılması, əməliyyatların rəqəmsallaşdırılması, nəqliyyat və ticarətdə tənzimləyici və prosedur maneələrinin aradan qaldırılması üçün səylərin iki dəfə artırılması vacibdir.

Ceyhun Bayramov bildirib: "Azərbaycan Bakı-Tbilisi-Qars magistral dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və iri investorlar üçün münasib Ələt Azad İqtisadi Zonası ilə yanaşı, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Lapis-Lazuli nəqliyyat dəhlizinin, habelə bütün regionun tranzit imkanlarının artırılmasına yönəlmiş Şimal-Cənub, Cənub-Qərb və Şimal-Qərb ticarət yolları inkişafına praktik töhfəsini davam etdirir.

Tikinti işlərinin başlanmasından 4,5 il sonra Trans-Adriatik boru kəmərinin kommersiya istismarı başlayıb. Bu irəliləyiş bizə "Cənub qaz dəhlizi"nin uğurlarını möhkəmləndirməyə imkan verir. Biz qaz təminatı coğrafiyasının genişləndirilməsi üçün Avropa İttifaqı ilə yaxından işləyirik. QDİƏT-ə üzv olan bir neçə dövlətini birləşdirən bu layihə enerji təhlükəsizliyinin genişləndirilməsi ilə yanaşı, Avropada sıfır emissiya enerji sisteminə keçiddə də mühüm rol oynayacaq".

Münaqişələrin, uzunsürən xarici işğalçılıq və cavabdehliyin olmamasının sülh və təhlükəsizliyi təhlükə altına qoyduğunu bildirən Azərbaycanın xarici işlər naziri deyib ki, bu həm də regional əməkdaşlığı əngəlləyir. "Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş nazirinin imzaladığı bəyanat Ermənistan-Azərbaycan münaqişəsinin həllində yeni səhifə açdı. Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərindən öz silahlı qüvvələrini çıxarır. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edir. Keçmiş münaqişə zonasına sülhməramlı qüvvələr yerləşdirilir və birgə atəşkəs monitorinq mərkəzi yaradılır.

Münaqişənin həllində yeni mərhələyə, yenidənqurma və reabilitasiya mərhələsi, dinc birgəyaşayışın bərpası mərhələsinə qədəm qoymuşuq. İnkişaf və əməkdaşlıq üçün yeni imkanlar meydana çıxır və QDİƏT yeni reallıqları qiymətləndirməli və onlardan faydalanmalıdır", - söyləyən nazir diqqətə çatdırıb ki, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Qarabağ münaqişəsinin həllinə dair birgə bəyanatında əks olunduğu kimi, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri açılır. Bu o deməkdir ki, Asiya ilə Avropa arasında ticarətdə regionumuzun rolunun gücləndirilməsinə imkanlar yaradacaq həyati əhəmiyyətli müstəqil quru dəhlizi fəaliyyətə başlaya bilər.

Vurğulanıb ki, Azərbaycanın bütün tərəfdaşlarına təklif edə biləcəyi və artıq təklif etdiyi çox şey var. "QDİƏT-ə üzv dövlətləri birləşdirən və müştərək firavan gələcək qurmağa imkan verən təşəbbüslərimiz regional əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün maraq və potensialımızın ən yaxşı nümunəsidir. Gələcək əməkdaşlıq üçün hazırıq.

Yalnız müştərək əzmkarlıq, xüsusilə dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı ilə bağlı olan beynəlxalq öhdəliklərə tam əməl etməklə biz dinc, firavan və sabit gələcəyə nail ola bilərik", - deyə nazir qeyd edib.

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

## Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı

### 1. Giriş

Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı (bundan sonra - Fəaliyyət Planı) "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamının 3.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır.

Fəaliyyət Planı yerli səviyyədə uşaqları müdafiə sistemini gücləndirməklə, ölkə üzrə uşaqları müdafiə mexanizminin təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Fəaliyyət Planında pandemiya və digər fövqəladə vəziyyətlər də nəzərə alınmaqla, uşaq hüquqlarının müdafiəsinə hərtərəfli yanaşma prinsipləri, xüsusi vəziyyətlərdə uşaqların bütün növ xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin olunması məsələləri, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsindən əziyyət çəkmiş uşaqlara və onların ailələrinə sosial-psixoloji dəstək tədbirlərinin gücləndirilməsi öz əksini tapmışdır. Eyni zamanda xarici ölkələrdə münaqişə qurbanı olmuş və daha sonra ölkəmizə qaytarılmış Azərbaycan Respublikası vətəndaşı olan uşaqların cəmiyyətə reinteqrasiyası istiqamətində də fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Çətin həyat şəraitində, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların aşkarlanması və onların sosial müdafiəsi, reabilitasiyası, cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin həyata keçirilməsi, eyni zamanda ölkəmizdə alternativ qayğı xidmətlərinin inkişafı, həyatın bütün sahələrində uşaqlara qarşı zorakılığın qadağan olunması ilə bağlı qanunvericilik təkliflərinin işlənilməsi Fəaliyyət Planında xüsusi yer tutur.

Fəaliyyət Planında erkən yaş dövründə uşaqların inkişafının təmin olunması ilə bağlı körpələrin ana südü ilə qidalanmasının əhəmiyyətinin təbliği, doğuşayardım tibb müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, uşaqların əlilliyinin qarşısının alınması və inkişaf pozuntularının erkən aşkarlanması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi və bu sahədə metodikaların təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Uşaqlarda təhlükəsiz həyat fəaliyyəti, xüsusilə internet təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, eyni zamanda informasiya-kommunikasiya texnologiyalarının tədrisinin təkmilləşdirilməsi və bu sahədə biliklərin artırılması, yeniyetmələrin intellektual inkişafını stimullaşdıran layihələrin həyata keçirilməsi, sağlam həyat tərzinin və asudə vaxtın təşkili istiqamətində tədbirlər də Fəaliyyət Planında nəzərdə tutulan əsas məsələlərdəndir.

### 2. Fəaliyyət Planının məqsədi, istiqamətləri və əsas prinsipləri

2.1. Fəaliyyət Planının məqsədi uşaq hüquqlarının müdafiəsi sahəsində çevik institusional mexanizm formalaşdırılmasından və aidiyyəti dövlət orqanlarının (qurumların) qarşılıqlı fəaliyyətinin təmin edilməsindən ibarətdir.

2.2. Fəaliyyət Planı aşağıdakı istiqamətlərdə həyata keçirilən tədbirlərin davamlılığını təmin edir:

2.2.1. uşaqların müdafiəsi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və beynəlxalq təcrübədən yararlanmaqla bu sahədə çevik institusional mexanizm formalaşdırılması;

2.2.2. erkən yaş dövründə uşaqların fiziki və əqli inkişafının təmin edilməsi, sağlam qidalanması istiqamətində tədbirlər görülməsi, eləcə də uşaqların sağlam böyüməsi üçün göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması;

2.2.3. valideyn himayəsindən məhrum olmuş, baxımsız, sosial təhlükəli vəziyyətdə olan uşaqların sosial xidmətlərə əlçatanlığının artırılması və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların daha keyfiyyətli təhsillə təmin edilməsi;

2.2.4. uşaqların milli-mənəvi ruhda tərbiyə olunması, istedad və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində tədbirlər görülməsi;

2.2.5. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinin araşdırılmasına dair mütəmadi monitorinqlərin keçirilməsi və qiymətləndirmə sisteminin təkmilləşdirilməsi.

2.3. Fəaliyyət Planı üzrə müəyyən olunmuş tədbirlər aşağıdakı prinsiplər rəhbər tutulmaqla həyata keçirilir:

2.3.1. uşaqların maraqlarının qorunması;

2.3.2. təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət və idman sahələrində bütün uşaqlar üçün bərabər imkanlar yaradılması;

2.3.3. dövlət qayğısına ehtiyacı olan uşaqların hüquqlarını müdafiə etmək üçün müasir tələblərə uyğun dəstək xidmətlərinin təmin edilməsi;

2.3.4. uşaq hüquqları sahəsində fəaliyyətə vətəndaş cəmiyyətinin, elm və təhsil müəssisələrinin cəlb edilməsi;

2.3.5. uşaq hüquqları ilə bağlı problemlərin həllində uşaqların söz azadlığının və iştirakçılığının təmin edilməsi.

### 3. Fəaliyyət Planının maliyyələşdirilməsi

3.1. Fəaliyyət Planında göstərilən tədbirlərin icrasına tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, qrantlar, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

### 4. Fəaliyyət Planının monitorinqi və qiymətləndirilməsi

4.1. Fəaliyyət Planının uğurla həyata keçirilməsi üçün əlaqələndirici dövlət orqanı işçi qruplar yaradacaqdır. İşçi qruplar prioritet istiqamətlər üzrə tədbirlərin vaxtında və səmərəli icrasına məsul olacaqlar.

4.2. Fəaliyyət Planının monitorinqini və müntəzəm olaraq qiymətləndirilməsini əlaqələndirici dövlət orqanı həyata keçirəcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritetlə bağlı gözlənilən nəticələrə diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır.

### 5. Fəaliyyət Planının icrası üçün Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | İcraçı qurumlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **5.1. Uşaqların müdafiəsi sahəsində normativ-hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi** | | | |
| 5.1.1. | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | Nazirlər Kabineti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2021–2022 |
| 5.1.2. | Uşaq Məcəlləsinin layihəsinin hazırlanması | Nazirlər Kabineti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021– 2022 |
| 5.1.3. | Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarların, habelə dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətin keyfiyyətinə dair tələblər hazırlanması | Nazirlər Kabineti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi | 2021–2022 |
| 5.1.4. | Uşaq hüquqlarının müdafiəsi üzrə ayrı-ayrı sahələrdə mütəxəssis hazırlığının təmin edilməsi (təlimlər və qısamüddətli kurslar təşkil etməklə) | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2021 2025 |
| 5.1.5. | Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi istiqamətində mexanizmlərin müəyyən olunması | Nazirlər Kabineti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021–2022 |
| 5.1.6. | Uşaqların təhsilə çıxışında bərabərliyin təmin olunması məqsədilə inklüziv təhsilə dair mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2021–2022 |
| 5.1.7. | Çətin həyat şəraitində olan uşaqların aşkarlanması və onlara münasibətdə sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üzrə işlək mexanizm yaradılması istiqamətində normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Nazirlər Kabineti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021–2022 |
| 5.1.8. | Baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2021–2022 |
| 5.1.9. | Alternativ qayğı xidməti kimi, "himayədar ailə" institutunun tətbiqi və inkişaf etdirilməsinə dair mexanizmlərin müəyyən olunması üçün normativ-hüquqi baza yaradılması | Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2022–2024 |
| 5.1.10. | Sosial həyatın bütün sahələrində (ailə, təhsil, idman, mədəniyyət və s.) uşaqlara qarşı zorakılığın qadağan olunmasına dair normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2022–2025 |
| 5.1.11. | Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı uşaq hüquqlarının qorunması ilə bağlı normativ-hüquqi aktların beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi | 2022 2024 |
| 5.1.12. | Beynəlxalq Əmək Təşkilatının"Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" 182-ci Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br>tövsiyə edilsin:Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasını cəlb etməklə | 2020–2023 |
| 5.1.13. | Uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlərin gücləndirilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Milli Televiziya və Radio Şurası | mütəmadi |
| **5.2. Erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin olunması** | | | |
| 5.2.1. | Ölkə ərazisində antenatal yardım, doğuşayardım xidmətləri göstərən tibb müəssisələri şəbəkəsinin genişləndirilməsi, eləcə də onların zəruri tibbi avadanlıqla, dərman və tibbi ləvazimatla təchiz olunması üçün tədbirlər görülməsi, müasir metodların tətbiqi ilə yenidoğulanların, vaxtından əvvəl doğulan uşaqların reanimasiyasının təşkili | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2021–2023 |
| 5.2.2. | Antenatal, perinatal və neonatal xidmətlər göstərən tibb müəssisələrində çalışan tibb işçilərinin təlimlərə və klinik təcrübələrə cəlb edilməsi | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | mütəmadi |
| 5.2.3. | Gələcəyin anaları və hamilə qadınlar üçün "Sağlam və Təhlükəsiz Hamiləlik" mobil tətbiqinin hazırlanması və onun vasitəsilə hamiləliklə bağlı zəruri məlumatların analara ötürülməsi, habelə antenatal və postnatal qayğı ilə bağlı tövsiyələr verilməsi | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2021–2023 |
| 5.2.4. | Uşaq ölümünün azaldılması, qarşısının alınması və evdə doğuşların riskinin əsaslandırılması məqsədilə hərtərəfli tədqiqatlar aparılması | Səhiyyə Nazirliyi,İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | mütəmadi |
| 5.2.5. | Doğuşayardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin davamlı monitorinqi və qiymətləndirilməsi sisteminin yaradılması | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2020–2023 |
| 5.2.6. | Körpələrin ana südü ilə qidalanmasının əhəmiyyətinə və süni qida məhsullarından istifadənin sağlamlıq üçün risklərinə dair təbliğat işinin təşkili | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | mütəmadi |
| 5.2.7. | Uşaq qida məhsullarının minimum keyfiyyətinə, təhlükəsizliyinə dövlət nəzarətinin və ictimai nəzarətin gücləndirilməsi | Qida Təhlükəsizliyi Agentliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi<br>tövsiyə edilsin: Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasını və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasını cəlb etməklə | 2020–2025 |
| 5.2.8. | 3 yaşınadək uşaqlar üçün qidalara dair sanitariya norma və qaydalarının hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2020–2021 |
| 5.2.9. | Uşaqlarla bağlı rasional fizioloji normaların hazırlanması | Səhiyyə Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi | 2021–2023 |
| 5.2.10. | Uşaqların ana südü ilə qidalanmasının təmini məqsədilə işləyən analarla bağlı əmək qanunvericiliyinin tələblərinə işəgötürənlər tərəfindən riayət olunmasına nəzarətin gücləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021–2023 |
| 5.2.11. | Ailədaxili sosial və psixoloji işin təşkili üçün ailə məsləhət mərkəzlərinin yaradılmasına dair təkliflər hazırlanması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2022–2023 |
| 5.2.12. | Erkən uşaqlıq dövründə uşaqlara göstərilən sosial xidmətin təhlili və səmərəliliyinin artırılmasına dair təkliflər hazırlanması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2020–2022 |
| 5.2.13. | Uşaqlarda sağlamlıq imkanları məhdudluğunun qarşısını almaq, uşağın inkişafının pozulması hallarının əvvəlcədən aşkarlanması metodikasının təkmilləşdirilməsi, yenidoğulanların ən geniş yayılmış irsi xəstəliklərə skrininqinin (neonatal skrininq) milli səviyyədə təşkili istiqamətində tədbirlər görülməsi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2021–2022 |
| 5.2.14. | Uşaqların məktəbəqədər yaş dövrü üzrə təhsil kurikulumlarının hazırlanması | Təhsil Nazirliyi | 2021–2023 |
| 5.2.15. | Məktəbəqədər yaş dövründə intellektual inkişaf üçün şərait yaradılması, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların inkişafı sahəsində tələblərin hazırlanması | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021–2023 |
| **5.3. Çətin həyat şəraitində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi və onlar üçün bərabər imkanlar yaradılması** | | | |
| 5.3.1. | Dövlət uşaq müəssisələri məzunlarının cəmiyyətə inteqrasiyasının təşkili, xüsusilə gənc məzunların təhsilinin və məşğulluğunun təmin edilməsi, peşə hazırlığına və özünüməşğulluq proqramına cəlb olunması, sosial təminatı və sosial müdafiəsi ilə bağlı məsələlərin həlli,o cümlədən uşaqlar üçün dövlət sosial xidmət müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarının mənzillə təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2021 2025 |
| 5.3.2. | Dövlət uşaq müəssisələri məzunlarının cəmiyyətə inteqrasiyası ilə bağlı mövcud mexanizmin təkmilləşdirilməsi, o cümlədən monitorinq və qiymətləndirmənin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | 2021–2023 |
| 5.3.3. | Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların həyata inteqrasiyasında çətinliklərin öyrənilməsi ilə bağlı tədqiqatlar aparılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | mütəmadi |
| 5.3.4. | Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların sosial və digər xidmətlərdən istifadəsi və cəmiyyətə inteqrasiyasını təmin edən tələblərin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021–2023 |
| 5.3.5. | Regionlarda sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların reabilitasiyası və cəmiyyətə inteqrasiyası məqsədilə icma əsaslı dəstək proqramlarının həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | mütəmadi |
| 5.3.6. | Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların övladlığa götürülməsinin təşviq edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | mütəmadi |
| 5.3.7. | Sosial sifariş əsasında günərzi qayğı və icma əsaslı sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşviq edilməsi, regionlarda bu cür mərkəzlər şəbəkəsinin çoxaldılması və mövcud mərkəzlərin işinin təkmilləşdirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2020–2025 |
| 5.3.8. | Uşaqlar üçün ümumrespublika qaynar xəttinin yaradılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2021 |
| 5.3.9. | Tərbiyə məqsədilə uşaqlara qarşı hər cür zorakılığın mənfi nəticələri haqqında maarifləndirmə tədbirlərinin kütləvi informasiya vasitələrini cəlb etməklə əhatə dairəsinin genişləndirilməsi | Milli Televiziya və Radio Şurası, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| 5.3.10. | Erkən nikah və qohumlar arasında nikah hallarının qarşısının alınması sahəsində tədbirlərin gücləndirilməsi və maarifləndirmə işinin təşkili | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Milli Televiziya və Radio Şurası, Gənclər Fondu | mütəmadi |
| 5.3.11. | Uşaq əməyinin və uşaqların cinsi istismarı hallarının aşkar edilməsi və bu halların qarşısının alınması istiqamətində qurumlararası əlaqələndirmə işinin təşkili və fəaliyyətin gücləndirilməsi, o cümlədən bu halların mənfi nəticələri barədə ictimaiyyətin maarifləndirilməsi, dövlət orqanlarının (qurumlarının) və qeyri-dövlət sektorunun nümayəndələri üçün uşaq əməyinin istismarı hallarının aradan qaldırılması sahəsində təlimlərin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi<br>tövsiyə edilsin:Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasını cəlb etməklə | mütəmadi |
| 5.3.12. | Baxımsız və kimsəsiz uşaqların sosial reabilitasiyası, xüsusilə onların peşə təhsilinə yönləndirilməsi ilə bağlı tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2021–2025 |
| 5.3.13. | Təhsil müəssisələrində psixoloji xidmətin təkmilləşdirilməsi və təşviqi | Təhsil Nazirliyi | 2020–2025 |
| 5.3.14. | Təhsil müəssisələrində peşəyönümlü məsləhətlər xidmətinin təkmilləşdirilməsi və təşviqi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | 2021–2025 |
| 5.3.15. | Hakimlər, habelə prokurorluq, polis və digər hüquq mühafizə orqanlarının əməkdaşları üçün yetkinlik yaşına çatmayanlarla davranış qaydalarının hazırlanması və təlim proqramlarının həyata keçirilməsi | Nazirlər Kabineti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi | 2020–2025 |
| 5.3.16. | Ermənistanın təcavüzü nəticəsində əziyyət çəkənailələrin uşaqlarına sosial və psixoloji dəstək göstərilməsi istiqamətində tədbirlərin gücləndirilməsi | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2020–2025 |
| 5.3.17. | Qaçqın və sığınacaq axtaran, eləcə də digər həssas qrupa daxil olan 18 yaşınadək əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsil, sağlamlıq və sosial hüquqlarının təmin edilməsi istiqamətində tədbirlər görülməsi | Dövlət Miqrasiya Xidməti, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2020–2025 |
| 5.3.18. | Xarici ölkələrdə münaqişə qurbanı olmuş və Azərbaycan Respublikasına qayıtmış, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı readmissiya sazişləri çərçivəsində geri qaytarılmış Azərbaycan Respublikası vətəndaşı olan uşaqların ölkəyə qaytarıldıqdan sonra reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində tədbirlər görülməsi, o cümlədən onlara hüquqi, sosial, psixoloji, pedaqoji yardım göstərilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| 5.3.19. | Çətin həyat şəraitində olan uşaqlarla bağlı layihələrin qeyri-dövlət sektoru tərəfindən həyata keçirilməsinin təşviqi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan RespublikasıPrezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2020–2025 |
| 5.3.20. | Aztəminatlı ailələrə yönəlmiş dəstək və məşğulluq tədbirlərinin gücləndirilməsi, həmin ailələrdən olan uşaqların davamlı təhsil hüququnun təmin edilməsi istiqamətində tədbirlər görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| **5.4. Uşaqların mədəni-estetik tərbiyəsi və onların inkişaf hüququnun təmin edilməsi** | | | |
| 5.4.1. | Ümumrespublika uşaq forumlarının keçirilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2021–2025 |
| 5.4.2. | Uşaqların maraqlarına toxunan məsələlərdə onların iştirakının təmin edilməsi sahəsində fəaliyyətin gücləndirilməsi və bu istiqamətdə yeni platformalar yaradılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2021–2025 |
| 5.4.3. | Müxtəlif yaşlı uşaqların Azərbaycan dili biliklərini inkişaf etdirəcək müasir vasitələrlə (jurnallar, kitablar, televiziya verilişləri və s.) təmin edilməsi üçün tədbirlər görülməsi, uşaqlarda düzgün nitq vərdişlərinin və bacarıqlarının formalaşdırılması məqsədilə müvafiq tövsiyələr hazırlanması | Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Milli Televiziya və Radio Şurası | 2020 2025 |
| 5.4.4. | Uşaq teatrının və uşaqların ədəbi-bədii yaradıcılığının inkişafı istiqamətində tədbirlərin genişləndirilməsi | Mədəniyyət Nazirliyi | 2021 2025 |
| 5.4.5. | Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində işlərin gücləndirilməsi | Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| 5.4.6. | Xaricdə yaşayan azərbaycanlı uşaqların Azərbaycan haqqında daha dərin biliklərə malik olması, ana dilini öyrənməsi və tətbiqinin genişləndirilməsi, öz tarixi Vətəni ilə əlaqə yaratması, bu əlaqələrin inkişafı məqsədilə tədbirlərin təşkil edilməsi | Diasporla İş üzrə Dövlət Komitəsi | mütəmadi |
| 5.4.7. | Uşaqların ekoloji sahədə maarifləndirilməsi sahəsində tədbirlər görülməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Turizm Agentliyi | mütəmadi |
| 5.4.8. | Uşaqlarda təhlükəsiz və sağlam həyat tərzi mədəniyyətinin formalaşdırılması, fiziki inkişafın təbliği, onların zərərli vərdişlərdən qorunması istiqamətində tədbirlərin gücləndirilməsi | Fövqəladə Hallar Nazirliyi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi | mütəmadi |
| 5.4.9. | Yeniyetmələr üçün yay tətili müddətində düşərgələrin təşkil edilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi | 2021 2025 |
| 5.4.10. | Yeniyetmələrin intellektual inkişafını stimullaşdıran və təşviq edən layihələrin həyata keçirilməsi və dəstəklənməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2020–2025 |
| 5.4.11. | Mərkəzi kitabxanaların, kitabxana fondlarının uşaq ədəbiyyatı və uşaqlar üçün nəzərdə tutulan müxtəlif informasiya resursları ilə komplektləşdirilməsi və kitabxanaların sağlamlıq imkanları məhdud olan 18 yaşınadək uşaqlar üçün xüsusi kitabxana texnikası və nəşriyyat məhsulları ilə (Brayl əlifbası, audiokitab və s.) təchiz edilməsi | Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2020–2025 |
| 5.4.12. | Uşaqların asudə vaxtının səmərəli təşkili, uşaq istirahət yerlərinin, idman və mədəniyyət ocaqlarının fəaliyyətinin təkmilləşdirilməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2021–2025 |
| 5.4.13. | Uşaqlar (sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların maraqları nəzərə alınmaqla) üçün teleradio məhsullarının, xüsusilə cizgi filmlərinin, uşaq mahnılarının, uşaq tamaşalarının və maarifləndirici sosial çarxların hazırlanmasına dair dövlət sifarişlərinin verilməsi | Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Milli Televiziya və Radio Şurası | 2021–2025 |
| 5.4.14. | İnformasiya-kommunikasiya texnologiyalarının tədrisinin təkmilləşdirilməsi, uşaqlarda yaşına uyğun innovativ vərdişlər yaradılması, uşaqların texniki yaradıcılıq potensialının və alqoritmik düşüncə bacarıqlarının artırılması, kodlaşdırma, robotexnika, kiberidman və s. aktual mövzular üzrə müsabiqə, olimpiada və digər həvəsləndirici tədbirlərin keçirilməsi | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2021–2025 |
| 5.4.15. | Uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların bədən tərbiyəsi və idmana cəlb edilməsi məqsədilə infrastrukturun yaxşılaşdırılması | Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2021–2025 |
| 5.4.16. | Uşaqların internet məkanında, sosial şəbəkələrdə zərərli informasiyadan qorunması istiqamətində təbliğat-təşviqat işinin aparılması, maarifləndirici vəsaitlərin hazırlanması, informasiya təhlükəsizliyi sahəsində onların bilik və bacarıqlarının artırılması üçün təlimlərin keçirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2021 2025 |
| 5.4.17. | "Media savadlılığı" ilə bağlı materialların onlayn vasitələrlə orta təhsil müəssisələrində nümayiş olunması | Milli Televiziya və Radio Şurası, Təhsil Nazirliyi | 2021–2025 |
| 5.4.18. | Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2020–2025 |
| **5.5. Uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin monitorinqi və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi** | | | |
| 5.5.1. | Təhsildən yayınma hallarının qarşısının alınması məqsədilə nəzarətin gücləndirilməsi | Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2020–2025 |
| 5.5.2. | Uşaqlara qarşı zorakılıq hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması istiqamətində problemlərin öyrənilməsi məqsədilə statistik təhlillər aparılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Dövlət Statistika Komitəsi | 2020–2025 |
| 5.5.3. | Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının fəaliyyətinin təkmilləşdirilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi | 2021–2023 |
| 5.5.4. | Vahid Miqrasiya Məlumat Sistemində ölkə ərazisinə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan 18 yaşına çatmamış əcnəbi və vətəndaşlığı olmayan şəxslərin vahid məlumat bazasının yaradılması və belə şəxslər barədə məlumatların mütəmadi qaydada həmin bazaya daxil edilməsi | Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2021 |
| 5.5.5. | Uşaqların peşəyönümü meyillərini özündə ehtiva edən sorğuların hazırlanması və həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | mütəmadi |

**Qeyd:**

1. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Fəaliyyət Planının 5.3.15-ci yarımbəndində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində iştirak etsin.
2. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, Fəaliyyət Planının 5.1.2-ci, 5.1.11-ci, 5.3.15-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində iştirak etsin.
3. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) tövsiyə edilsin ki, bu Fəaliyyət Planının 5.1-ci bəndində, 5.3.9-cu, 5.3.10-cu və 5.3.15-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində iştirak etsin.

# Fransanın antiazərbaycançı mövqeyi bu dəfə də iflasa uğrayacaq

**Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən Vətən müharibəsi ədalətin qələbəsi ilə başa çatdı. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə çevrilən bu savaş döyüş meydanında Ermənistanın darmadağın edilməsi ilə 30 il davam edən işğala son qoydu. Bu qalibiyyətlə bütün dünya öz haqqı uğrunda mübarizə aparmağa qadir olan güclü Azərbaycan dövlətini gördü. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu Qələbə ilə vətənimizi bütün dünyaya həm də döyüş meydanında qalib dövlət kimi təqdim etdi.**



Azərbaycanın qələbəsinə bütün dostlarımız sevindi, erməni işğalına son qoyulmasını öz zəfərləri kimi qeyd etdilər. Erməni təəssübkeşlərinin və havadarlarının bağrına isə xəncər kimi sapıldı bu qələbə. Bu baxımdan Fransanın siyasi dairələrinin Vətən müharibəsinin ilk günündən neytrallıq prinsipini itirməsini və Azərbaycanın əleyhinə açıq şəkildə ortaya qoyduqları mövqeni başa düşmək çətin deyil.

Fransa danışıqlar prosesində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədridir. Həmsədrlik institutunun bəlli prinsipləri var ki, bunlardan ən birincisi neytrallığın qorunmasıdır. Yəni həmsədr olan dövlət bu prinsiplər üzrə öhdəliyinə uyğun olaraq danışıqlar prosesinin tərəflərindən hansınınsa birinin tərəfini tutmalı, onun mövqeyini





müdafiə etməli deyil. Amma Fransada güclü erməni lobbisinin olması səbəbindən bu ölkənin müxtəlif formalarda Ermənistana siyasi dəstək verməsi məlum idi. Zaman-zaman bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ortaya qoyulan qərəzli mövqenin Fransa senatının deputatları tərəfindən birmənalı dəstəklənməsi də erməni təəssübkeşliyindən irəli gəlir. Fransa senatında erməni soyqırımının tanınması və bir neçə il əvvəl erməni soyqırımının inkar edilməsinə görə qanunun qəbul edilməsi tək qardaş Türkiyəyə deyil, həm də Azərbaycana qarşı yönəlmiş addımlardır. Çünki erməni sevgisini gizlətməyən bir dövlət Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə heç vaxt razı ola bilməzdi.

28 ildir yaradılmış ATƏT-in Minsk qrupunun danışıqlar prosesində heç bir müsbət nəticə əldə edə bilməməsinin səbəblərindən biri də məhz Fransanın tutduğu ədalətsiz mövqe, Ermənistanın işğal siyasətini dəstəkləməsidir. Bu ölkənin rəsmi dairələri bir dəfə də olsun BMT-nin qətnamələrinin yerinə yetirilməsinə çağırış etməyiblər. Bir dəfə də olsun danışıqlar prosesində Fransa siyasi dairələri tərəfindən Azərbaycanın haqlı mövqeyini müdafiə edən fikir səsləndirilməyib. Onu da xatırladım ki, iki il əvvəl Fransanın bir sıra şəhərlərinin bələdiyyələri ilə Dağlıq Qarabağdakı separatçı rejim arasında "dostluq xartiyaları" imzalanmışdı. Düzdür, Azərbaycan dövlətinin uğurlu diplomatiyası nəticəsində həmin bələdiyyələrin Dağlıq Qarabağın separatçı rejimi ilə imzaladıqları "xartiyalar" elə Fransa məhkəmələri tərəfindən ləğv edildi. Bununla belə bu cür sənədlərin imzalanması Fransanın siyasi dairələrinin razılığı olmadan baş tuta bilməzdi.

Vətən müharibəsinin ilk günlərindən isə Fransa neytral mövqeyini kənara qoyaraq açıq şəkildə Ermənistanın müdafiəsinə qalxdı. Fransa Prezidenti Makron erməni sevgisindən irəli gələn bəyanatları ilə öncə onu təsdiq etdi ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların baş tutmamasının səbəbkarı elə Fransanın özüdür. Fransanın dövlət başçısı öz açıqlamaları, telefon zəngləri, digər ölkələrin rəhbərləri ilə apardığı danışıqlarla Azərbaycana qarşı təzyiq yolunu tutdu. Lakin Azərbaycan Prezidenti İlham Əliyev sübut etdi ki, heç bir siyasi təzyiq onu yolundan döndərə, torpaqlarımızın işğaldan azad edilməsinin qarşısını ala bilməz. Həm Makronun, həm də digər fransız siyast dairələrinin niyyətləri gözlərində qaldı və Azərbaycan işğal altındakı torpaqlarını azad edərək, Ermənistanın kapitulyasiyasına nail oldu.

Azərbaycana qarşı təzyiqlərin mümkünsüz olduğunu görən Fransa ötən ay təşəbbüslə çıxış edərək BMT Təhlükəsizlik Şurasının rəhbəri adından Dağlıq Qarabağda başlanmış müharibə ilə bağlı Ermənistanın maraqlarına cavab verən qətnamənin qəbuluna da cəhd etdi. Hansı ki, bu qətnamədə BMT-nin 1993-cü ildə qəbul etdiyi, Fransanın özünün də lehinə səs verdiyi 4 qətnaməyə, ümumiyyətlə, istinad edilmirdi. Ona görə Prezident İlham Əliyevin sədri olduğu Qoşulmama Hərəkatına üzv olan dövlətlər tərəfindən həmin qərəzli qətnamənin qəbulunun qarşısı alındı və Fransa tərəfi rüsvay olaraq bu layihəni geri götürdü.

Noyabr ayının 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanat ölkəmizin Dağlıq Qarabağ münaqişəsindəki hərbi qələbəsinin nəticəsi oldu. Bu bəyanatla Ermənistan kapitulyasiya edildi və Prezident İlham Əliyevin şərtlərinə uyğun olaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarının çıxarılmasına dair öhdəlik götürdü. Artıq bu rayonlardan ikisi - Ağdam və Kəlbəcər azad olundu. Dekabrın 1-də isə Laçın rayonu Azərbaycan Ordusunun nəzarətinə keçəcək.

Lakin görünən odur ki, Fransanın siyasi dairələri Azərbaycan torpaqlarının işğaldan azad olunması faktı ilə barışa bilmirlər. Son günlər bu ölkənin siyasi dairələrinin açıqlamaları, üçtərəfli bəyanata qarşı çıxmaları da bunu göstərdi. Noyabrın 25-də Fransa Senatında Dağlıq Qarabağdakı separatçı rejimin tanınması ilə bağlı qətnamənin qəbulu isə bu ölkənin Ermənistanın işğal siyasətinə dəstək verməsinin aydın sübutu oldu.

Dağlıq Qarabağda ədalətin bərpa olunmasından sonra belə bir qətnamənin qəbul edilməsi Fransanın tarixən yürütdüyü imperialist siyasətdən qaynaqlanır. Bu həm də fransanın son illərdə güclənən islamofob siyastini aydın nümunəsidir. Demokratiya pərdəsinə bürünən Fransanın orta əsrlərdən başlayaraq planetin müxtəlif yerlərində ekspansiya həyata keçirdiyi, Afrikada soyqırımlar törətdiyi unudulmayıb. Bu günün özündə də planetin müxtəlif yerlərində Fransa işğalı davam edir.

Fransa senatında bu qətnamənin qəbulu zamanı bəzi həqiqətlər də ortaya çıxdı. Məlum oldu ki, qətnamə layihəsinin müəllifləri ermənilərin Fransada kompakt yaşadıqları şəhərlərdən seçilən senatorlardır. Bu layihəyə səs verənləri Fransanın maraqlarından daha çox növbəti seçkilərdə erməni lobbisinin dəstəyinin əldə edilməsi düşündürür. Eyni zamanda məlum olur ki, gözlərini yumub layihəyə səs verənlərin böyük əksəriyyətinin Dağlıq Qarabağda hərbi əməliyyatların başa çatmasından belə xəbərləri yoxdur. Bəli, Fransa senatı bu cür fəaliyyəti ilə nəinki öz dövlətini gözdən salır, həm də dövlətçiliyinə böyük zərbə vurur. Qətnamənin qəbulundan sonra bir neçə senatorun öz səsini geri götürməsi bu həqiqətləri təsdiq edir.

Bütövlükdə, bu qətnamə beynəlxalq hüquqa olan hörmətsizliklə yanaşı, Fransanın siyasi rüsvayçılığıdır. Bu, Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxan, üçtərəfli Bəyanata qısqanclıqla yanaşan Fransa parlamentinin təxribatçı və utanverici addımıdır. Azərbaycan üçün bu qətnamə adi kağız parçasından başqa bir şey deyil. Əgər Fransa senatı bu addımı ilə həm də ermənilərə təsəlli vermək istəyirsə, artıq bunun heç bir faydası yoxdu. Çünki Azərbaycan torpaqlarını azad edib, Dağlıq Qarabağın tacı olan Şuşa şəhəri öz sahiblərinə qayıdıb, ikinci erməni dövlətinin yaradılması kimi sərsəm ideyaya birdəfəlik son qoyulub.

Fransanın siyasi dairələri erməni lobbisinin əlində alətə çevrildiklərindən Azərbaycanla olan münasibətləri dəyərləndirə bilmədilər. Bundan sonra Azərbaycan özü Fransa ilə siyasi münasibətlərinə yenidən baxacaq. Milli Məclisin bununla bağlı hökumətə çağırış etməsi də tamamilə təqdirəlayiqdir. Bu mənada İkinci Qarabağ müharibəsində uduzan tək Ermənistan yox, həm də Fransadır.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

# Terror və soyqırımı Fransa tarixinin əsl simasıdır

*Əvvəli 1-ci səh.*

100 ildən artıq bir müddətdir ki, Fransada məktəb dərsliklərində türk düşmənçiliyi tədris edilir. Fransız Morqan XX əsrin əvvəllərində "Erməni xalqının tarixi"ni yazmaq sifarişini aldıqda qeyd edirdi ki, "bu məsələ, yəni erməni xalqının tarixinin yazılması Fransanın dünya müharibəsində iştirakından, hətta qələbəsindən də daha əhəmiyyətlidir". Birində türk-islam düşmənçiliyi varsa, o birində xristian təəssübkeşliyindən qidalanan ermənisevərlikdir. Fransanın tarixində ermənisevərliyində qabarma və çəkilmə dövrləri olsa da, ümumi siyasət dəyişməz olaraq qalmışdır.

Fransanı ən çox narahat edən məqam tarixi ilə üzləşməkdir. Fransa böyük coğrafi kəşflərdən başlayaraq XX əsrin sonlarına qədər işğal etdiyi torpaqlarda - üç qitədə olan müstəmləkələrində hələ də tarixin arxivlərində saxlanılan soyqırımı aktları həyata keçirmişdir. Fransanın XIX əsrin 30-cu illərindən başlayan tarixinə işıq tutsaq, aydın olar ki, bu ölkənin tərcümeyi-halı soyqırımı aktları ilə nə qədər zəngindir. Fransa aparıcı dövlətlərin soyqırımı reytinqində ön sıralarda durur. Bu ölkə soyqırımı aktlarını ört-basdır etmək üçün öz gözündə tiri görməyib başqalarının gözündə saxta soyqırımı tükünü axtarır.

Fransanın törətdiyi soyqırımı silsiləsi, əvvəlki dövrlər nəzərə alınmasa, 1830-cu ildə Əlcəzairin işğalı ilə başlanmışdır. İşğal prosesi çox vəhşiliklərlə müşayiət olunmuş, qarşı qüvvələr tamamilə qılıncdan keçirilmiş və güllələnmişdir. Fransızlar yerli əlcəzairlilərə "ən yaxşı əlcəzairli - ölü əlcəzairlidir" fəlsəfəsi ilə yanaşmışlar. Əlcəzair xalqı Fransanın hakimiyyəti altında 132 ildə (1830-1962) müstəqillik uğrunda mübarizə aparmış və nəticədə fransızlar soyqırımı cinayətlərini daim artırmışlar. Hətta Amerika, Avropa mənbələri aydın göstərir ki, Fransa Əlcəzairdəki müstəmləkəçilik müddətində 1,5 milyon əlcəzairliyə qarşı soyqırımı həyata keçirmişdir. Bu gün fransızların Əlcəzairdəki soyqırımına aid sənədlər informasiya agentliklərinin saytlarında geninə-boyuna sərgilənir. Gedib tarixin dərin qatlarında saxta soyqırımı axtarmağa ehtiyac yoxdur. Saxta soyqırımını parlamentə çıxarmaqdansa, Fransa XX əsrin 50-60-cı illərində Əlcəzairdə mədəni dünyanın, bu gün yaşayan insanların gözləri qarşısında həyata keçirdiyi soyqırımı cinayətlərindən utanmalıdır. Saxta erməni soyqırımını müzakirə etmək, ona qiymət vermək böyük fransız inqilabının vətənində insan haqlarının, düşüncə azadlığının tam qiymətsiz olduğunu aşkarlayır.

Fransa Vyetnamda çox böyük soyqırımı həyata keçirmiş hərbi birliklərini Əlcəzairdə başlanmış xalq hərəkatını boğmaq üçün gətirmiş və bu hərəkata qarşı hücum birlikləri təşkil etmişdi. Fransa Əlcəzairdəki hərbi hava qüvvələrindən də geniş istifadə etmiş, Vyetnamdakı məğlubiyyətin əvəzini bu ölkədə çıxmışdır.

Fransızlar yalnız partizanlara deyil, mülki əhaliyə qarşı da amansızlıqla qırğın həyata keçirmişlər. Fransızlar onlara qarşı ciddi müqavimət göstərilən yerlərdə əhaliyə daha amansız yanaşır və orta əsr invizisiyasından geninə-boluna istifadə edirdilər. Fransızlar Əlcəzair sahillərinə gəmilər vasitəsilə gələn və gələ biləcək hər cür hərbi və iqtisadi köməyin qarşısını alırdılar. Ölkəni aclıqla təslim olmağa məcbur edərkən çoxsaylı insanların qırılmasına səbəb olmuşdular.

Əlcəzairdə müqavimət hərəkatı 1954-cü ildən 1962-ci ilin 19 martına qədər davam etmişdir. Hər gün orta hesabla 557 əlcəzairli öldürülməklə 1,5 milyon insana qarşı soyqırımı həyata keçirilmişdir. Əlcəzair qurtuluş müharibəsinə başladıqda əhalisinin sayı 9 milyon olmuşdur. Qurtuluş müharibəsindən sonar 7,5 milyon əlcəzairli qalmışdır. Bəs Fransa bunları nə vaxt parlamentin müzakirəsinə çıxaracaq? Nə zaman əlcəzairlilərdən üzr istəyəcəkdir?

Fransanın soyqırımı ensiklopediyası-tərcümeyi-halı yalnız Əlcəzairlə məhdudlaşmır. Fransa üç qitədə olan müstəmləkələrində yerli əhaliyə qarşı soyqırımı törətmiş, əhalini ölkələrindən çıxmağa məcbur etmiş, dinlərini dəyişdirmiş və onlara ən adi insani yaşamaq haqqı verməmişdir.

Bu ölkənin soyqırımının izləri Afrikanın hər yerində vardır. Mərakeş ərazisində fransız müstəmləkəçiliyinin izləri bu gün də mətbuat səhifələrində aydın görünür. Fransanın müstəmləkəsi olan ölkələrin əksəriyyətində xalqın dilində edam meydanı deyimi var. Bu fransızların yerli xalqa qarşı tətbiq etdikləri edamlarla əlaqədardır.

XIX əsrin 60-cı illərində Fransa əsgəri birlikləri Cibutiyə daxil olmuşdur. O zaman Cibuti qəbilələrin federasiyası əsasında idarə olunurdu. Fransızlar qəbilə rəislərini görüşə dəvət edir, onlarla ayrıca müqavilə bağlayırdılar. Müqavilə bağlanmasına baxmayaraq, bölgənin müsəlman əhalisi fransız müstəmləkəçiliyi ilə barışmamış, ona qarşı mübarizə aparmışdır. 1917-ci ildə Cibutidə başlanan azadlıq mübarizəsi qan gölündə boğulmuş, 100 minlərlə cibutili öldürülmüşdü.



Fransız səlahiyyətliləri Cibutidə islama qarşı da ciddi mübarizə aparırdılar. İnsanları islam dinindən uzaqlaşdırmaq üçün ciddi missionerlik fəaliyyətinə başlamışdılar. Birinci olaraq müsəlmanların məscidlərini zor əllərindən alırdılar. Yeni məscid tikməyə icazə vermirdilər. Məscid tikmək istəyənlərə vergi tətbiq edirdilər. Ölkədə islami təhsili yasaq edilir, missionerlər vasitəsilə xristianlaşma prosesini həyata keçirirdilər. Lakin bu sahədə əsaslı uğurlar qazana bilmədikdə Avropadan xristianları köçürərək Cibutiyə yerləşdirmişdilər. Hazırda Cibutidə olan xristianlar yerli əhali olmayıb, Avropadan ora köçürülənlərdir.

Çad torpaqlarının fransızlar tərəfindən işğalı da bu ölkənin soyqırımı tərcümeyi-halının bir parçasıdır. Yerli xalqın uzun müddət ciddi müqavimət göstərməsinə baxmayaraq, XIX əsrin sonlarına doğru ingilislər, fransızlar və almanlar Çad gölünün ətrafının bölünməsinə nail olublar. 1911-ci ildə Fransa Çadı tamamilə ələ keçirə bilib. Fransız işğalçıları qətliamlara haqq qazandırmaq üçün iddia edirlər ki, onlara qədər Çadda xalq ibtidai vəziyyətdə yaşamışdır. Çadda məscid və mədrəsələr dağıdılmış, islam dini qadağan edilmiş, müsəlman alimləri həbs olunmuşdular. Fransızların ən dəhşətli soyqırımının yeni adını elm adamlarının soyqırımı adlandırmaq olar. Fransızlar 1917-ci ildə Çadda dini həyatı yenidən nizamlamaq üçün konfrans təşkil etdiklərini bildirirlər. Konfransa hər yerdən fransızların dini islahatlar keçirmək vədlərinə inanan elm adamları toplaşmağa başlayır. Konfransın başlanmasına bir neçə saat qalmış fransız əsgərləri salona girərək elm adamlarının hamısını öldürürlər. Ötən əsrin 50-ci illərinin sonlarına qədər fransızlar Çadda soyqırımını davam etdirmişlər.













Fransa Qabon torpaqlarında da soyqırımı həyata keçirmiş, islam dinini qadağan etmiş, din xadimlərini öldürmüş, 10 minlərlə insanı yaşamaq hüququndan məhrum etmişdir. Kamerunda da fransızların törətdiyi milli, mənəvi soyqırımı izlərinə aid sənədlər elmi mübadiləyə daxil edilmişdir. Fransa Nigeriyada da 1960-cı ilə qədər qırğınlar törətmiş, müqavimət göstərənləri öldürmüş, xristianlaşmanı həyata keçirmişdir. Fransa həm də dünya tarixində azadlıq uğrunda mübarizə aparan xalqlara qarşı zəhərli qazdan istifadə etmişdir. Qaz kameraları haqqında vəhşiliyi faşistlər fransızlardan öyrənmişdilər.

1881-ci ildə Fransa Tunisi işğal etmişdir. Fransızlar burada da ən amansız dəhşət, terror, azacıq müqavimət göstərənlərə qarşı soyqırımı keçirən rejim qurmuşdular. Onlar öz missionerlərini Tunis mənşəli xalqın nümayəndəsi adından təqdim etmiş və dəstəkləmişdilər. Burgiba adlı birisi uzun illər Tunisdə Fransanın ssenarisini həyata keçirmişdir. Fransızların təşkil etdikləri hərbi mərkəzlər zülm, işgəncə, soyqırımı düşərgələri idi.

Belə bir ölkənin insan haqlarından və düşüncə azadlığından danışmağa haqqı yoxdur.

***Həsənbala SADIQOV,***
***Gəncə Dövlət Universitetinin professoru***

# İlham Əliyev Ağdam həsrətinə son qoydu

Əvvəli 1-ci səh.



Vətən müharibəsinin məntiqi nəticəsi olaraq noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, habelə Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanat işğalçının məğlubiyyətinin rəsmi və hüquqi təsdiqi oldu. Bəyanatda yer alan müddəalar və qarşıya qoyulan vəzifələr Ermənistanın respublikamızın ərazi bütövlüyü ilə bağlı razılaşmaları yerinə yetirməsinə məcbur edilməsindən ibarətdir. 30 ilə yaxın idi torpaqlarımızı işğal altında saxlayan, sülh danışıqlarının bəndini yerinə yetirməkdən boyun qaçıran Ermənistanı Azərbaycan güc yolu ilə torpaqlarımızı tərk etməyə məcbur etdi. Azərbaycan Ordusu işğalçını torpaqlarımızdan qovaraq, dəmir yumruqla məhv edərək çıxardı. Ali Baş Komandan İlham Əliyev bütün dünyaya, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrlərinə sübut etdi ki, danışıqları



anlamayan Ermənistanı müharibə yolu ilə başa salmaq mümkündür.

Savaş günlərində Azərbaycan Ordusu bütün dünyaya milli mübarizənin əsl nümunəsini göstərdi. Rəşadətli əsgərlərimiz döyüş meydanlarında yeni qəhrəmanlıq salnamələri yaratdılar, bir-birinin ardınca kənd və şəhərlərimizi, rayonlarımızı, milli qürurumuzun ünvanı olan Şuşanı işğaldan azad etdilər. Xalqımız bu müddətdə Ali Baş Komandan İlham Əliyevin bir daha dərin siyasi iradəsini, sərkərdə qətiyyətini gördü. İlham Əliyevin mübarizə əzmi hər birimizi böyük qələbəyə ruhlandırdı, ordumuzun uğurları ilə müşayiət olundu.

Üçtərəfli bəyanatın şərtlərinə əsasən noyabr ayının 20-də işğaldan azad olunan Ağdam rayonunun Azərbaycanın nəzarəti altına keçməsi Cəbrayıldan, Füzulidən, Zəngilandan, Qubadlıdan və Şuşadan sonra Vətən müharibəsində bütün xalqımızın növbəti tarixi zəfəri oldu. Azərbaycan Ordusu bir güllə belə atmadan, itki vermədən, yalnız Ermənistanı kapitulyasiyaya məcbur etməklə Ağdamı işğaldan azad etdi. 27 illik işğaldan sonra Ağdam öz azadlığına, öz sahiblərinə qovuşdu.

Biz ağdamlılar əmin idik ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin uğurla və qətiyyətlə davam etdirdiyi siyasi kursun nəticəsi olaraq günlərin birində torpaqlarımız, o cümlədən Ağdam düşmən tapdağından azad ediləcək. Hər gün bu arzu ilə yaşadıq, bu inamla torpaqlarımızın azad olunacağı tarixi hadisəni gözlədik. Artıq Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət bayrağı dalğalanır. Öz müdrik siyasəti, yüksək qətiyyəti və diplomatik ustalığı ilə İlham Əliyev Ağdamı bizə qaytardı. Ağdam azaddır və bütün ağdamlılar bu günlərdə sözlə ifadə edilməyəcək qədər dərin sevinc hissi yaşayırlar.

Ağdamın azad edilməsindən cəmi 3 gün sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam şəhərinə səfər etmələri isə ictimaiyyət və ağdamlılar tərəfindən bir başqa sevinc və coşqu ilə qarşılandı. Bu, Müzəffər Ali Baş Komandanın, qalib sərkərdənin səfəri idi. Öz çıxışında bir daha ağdamlıları təbrik edən Prezident İlham Əliyev sanki qəlbimizdən keçənləri duyurdu: *"Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik".*

Ağdamın işğaldan azad edilməsi BMT Təhlükəsizlik Şurasının 1993-cü il iyulun 29-da qəbul etdiyi 853 saylı qətnamənin icra olunmasıdır. Bu sənəddə işğalçı qüvvələrin Ağdam rayonunu və digər işğal altındakı rayonları dərhal tərk etməsi tələb olunurdu. Lakin Ermənistan ötən 27 ildə bu qətnamənin tələblərini yerinə yetirməkdən imtina etdi. Təəssüf ki, ayrı-ayrı dövlətlərə qarşı beynəlxalq hüquqi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı təzyiqlər göstərilsə də, Ermənistana gözün üstə qaşın var deyən olmadı. Üstəlik, müxtəlif vasitələrlə Ermənistanın işğal siyasətinə dəstək ifadə olundu. Lakin 44 günlük müharibədə qalib olan Azərbaycan Ermənistanı BMT-nin Ağdamla bağlı qətnaməsini yerinə yetirməyə məcbur etdi. İlham Əliyev güc yolu ilə beynəlxalq hüququn tələbinin icra olunmasını təmin etdi. Azərbaycan sübut etdi ki, özü təkbaşına işğalçını torpaqlarından qovmağa qadirdir.

Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə həm də bütün dünya erməni vəhşiliyinin şahidi oldu. Kənd və şəhərlərimizin dağıdılması hər birimizi göynətdi. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib, təbiətimizə qəsd edilib. Ağdam şəhərindən əsər-əlamət qalmayıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müharibə tam başa çatdıqdan sonra dağıdılmış yurd yerlərimizin qiymətləndirilməsi aparılacaq. Bu işə beynəlxalq qurumlar və xarici ekspertlər də cəlb ediləcək. 30 il ərzində bizə vurulmuş ziyan hesablanacaq və bundan sonra beynəlxalq məhkəmələrdə Ermənistana qarşı təzminat davası açılacaq. O cümlədən son günlərdə də Ağdamı və Kəlbəcəri yandıran düşmən bunların da cavabını mütləq verəcək.

*Ağdam sovet illərində nəinki Azərbaycanda, bütün ittifaq miqyasında tanınan rayon idi. Ağdamın şöhrəti ittifaqın hər yerindən gəlirdi. Əminik ki, Prezident İlham Əliyevin sayəsində işğaldan azad olunmuş bütün şəhər və rayonlarımız, kənd və qəsəbələrimiz ən qısa müddətdə yenidən qurulacaq. Ölkəmizin inkişafı və dövlət başçısının yüksək siyasəti bunu əminliklə söyləməyə əsas verir. Ağdam rayonu da tezliklə əvvəlki şöhrətini yenidən özünə qaytaracaq, Azərbaycanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək.*

**Vasif HƏSƏNOV,**
**YAP Ağdam Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini**



## Arxa cəbhənin qəhrəmanları

**27 sentyabr ruhumuzun diriliş, milli kimliyimizin oyanış günü kimi Azərbaycan xalqının əsrlərin o üzündə belə qürurla anılacaq tarixinə qızıl hərflərlə həkk olundu. Qalibiyyətə susamış xalqımızın bir qərinəlik torpaq nisgilinin getmə anına dönüb 10 noyabr Zəfəri olaraq könüllərin şah zivəsində özünə yer etdi.**

**Bu 44 gün ərzində, sanki möcüzəvi bir dünyada var olduq, sonsuzluğun özünə qədər yol alacaq bir ömür keçdik. İlahi hisslər daddıq, varlığına, həyata keçəcəyinə xəyallarımızda belə inana bilməyəcəyimiz müqəddəs gerçəklik yaşadıq.**

**Bu Qələbə çələngini xalqımızın hər bir fərdi öz əlləriylə zərrə-zərrə, ilmə-ilmə hördü. Kimisi özünü bu torpağa qurban deyib şəhidlik zirvəsinə yüksəldi, kimisi canı, qanı bahasına qazi oldu, kimisi həkim kimi, kimisi də gecə-gündüz zəfər hayqırışımızı ən yüksək zirvələrdən dünyaya çatdırsın deyə əlindən gələni etdi.**



# Zəfərə vətəndaş töhfəsi

### Qələbəyə Dəstək Hərəkatı işğaldan azad olunmuş ərazilərin bərpa prosesində də fəal iştirak etmək niyyətindədir

Birimiz şəhid tabutuna çiyin verərək, bəzən döyüşdə oğul itirən analara övlad olaraq, bəzən də əl açıb səngərdəki əsgərlər üçün Ulu Tanrıya dua edərək...

Vətənin başına dolandıq, vətənpərvərlik etdik, əsl vətəndaş olduq...

### Arxa cəbhənin də öz qəhrəmanları oldu...

Hər zaman deyirlər ki, ən böyük vətənpərvər öz işini doğru, dürüst və peşəkarlıqla icra edəndir. Bu günlərdə Azərbaycan xalqı da birləşərək, Vətən savaşımızın qalibiyyətlə bitməsi üçün əlindən gələn hər şeyi etməyə çalışdı. Həm ön səngərdə vuruşdu, həm də arxa cəbhədə mübarizə apardı. Qaranquşun dimdiyindəki bir damla su ilə odu söndürmək üçün göstərdiyi əzmkarlıq nümunəsi ilə hər kəs cani-dildən çalışdı ki, bu qələbədə kiçik də olsa payı olsun, dövlətimizə, ordumuza, əsgərimizə, ümumilikdə Qələbəmizə töhfə versin. Buna görə də xeyli sayda ictimai təşəbbüslər başladı, könüllü hərəkatlara start verildi, beynəlxalq aləmdə səsimizi duydurmaq, informasiya müharibəsində savaşmaq üçün haqq yolunda səfərə çıxıldı...

Bir sözlə, arxa cəbhənin də öz qəhrəmanları formalaşdı...

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan torpaqlarını Ermənistanın işğalçı qoşunlarından təmizləmək üçün başladılan əks-hücum əməliyyatlarını həyata keçirən Azərbaycan Ordusuna dəstək məqsədilə iş adamlarının Qələbəyə Dəstək Hərəkatını yaratmaları da bu qayəyə xidmət etdi.

















Hərəkatın ictimai təşəbbüs qrupunun sədri, "Hədəf" şirkətlər qrupunun təsisçisi Şəmil Sadiqlə söhbətimiz də elə müharibə günlərində arxa cəbhədə göstərdikləri fəaliyyətlə bağlı oldu. Müsahibimiz bildirdi ki, Ali Baş Komandanın döyüş əmri verdiyi andan etibarən, iş adamları da bu müharibədə dövlətimizə, ordumuza necə dəstək göstərmək barədə planlar üzərində işləyiblər:

- Döyüş başlayan gün sosial şəbəkələrdə status yazıb çağırış etdim ki, indi Vətən hamımızı çağırır, bir nəfər kimi əsgərlərimizin yanında olmalı, onlara hər cür dəstək göstərməliyik. Dostum İlham Alməmmədov zəng edərək təklif etdi ki, biz iş adamları da ümumi qələbəyə dəstək olmaq üçün birlikdə fəaliyyət göstərək. Beləliklə, artıq sentyabrın 28-ində ilk olaraq İlham Alməmmədov, Uğur Zeynalov, Şahin Səfərov, Elvin Əliyevlə görüşüb qərara gəldik ki, təşkilat tipli təşəbbüs qrupu yaradaq, ətrafımızda olan iş adamlarını bu işə cəlb edək. Adını Qələbəyə Dəstək Hərəkatı qoyduğumuz təşəbbüs qrupuna üzv olmaq üçün ərk etdiyimiz 30-a yaxın iş adamına müraciət etdik və dövlətin yanında olmaq, cənab Ali Baş Komandanın əmrlərinin yerinə yetirilməsi üçün belə bir koordinasiya mərkəzi yaratdıq.

Onsuz da xeyli iş adamı var idi ki, könüllü olaraq bununla bağlı ayrı-ayrılıqda öz öhdəsinə düşən işi görür, Silahlı Qüvvələrə Yardım Fonduna vəsaitlər ödəyirdi. Lakin düşündük ki, bunu təşkilatlanmış formada, sistemli şəkildə koordinasiya etmək, ürəyindən keçib dəstəyi necə edəcəyinin yolunu bilməyən həmkarlarımızla birgə hərəkət etmək, bir əl, bir ürəklə müəyyən fəaliyyətlər həyata keçirmək daha yaxşı olar.

### "Əsgərə sovqat"

Şamil müəllim onu da vurğuladı ki, əslində, müharibə dövründə xalqımızın əsgərlərə yardım toplamasına elə bir ehtiyac yox idi, amma düşündük ki, mənəvi dəstəyimizlə, sovqatlarımızla biz də onlara dayaq duraq:

- Çünki əsgər orduda döyüşür və elindən, obasından uzaqdadır. O biləndə ki, ailəsi, doğmaları yaxşıdır, heç nəyə ehtiyacları yoxdur, eyni zamanda, arxa cəbhədə hər kəs əsgərlərimizə dəstək olmağa çalışır, o zaman onlar da ikiqat ruhla döyüşə atılırlar, gözləri arxada qalmır. Ona görə də 22 şirkət rəhbəri yardım yox, "Əsgərə sovqat" adı ilə bu 44 günlük müharibədə 6 səfər edərək 6 yük maşını ilə əsgərlərimizə sovqat göndərdik. Hər dəfə də özümüz bu prosesdə iştirak etdik, çalışdıq ki, əsgərlərimizlə yaxın təmasda olaq. Düzdür, döyüş bölgəsi qaynar xətt idi, ora girmək mümkün deyildi, amma imkan daxilində Müdafiə Nazirliyindən müəyyən dəstək alaraq əsgər, zabitlərimizlə görüşə bilirdik.

Deyim ki, bu 44 gün ərzində Qələbəyə Dəstək Hərəkatında 100 min manata yaxın maliyyə fondu formalaşdı. Bundan da əlavə, Silahlı Qüvvələrə Yardım Fonduna təxminən 300 min manat məbləğində əlavə rəsmi ödəniş etdik. Bir nüansı da ayrıca olaraq qeyd edim ki, yalnız bir həftə ərzində müəllim və şagirdlərimiz tərəfindən 6 min manata yaxın pul yığıldı. Bura 1 manat da, 10 manat da, yüz manat da pul verən var idi. Neçə uşaq isə qəpik yığdığı kassasını gətirib açdılar. Onlar əsgərimizə göndəriləcək sovqatda paylarının olması üçün sevinirdilər. Bütün bu detalları ona görə deyirəm ki, sadaladıqlarım hamısı ümumi birliyimizin əlaməti idi...

### Bizdən şəhid Generalımız Polad Həşimov haqqında olan xatirə kitabları da istəmişdilər

- Aparılan sovqatların hər birinin içərisində şagirdlərin yazdığı "Əsgərə məktub"lar da olurdu. Biz hər səfərimizdə əsgərlərimizdə böyük ruh yüksəkliyi müşahidə edirdik. Arxa cəbhədəkilərin dəstəyini duymaq isə onlar üçün əlavə stimul olurdu. Səfərlərimizin birində Hadrutda əsgərlərimizlə görüşəndə, onların ağır döyüşlərdən çıxdığını, yorulduqlarını nəzərə alaraq söylədik ki, "daha sizi yormayaq, biz gedək", bu zaman onlardan biri dedi ki, "nə danışırsınız, 72 gündür ki, mülki vətəndaş görmürük. Sizi görəndə elə bilirdik ki, doğmalarımız, atamız, qardaşımız buradadır". Yaxud, uşaqların əsgərlərə yazdıqları məktubların hər birini necə sevinclə oxuduqlarının şahidi olurduq.

6 səfər ərzində Talış kəndində, Hadrutda, Beyləqanda, Horadizdə olduq. Apardığımız əşyaları, tibbi ləvazimatları əsgərlərimizə çatdırdıq. Bəzən elə şey istəyirdilər ki, düşünürdük bu, əsgərə lazım olmaz. Amma görürdün ki, yox, belə deyil. Məsələn, kitab istəyirdilər. Zabitlərimiz şəhid generalımız Polad Həşimov haqqındakı xatirə kitablarından da istəmişdilər və biz sonradan onların bu istəyini böyük məmnunluq və fəxarətlə yerinə yetirdik.

### "Döyüşçüdən sovqat var"

Qələbəyə Dəstək Hərəkatının üzvləri onu da qərara alırlar ki, paralel olaraq, "Döyüşçüdən sovqat var" adlı daha bir layihəni gerçəkləşdirsinlər. Bu zaman yaralılar və şəhid ailələrinə lazımi dəstəyi koordinasiya etmək, könüllü şəkildə ordu sıralarına qoşulan şəxslərin ailələrinə dəstək, onları stimullaşdırmaq, xüsusən də iş yeri olmadan ordu sıralarına qoşulan könüllülərin ailələrinə aylıq müəyyən maliyyə yardımı etmək, gənc iş adamları arasında vətənpərvərlik və xeyriyyəçilik ruhunu formalaşdırmaq və istiqamətləndirmək üçün maarifləndirmə işləri aparmağı qarşılarına məqsəd qoyurlar:

- Bu istiqamətdə də 25 ailəyə sovqat getdi və 11 ailənin maddi yardıma ehtiyacı olduğu müəyyənləşdi. İş adamlarının hərəsi bir ailəni öhdəsinə götürdü. Amma bir ailənin durumu fərqli idi. Əsgərimizin övladı dünyaya gələcəkdi. Həmin ailənin bütün xərclərini öz üzərimizə götürdük və bu yaxın günlərdə əsgərimizin qızı anadan oldu. Qələbəyə Dəstək Hərəkatı olaraq onu da xəstəxanadan ən yüksək səviyyədə çıxarıb evlərinə yerləşdirdik. Ata olan zabitimizin zəng vuraraq təşəkkür etməsinin, gözünün arxada qalmadığını deməsinin bizdə yaratdığı sevinc hissini isə dünyanın heç bir sərvəti ilə əldə etmək mümkün deyil.

### Bu qürurlu anları bizə Ali Baş Komandan yaşatdı

- Əslində, həmin günlərdə xalqımızın əksər nümayəndələri əsgərlərimizə dəstək olmaq üçün əlindən gələni etməyə çalışırdı. Ayrı-ayrı fərdi şəxslər sovqat gətirirdi, bu payların içərisində su da olurdu, əsgərə lazım olacaq hansısa əşya da, onlara qurban deyilib kəsilən quzular da...

Bilirsiniz, xalqımızın müharibə ərəfəsində necə birləşdiyini görmək sözlə ifadə edilməyəcək qədər qürurverici idi. Hər dəfə vurğulayıram ki, bu anları yaşamağımıza, birliyimizə təsir edən amil isə Ali Baş Komandan İlham Əliyevin yazdığı o qələbə tvitləri, çıxışları, xalqa müraciətləri, hər çıxışında xalqın istək və arzularına cavab verən fikirləri səsləndirməsi oldu. Eyni zamanda xarici mətbuat nümayəndələri qarşısında qalib, özünə güvənən, tarixi bilgiləri yüksək səviyyədə, böyük sərkərdə kimi onlara dərs verməsi oldu.

### İşğaldan azad edilən yurdlarımızda yenidənqurma illərində də fəal iştirak edəcəyik

- Qələbəyə Dəstək Hərəkatının təşəbbüs qrupu olaraq, bu istiqamətdə qarşıda hədəflədiyimiz planlar var. Bəli, 10 noyabrda qələbə elan olundu və sözsüz ki, bu, döyüş bölgəsində müharibəni bitirdi. Amma qələbənin tam son nöqtəsi, ikinci mərhələsi o olacaq ki, Qarabağ ərazisi yenidən abadlaşdırılacaq, insanlarımız orada məskunlaşdırılacaq. Reallıqdır ki, bu zaman da müəyyən çətinliklər olacaq.

Biz - dost iş adamları qarşımıza məqsəd qoymuşuq ki, işğaldan azad edilən yurdlarımızdakı yenidənqurmada da fəal iştirak edək, ilk iş yerlərinin, təhsil, səhiyyə və digər bu kimi müəssisələrin açılmasında dövlətimizə kömək göstərək.

Düşünürəm ki, özəl sektor bu işlərdə hamıdan öndə olmalıdır. Çünki iş adamlarının hər biri qazancını bu ölkədə dövlətin yaratdığı şərait nəticəsində qazanır. Gəlirimizin müəyyən hissəsini vətənimizin, xalqımızın ümumi rifahı üçün ayırmaq borcumuzdur. Sevinirəm ki, iş adamları olaraq indiyə qədər qələbəmizə dəstək üçün gücümüz çatanı etmişik və bundan sonra da edəcəyik...

*Bəli, Vətən təkcə yurd-yuva demək deyil. Vətən həm də birliyimizdir. Onun bütövlüyünə, dünya durduqca var olmasına hamımız cavabdehik. Zəhmətimizlə, əməyimizlə, lazım gəlsə, canımızla vətənin keşiyində durmaq üçün hər birimizin vətəndaşlıq öhdəliyimiz var.*

*Və nə xoşbəxt xalqıq ki, sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük bir zaman kəsiyində Vətən sınağını birgəliyimiz sayəsində əzmlə qət edib, zəfərlərlə zirvəyə daşıyıb, qələbə ilə şərəf pilləsinə yüksəltdik.*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**





# Qətiyyətin, milli mübarizənin və tarixi ədalətin qələbəsi

## İlham Əliyev Ermənistanı müharibə yolu ilə cəzalandıraraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi

*Əvvəli 1-ci səh.*

*Deyə bilərəm ki, bütün beynəlxalq təşkilatlar, təmasda olduğum bütün böyük dövlətlərin liderləri dəfələrlə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Bu ifadələr açıq mətbuatda da var. Mən nə deyirdim? Deyirdim ki, var! Deyirdim ki, lazım olsa, torpaqlarımızı hərbi yolla azad edəcəyik. Deyirdim ki, müharibə heç zaman istisna olunmur. Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim".*

Beynəlxalq təşkilatların qətnamələri və beynəlxalq hüququn normaları əslində Azərbaycana ərazilərini güc yolu ilə həll etməyə imkan verirdi. O cümlədən BMT-nin nizamnaməsi də hər bir dövlətin güc yolu ilə öz ərazi bütövlüyünü təmin etmək hüququnu tanıyır. Azərbaycan da ərazilərini işğaldan azad edərək məhz bu hüquqa istinad etdi və uğurlu diplomatik fəaliyyətin ardından sübuta yetirdi ki, işğala güc yolu ilə son qoymaq mümkündür.

### Anti-Azərbaycan fəaliyyətin qarşısı alındı

Ermənistan silahlılarının güc yolu ilə işğal olunmuş torpaqlarımızdan çıxarılmasına gedən yolda tarixi həqiqətlər və real vəziyyət də davamlı şəkildə dünya ictimaiyyətinə çatdırılıb. Prezident İlham Əliyevin səyləri nəticəsində ölkəmiz Ermənistanın və havadarlarının yaratdığı mifləri dağıtmağı, informasiya müharibəsində üstünlük əldə etməyi bacarıb. Azərbaycan Prezidenti bütün beynəlxalq təmaslarda, ayrı-ayrı dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlərində, beynəlxalq tədbirlərdə iştirakı zamanı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini, tarixi və mövcud vəziyyət haqqında həqiqətləri daim dünya ictimaiyyətinə çatdırıb.

Digər tərəfdən, Azərbaycan diplomatiyası uğurlu fəaliyyəti ilə Ermənistanın və onun havadarlarının müxtəlif təşkilatlarda anti-Azərbaycan xarakterli sənədləri qəbul etdirmək cəhdlərinin qarşısını məharətlə aldı. Ermənistanın danışıqlar prosesində imitasiya etdiyi aydın idi. Bu gün işğal olunmuş ərazilərimizdə yer adlarının erməniləşdirilməsi, tarixi Azərbaycan ərazilərinə eybəcər adların verilməsi göstərir ki, Ermənistan həmin torpaqları danışıqlar yolu qaytarmaq niyyətində olmayıb. O cümlədən ermənilər tərəfindən cəbhə xəttində bir



neçə mərhələli möhkəm istehkam mövqelərinin yaradılması da bunu təsdiq edir. Torpaqları azad etməkdən uzaq olan Ermənistan və onun havadarları, həmçinin beynəlxalq səviyyədə işğal siyasətinə hüquqi don geydirilməsi istiqamətində fəal iş aparırdılar. Lakin bütün hallarda Prezident İlham Əliyevin uğurlu diplomatiyası tərəfindən bu antiazərbaycançı fəaliyyətin qarşısı qətiyyətlə alındı.

Ötən ay BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın təşəbbüsü ilə TŞ prezidentinin bəyanatının layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin bəyanatın layihəsində TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən qətnamələrə istinad yer almamışdı. Həmin layihə TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv ölkələrin sərt etirazı nəticəsində qəbul edilmədi. Ona görə ki, QH ölkələri prinsipial mövqe nümayiş etdirərək TŞ qətnamələrinə istinadın yer almasında təkid etdilər. Bundan sonra layihənin müəllifləri rüsvayçılıqla geri çəkilməyə məcbur oldular. İlham Əliyevin Qoşulmama Hərəkatı çərçivəsində həyata keçirdiyi uğurlu fəaliyyət Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edərək Ermənistana və onun havadarlarına növbəti diplomatik zərbəni vurdu.

### Ermənistan BMT TŞ-nin 822 və 853 saylı qətnamələrini yerinə yetirməyə məcbur edildi

Beləliklə, Prezident İlham Əliyevin düşünülmüş və hücumçu diplomatiyası nəticəsində İkinci Qarabağ savaşında Ermənistanın havadarlarının Azərbaycana qarşı siyasi cəbhə formalaşdırmaq cəhdlərinin qarşısını qətiyyətlə aldı. Azərbaycan Ordusu ilk gündən hücum əməliyyatlarını sürətlə həyata keçirərək işğal olunmuş ərazilərini azad etdi. Uğurlu hərbi əməliyyatlarla Prezident İlham Əliyev indiyə qədər bütün beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə yer alan tələbləri təmin etdi. Azərbaycan güc yolu ilə işğal olunmuş ərazilərimizi azad etməklə hüquqi ədaləti bərpa etdi.

Diplomatik müstəvidə Azərbaycana uduzan Ermənistan və dünya erməniliyi 44 günlük müharibədə ölkəmizə qarşı güclü informasiya savaşına start vermişdi. Lakin Azərbaycan informasiya müharibəsindən də qələbə ilə çıxdı. 44 günlük müharibə dövründə Prezident İlham Əliyevin dünyanın 30-a yaxın aparıcı media orqanına verdiyi müsahibələr beynəlxalq informasiya məkanında ölkəmizin mövqeyini gücləndirdi, erməni yalanlarının ifşa edilməsində önəmli rol oynadı, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərə dünya ictimaiyyətinə çatdırıldı.

Noyabrın 20-də Ağdamın işğaldan azad olunması BMT TŞ-nin 853 saylı, Kəlbəcərin azad edilməsi isə 822 saylı qətnamələrinin tələblərinin yerinə yetirilməsidir. Bu rayonlar birbaşa döyüş yolu ilə alınmasa da, onların azad edilməsi Azərbaycan Ordusunun qələbəsinin və Prezident İlham Əliyevin şərtlərinin diktə etdiyi siyasi fəaliyyətin nəticəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlham Əliyev Kəlbəcəri bizə qaytardı

Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın, Ağdamın ardınca Kəlbəcərin də işğaldan azad olunması bütün ölkə ictimaiyyətinin dərin coşqusu ilə qarşılanmışdır.

Biz kəlbəcərlilər bu tarixi günü 27 ildən çox idi ki, dərin intizarla, həsrətlə gözləyirdik. Bu illərdə heç vaxt ümidimizi itirmədik, həmişə torpaqlarımızın işğaldan azad olunacağına inandıq.

Hər birimiz bizə yaşatdığı bu hisslərə, Kəlbəcəri işğaldan azad etdiyinə, ən böyük arzumuzu yerinə yetirdiyinə görə Prezident İlham Əliyevə hədsiz minnətdarıq. Bu Qələbənin müəllifi, bu savaşın fatehi İlham Əliyevdir. Məhz İlham Əliyevin milli maraqlarımızı qətiyyətlə təmin edən siyasəti sayəsində Ermənistanın işğalına son qoyuldu və Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Kəlbəcərin 1993-cü ilin aprelində işğal olunması ölkədə hakimiyyətdə olan iqtidarın yarıtmaz siyasətinin nəticəsi idi. Bu sətirləri yazarkən həmin günlər kino lenti kimi gözümün önündən keçir. Hakimiyyət Kəlbəcəri başsız qoymuşdu, kəlbəcərlilər təpədən-dırnağadək silahlanmış erməni qoşunlarının qarşısında müdafiəsiz qalmışdılar. Bizi öz torpağımızdan zorakılıqla çıxardılar, qadınlar, uşaqlar dağ yolları ilə, ayaqyalın, piyada erməni təcavüzkarlarından qaçıb xilas olmağa çalışırdılar. Həmin günlərdə Kəlbəcərdə 500-dən artıq dinc sakin həlak oldu, yüzlərlə kəlbəcərli girov və ya itkin düşdü və bu gün də onların bir qisminin taleyindən xəbər yoxdur.

Məcburi köçkün düşən kəlbəcərlilər Gəncədə, Bakıda, Goranboyda, Şəmkirdə, ümumilikdə 60-a yaxın rayonda məskunlaşıblar. İlham Əliyevin məcburi köçkünlərə xüsusi qayğısının nəticəsi olaraq kəlbəcərlilər də hər bir şəraiti olan mənzillərlə təmin ediliblər. Biz bu diqqətə, qayğıya görə möhtərəm Prezidentimizə daim minnətdar olacağıq. Amma həyatda doğma yurdundan, ev-eşiyindən zorla çıxarılmaqdan ağır heç nə yoxdur. Üstəlik, o yerlərə qayıda bilməmək daha betər əzabdır. Biz isə səfalı yerlərdən, təmiz havalı dağlardan, sərin bulaqlı ellərdən uzaq düşmüşdük. Üstəlik, yurd yerlərimizdə ermənilərin gətirilib məskunlaşdırıldıqlarını biləndə ürəyimiz qan ağlayırdı. Artıq bitdi bu əzablar, Ali Baş Komandan İlham Əliyev Kəlbəcəri bizə, öz doğma sahiblərinə qaytardı.

Kapitulyasiya edilən Ermənistan İlham Əliyevin şərtlərini qəbul edərək əvvəlcə Kəlbəcərin noyabrın 15-dək boşaldılacağı barədə öhdəlik götürmüşdü. Lakin sonradan Ermənistan möhlət istədi. Azərbaycan humanistlik edərək müddətin 10 gün uzadılmasına razılıq verdi. Amma biz bunun əvəzində bir daha çirkin erməni xislətinin təzahürünü gördük. Qanunsuz məskunlaşdırmadan sonra bizim evlərimizdə yaşayan və bu günlərdə rayonumuzu tərk edən ermənilər hansı vandal hisslərin daşıyıcıları olduqlarını bütün dünyaya göstərdilər: evlərimizə od vurdular, təbiətimizə qənim kəsildilər.

Noyabrın 25-də xalqımıza müraciət edərək Kəlbəcərin azad olunması münasibətilə həmvətənlərimizi təbrik edən Prezident İlham Əliyev bu məsələyə də toxunaraq dedi: *"Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik!"*

Dekabrın 1-də Laçın rayonu da ordumuzun nəzarətinə keçəcək. Yaxın gələcəkdə isə Cocuq Mərcanlının yenidən qurulması zamanı elan olunan Böyük Qayıdış proqramının icrasına başlanacaq. Prezident İlham Əliyevin inkişaf siyasətinin nəticəsi olaraq işğaldan azad edilmiş bütün yurd yerlərimiz, o cümlədən Kəlbəcər də yenidən qurulacaq, kəlbəcərlilər doğma el-obalarına qayıdacaqlar.

***Aqil MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***

# "France-24" kanalı Füzulidən reportaj hazırlayıb

"France-24" kanalı Azərbaycanın erməni işğalından azad edilmiş Füzuli rayonundan reportaj hazırlayıb.




AZƏRTAC xəbər verir ki, kanalın Füzuliyə ezam olunmuş müxbiri ətrafda boş, kədərli, müharibə dağıntıları ilə dolu mənzərənin göründüyünü deyir. O bildirir ki, ətrafda minalar, tərk edilmiş kazarma, yol boyunca erməni tankları var. Hər tərəfdə döyüş izləri, döyüş texnikası görünür. Onlardan bəziləri təzə, bəziləri isə əvvəlki döyüşlərdən qalanlardır. Bildirilir ki, erməni silahlı qüvvələri Füzuli rayonunu işğal etməmişdən əvvəl burada 200 minə yaxın azərbaycanlı yaşayıb. Reportajda Füzuli azad olunandan sonra doğma yurdlarına gedən rayon sakinlərinin fikirlərinə də yer verilib.

Füzuli sakini Hafiz Tahirov rayona gəldiyini və dağıntılarla rastlaşdığını, ermənilərin hər tərəfi minaladığını bildirir. Rayonun digər sakini Ramilə Məmmədova deyir: "Bura mənim atamın evi olub. İndi heç nə yoxdur. Erməni vandallarının bizə qarşı bu vəhşiliyini heç vaxt unuda bilmərik. Gənc nəslə nə isə deməyə ehtiyac yoxdur. Onlar hər şeyi özləri görür. Bunları unutmaq olmaz". Reportajda qeyd edilir ki, 1988-1994-cü illər müharibəsi nəticəsində Füzuli rayonunun mərkəzi ruhlar şəhərinə çevrilib. Ona görə də indi Füzulinin bərpası üçün vaxt lazımdır. Reportajda o da vurğulanır ki, Azərbaycanın müharibədə qələbəsi bu torpaqları azad etməyə imkan verdi, ancaq insanlar buralara gələrkən doğma yurdlarının dağıntıları ilə üzləşirlər.

# Ermənistan vətəndaş müharibəsi astanasındadır

*Əvvəli 1-ci səh.*













Son aksiyalar zamanı Yerevanın Azadlıq meydanında Paşinyana qarşı növbəti dəfə istefa şüarları səsləndirilib. Daha sonra aksiya iştirakçıları hakimiyyət nümayəndələrinə öz narazılıqlarını bildirmək üçün parlamentin qarşısına toplaşıblar.

Son zamanlar aksiyaçılar arasında deputatlar və tanınmış ziyalılar da olub. Məlumatlara görə, Paşinyanın ətrafında olan məmurlardan da bəziləri etirazçılara qoşulub. Çıxış edənlər Ermənistanda təcili növbədənkənar parlament seçkilərinin keçirilməsinin vacibliyini bildiriblər. Onlar yaranmış vəziyyətdən çıxış yolu kimi Nikol Paşinyanın və prezident Armen Sarkisyanın istefasını tələb ediblər. Əks təqdirdə, bütün məsuliyyətin hazırkı rəhbərliyin üzərinə düşdüyü qeyd olunubdur.

Bu arada itkin düşmüş əsgərlərin yaxınları N.Paşinyanın kortejinin keçdiyi yolu bağlayıblar. Məlumata görə, baş nazir hökumət binasından çıxıb korteje tərəf keçsə də, əsgər yaxınları ilə görüşmək istəməyib. Daha sonra əsgər valideynləri hökumət binası qarşısında etiraz aksiyasını davam etdiriblər - onlar hakimiyyətin dərhal reaksiya verməsini və övladlarının qaytarılmasını tələb ediblər: "Uşaqlarımızı bizə qaytarsınlar və sonra nə istəyirlər etsinlər. Biz yalnız uşaqlarımızın qaytarılmasını istəyirik, bizə başqa heç nə lazım deyil".

### Paşinyan çıxış yolu tapa bilmir

Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan Ermənistanın üzləşdiyi böhranın qarşıdakı müddət ərzində daha da dərinləşəcəyi istisna deyil. Belə vəziyyətdə Ermənistanda sayı sürətlə azalmaqda olan əhalinin hakimiyyətə qarşı sosial narazılığının daha da güclənəcəyi, eyni zamanda, miqrasiya prosesinin yeni vüsət alacağı gözlənilir.

N.Paşinyanın qubernatorların iştirakı ilə müşavirəsində bu məsələlər müzakirə olunub. Müşavirədə müharibədən sonra müxtəlif sahələrdə yaranmış vəziyyət, sosial-iqtisadi problemlər, ayrı-ayrı sahələr üzrə əsaslı proqramların həyata keçirilməsinin gedişi və qarşıda duran vəzifələr müzakirə edilib.

Baş nazir ölkə daxilində vəziyyətin gərgin olduğunu bildirib. Qeyd olunub ki, sabitlik çox vacib və strateji məsələdir. Xarici və daxili təhlükəsizliyi, eyni zamanda sabitliyi təmin etmək ölkənin həll etməli olduğu ən böyük problemdir. İmzalanmış üçtərəfli bəyanatın icrası çox ağrılıdır. Lakin qərar alternativin daha ağrılı ola biləcəyi vəziyyətdə qəbul edildi.

Hadisələrin sözügedən səpkidə inkişafına görə əsas məsuliyyət daşıyan tərəf kimi Paşinyan hakimiyyəti və onun yarıtmaz siyasəti göstərilir. "İravnuk" qəzeti yazır ki, ölkəni üzləşdiyi çoxsaylı problemlər burulğanından xilas etmək əvəzinə, hakimiyyət təmsilçiləri əvvəlki kimi şəxsi mənafelərini güdməklə məşğuldurlar. Nəticə isə ondan ibarətdir ki, diqqətlər müharibədəki məğlubiyyətə yönəlib, korrupsiya və rüşvətxorluğun miqyası isə durmadan genişlənir ki, bu da öz növbəsində iqtisadi tənəzzül prosesini daha da sürətləndirir. Qeyd edilir ki, korrupsiya və rüşvətin gömrük və vergi orqanlarında get-gedə daha dərin kök salması Ermənistan üçün çox təhlükəlidir. Çünki bu hal həm dövlət büdcəsinin boş qalmasına, həm də Ermənistan kimi idxaldan asılı olan bir dövlətdə inflyasiyanın davamlı artımına rəvac verir.

### Vətəndaş qarşıdurması üçün münbit şərait yaranıb

Ermənistanda hamıya aydındır ki, Paşinyanın hakimiyyətdə qalmaq istəyi mümkün olmayacaq. Əvvəlki dövrlərdə ölkədəki hakimiyyət komandaları iqtidarda qalmaq üçün daxili auditoriyaya Ermənistanı qalib ölkə kimi təqdim edirdilər. Necə deyərlər, xəstə təfəkkürü və işğal siyasətini bütün erməni cəmiyyətinə sırımışdılar. Amma bu siyasətin Ermənistanı iflic vəziyyətinə salması son illərdə özünü daha qabarıq büruzə verdi. Paşinyan da hakimiyyətə gəldikdən sonra əvvəlki iqtidarların siyasətini davam etdirdi. İndi bu amil aradan qalxıb. Amma istənilən halda ölkədə baş verənlər yeni toqquşmalar və vətəndaş qarşıdurması üçün münbit şərait yaradıb. Ermənistanda daha xaotik hadisələrin baş verəcəyi qaçılmazdır.

Artıq Ermənistan parlamentində deputatlar arasında insidentlər başlayıb. Belə davalardan biri N.Paşinyanın başçısı olduğu "Mənim addımım" fraksiyasının deputatı Amazasp Danielyanın çıxışı zamanı düşüb. Belə ki, "Çiçəklənən Ermənistan" partiyasının deputatı Mikael Melkumyanın müharibədəki məğlubiyyətlə bağlı sualına A.Danielyan kobud cavab verib. Bu zaman müxalif partiyanın daha bir üzvü Naira Zoqrabyan N.Paşinyanın Azərbaycanda animasiya filmlərinin qəhrəmanına çevrildiyini söyləyərək müdaxilə edib. A.Danielyan isə cavabında "siz də Azərbaycanda super ulduzsunuz" deyib. Bundan sonra parlamentdə dava düşüb. Mühafizəçilər zala daxil olaraq mübahisə edən şəxsləri sakitləşdirməyə çalışıblar.

"Daşnaksütyun"un nümayəndəsi İşxan Saqatelyan "Facebook" səhifəsində yazıb ki, Ermənistanda hakimiyyət yoxdur: nə hökumət var, nə də xarici işlər naziri. Qeyd edib ki, diz çökmüş lider danışıqlar apara, xalqımızın mənafelərini və hüquqlarını qoruya bilməz.

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir. İşğal siyasətinin qurbanı olan bu ölkə üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Özgə torpağında çirkli çəkmələrlə

Hekayə

**Hüseynbala MİRƏLƏMOV**

“Kim başqasının torpağını zor ilə əlindən alırsa, deməkб Tanrının özünə qarşı çıxmış olur”.

*Həzrət Məhəmməd*

“Vətəndən kənarda xoşbəxtlik yoxdur, hər kəs öz doğma torpağında kök salmalıdır”.

*İvanTurgenev, klassik rus yazıçısı*

Sən bir işə bax, gərək elə məhz həmin o ömrünün ən xoşbəxt günündə götürüb onu ən bədbəxt günə pərçimləyəydilər? İndi bu bədbəxtlik sanki əbədi idi, hər gün vəziyyətin düzələcəyinə ümid edirdisə də, hər gün hər şey bir az da pisə doğru gedirdi. Güllə səslərindən, mərmi vıyıltısından diksinir, barıt qoxusundan iyrənirdi daha.

Bunkerləri yeni idi, xüsusi səylərlə hasil olmuşdu, ora dünyanın sementini, qumunu işlətmişdilər. Elə bil, ordu rəhbərliyi duyurmuş ki, 27 ildən sonra müharibə bərpa ediləcək, bu dəfə hücumda azərbaycanlı əsgərlər olacaq, onun əsgərləri də azərbaycanlıların hücumunun səngiməsini burada gözləyəsi olacaqlar.

Qagikgilin dəstəsi on iki nəfər idi. Onlara dəstək gəlməyincə bunkeri tərk etməmək tapşırığı verilmişdi. Gözlükdən yaxınlaşan düşmən əsgərlərini izləməli, içlərinin ən cəsarətlisi qabağa yeriyib düşməni bircə gülləyə “qonaq eləməli” idi. Amma elə oldu ki, qəflətən yer-göy lərzəyə gəldi. Qarşı tərəfdən sərrast atılan top mərmiləri onların gizləndiyi bunkerin yanyörəsinə düşüb monumental saydıqları tikilini partladıb-dağıtmağa başladı, hətta qəlpələrin yağış səslərini də onlar aydınca eşidirdilər. Daha bir mərmi onların gizləndiyi bunkerin düz üstünə düşdü. Beton divarlar silkələndi, bunkerin bir tərəfi çökdü. Çıxıb qaçsınlarmı? Yoxsa gözləsinlər? Nicat yolu görən hansı idi? Çıxıb qaçsalar, gülləyə tuş gəlməzdilər yəni? Burda qalsalar bəs, növbəti mərmi onları daş-qalaq altında məhv etməyəcəkdi ki?

Dəstənin başçısı, nisbətən yaşlı, saqqalı az qala sinəsinəcən sallanmış Livan ermənisi idi. Sifətindən daim zəhrimar yağır, hamıyla kobud davranırdı. Fasiləsiz də söyüş söyürdü. Onun adı, soyadı nə idi, kimsə bilmirdi. Amma hamı onu “Zverik” deyə çağırırdı. Yanındakı cavan əsgərlərə Suriyada PKK sıralarında türklərə qarşı vuruşda qəhrəmanlığından çox danışmışdı. Deyirdi, Ermənistan tarixinə Andranik Ozanyandan, Qaregin Njdedən sonra ən böyük qəhrəman kimi məhz özü düşəsidir.

- Ara, nə xəbərdir, dovşan kimi qorxmağa başlamısız?! Siz bilmirsiniz e, orda - Suriyadada da toplar çox idi. Dava top davası idi. Amma biz qurtulmuşduq!

Qagik indi bildi ki, Zverik həm də Azərbaycan dilini bilirmiş. Çünki indiyə qədər bu dildə əsla danışmamışdı, nədənsə axırıncı mərmidən sonra düşmən dilində çərənləməyə başlamışdı.

Komandirin əcnəbi dildə danışması azərbaycanca sözlərin qol-qabırğasını qırmaqla olsa belə, danışa bildiyi üçün onun nə dediyini anlayan Qagikdən başqa bunkerdəki digər döyüşçülərin hamısını qorxuya saldı. Komandirin ana dilində danışmaması onlardan nəyisə gizlətməsi anlamını bildirmirdi ki?

Çoxu, xüsusən gənc olanları cəbhəyə yeni gəlmişdilər. Silahla rəftarı belə düz-əməlli bilmirdilər. Hələ elə bir güclü döyüşə də düşməmişdilər. İlk dəfəsindən belə çətinə düşmələri təəssüfləndirirdi hamısını, təəssüflənmə bir yana, canlarına hədsiz qorxu da salmışdı. Üstəlik, bu Zverikin kim olduğunu bilsəydilər, yəqin ki, azərbaycanlı əsgərlər heç bunlara - onun əlinin altındakılara da rəhm etməyəcəkdilər.

Axırıncı dəfə ratsiya ilə komanda gəldi: biz ara sakitləşən kimi xəbər edəcəyik, hamı bunkerlərdən çıxıb geri çəkiləcək!

Zverikin ratsiyada danışana qəzəblə çəmkirməsi əsgərlərə sarılarını uddurdu: “Siz hara qaçırsınız? İndi mən çıxaram, görüm, bu əmri hansı satqın verib. Sonadək vuruşacağıq!”

Zverikin əlləri əsə-əsə ratsiyanı kənara atması, bir az da rənginin qaçması Qagikin nəzərindən yayınmadı.

Anidən bunkerə ölü sükutu çökdü. On iki insandan çıxan nəfəs belə sanki havadaca dondu, bunkerin beton tavanından asılıb qaldı.

Zverikin silahını götürməsi, “Arxamca bir-bir çıxarsınız” əmri özünü çox gözlətmədi. Çökmüş betonun altını bir az qazıyıb açılmış deşikdən iri bədəni ilə sivişib çıxdı. Arxasınca da nisbətən yaşlı əsgərlər sürünüb getdilər. Heç bir an keçməmiş yeni partlayış oldu. Bayırda qışqırıq, söyüş səsləri ətrafı başına götürdü. Sonra da yenidən ara sakitləşdi.

...Qagik qaldığı yerdən tərpənməmişdi. Gözünü dolandırıb baxdı. Ətraf tüstü və toz dumanına bürünmüşdü. İçəridə özündən başqa daha dörd nəfər qalmışdı. İkisi Artaşatdan gələn gənclərdi. Digər ikisi isə onunla birgə Yerevandan gəlmişdilər. Üç günlük alayarımçıq təlimdən sonra onları Suqovuşana göndərmişdilər. Ürək-dirək də vermişdilər ki, “Heç nədən qorxmayın, məşhur Zverik sizin komandiriniz olacaq. O, elə bir qəhrəmandır ki, adı dillərdə gəzir. Suriyada neçə türk əsgəri öldürüb, heç bilirsiniz?” Artaşatdan gələn gənclərdən biri dilini dinc qoymayıb ironiya ilə: - Yəqin ona güllə də batmır,



eləmi? - sualını vermiş, sual bitərbitməz Zverikin qəzəbli baxışını üzərində hiss edib səsini udmuşdu. Həmin an Qagik də öz hesabını almışdı. Anlamışdı ki, bu Zverik deyilən hər kimdirsə, vəhşi xislətlidir. Onun üçün özününkü, ya özgəsi deyilən bir fərq yoxdur.

Gənc əsgərlər döyükə-döyükə Qagikə baxırdılar. Yaşca onlardan iki-üç bayram böyük idi, ali təhsilliydi, ailəliydi, sözsüz, başbilənlik etmək, qərar vermək onun səlahiyyətinə keçməliydi.

Çıxsınlarmı, çıxmasınlarmı?

Yenə qulaqbatırıcı mərmi yağışı, yenə sükut.

Vaxt keçirdimi? Keçirdisə, nə qədər vaxt keçmişdi əsgər yoldaşları çıxıb gedəli?

Burda - yarıuçmuş bunkerdə, daşların altında səs çıxarmadan görəsən nə qədər duruş gətirə bilərdilər? Çörəksiz, susuz nə qədər qalmaq olardı? Ac-susuz dözmək ələ keçməkdən, ölməkdən ki yaxşıydı?

Zorən cəbhəyə gətizdirilmişdilər, bu ədalətsiz müharibənin iştirakçısı olmaları heç birinin ürəyindən deyildi. Ermənistandan Dağlıq Qarabağa, oradan da bura - Azərbaycanın Tərtər bölgəsinə yollananda hamısı narazılıq etmişdi, sanki aqibətlərini öncədən duymuşdular. Təkcə o donuz oğlu donuz Zverikin heç nə vecinə deyildi, fikri-zikri nəsə bir şücaət göstərib sinəsinə dəmir-dümür asdırmaq idi.

İlk tanışlıq vədələrində artaşatlı gənclər zarafatları ilə seçilirdilər. Onlardan biri indiki bu dəhşət saçan anda da yumor hissini itirmədiyini büruzə verməklə ya onlara, ola da bilsin özü özünə təsəlli verdi, deyəsən, bunkerin qapı-pəncərəsindən içəri soxulmaq istəyən ölümə mane olmağa çalışdı:

- Nə qəm dəryasına batmısız, e? Deyirlər, gülüş olan yerə ölüm ayaq basa bilmir. Gəlin sizə bir lətifə danışım. Bir dəfə bir erməni, bir gürcü və bir azərbaycanlı...

Artaşatlı danışırdı, Qagikinsə fikri burdan çox-çox uzaqlarda idi. Doğrudan da niyə axı belə oldu, lənətə gəlmiş müharibə onu məhz doğum evindəmi haqlamalıydı, dünyaya yenicə gəlmiş balasını qucağına alıb evinə aparmağa imkan verməməliydi?

Növbəti mərmi vıyıltıları içərinin səslərini “xırp” kəsdi. Bunker növbəti dəfə silkələndi, başlarına qum-kəsək yağdı. Yox, deyəsən burda qalmaq elə də təhlükəsiz deyildi. Gənc əsgərlər dinməzsöyləməz Qagikin ağzına baxdılar. Bu şəxs onlardan böyük idisə, demək, həyat təcrübəsi çoxuydu, ailəliydisə, demək, məsuliyyətliydi, həm də ali təhsilliydisə, demək, daha bilikliydi. Nə etmək lazım olduğunu ondan başqa kim biləsiydi ki?

Qagik Yerevan Dövlət Universitetini bitirmişdi. Qafqazşünaslıq ixtisası dar çərçivə ixtisası kimi görünsə belə, əslində böyük bir regionu, onlarca irili-xırdalı xalqı keçmişindən üzübəri öyrədirdi. Əvvəlcə elmi işçi olmaq istəyirdi. Qafqaz xalqları tarixini müxtəlif alternativ mənbələrdən oxuyub öyrəndikdən sonra Qafqazda erməni xalqının qədimliyi mövzusundan əl çəkmişdi. Başa düşmüşdü ki, ona universitetdə öyrədilənlərlə həqiqi Ermənistan tarixi arasında fərq çoxdur. Üstəlik, tarixlərinin saxtakarlıq, gözə kül üfürmə məramı ayrı-ayrı məqamlarda açıqca gözünə də girmişdi. Hətta bir dəfə mühazirələrin birində tanınmış professor Gülbəndyana verdiyi sualla az qala universitetdən də qovulacaqdı. Tərs və prinsipial idi, doğma anasına da güzəştə getməzdi. Dünyanın ən qədim xalqının məhz erməni xalqı olmasını, bu xalqın az qala Paleolit dövründən üzübəri Qafqazda məskunlaşmasını ahəstə-ahəstə bəyan edən Gülbəndyana sual vermişdi ki, “Hansı səbəbdən bu gün erməni ailələrində mütləq matriarxat hökm sürdüyü, qadınların tam hökmranlığı qəbul edildiyi halda irisindən xırdasınacan bütün digər Qafqaz xalqlarında mütləq patriarxat hökm sürür, kişilərin söylədiyi kəlmə qadınlar üçün qanun sayılır? Düzünü deyin, azlığın çoxluğa tabe olması qanunu bəlkə burada əksinə işləyir, çoxluq azlığa tabedir? Ermənilər Qafqazın ən qədim, ən köklü xalqıdırsa, demək bütün digər xalqlar bura sonradan gəliblər?”



Uşaqlıqdan atasız böyümüşdü, ədalət axtarmışdı, əmrə müntəzir olmaq ona xas deyildi. Yalançı Ermənistan tarixini yaradanlara ikrah edərək tədqiqatını dayandırmış, universitet təhsilindən sonra bir neçə ay müəllim işləsə də, peşəsindən də əl çəkməli olmuşdu. Zehinləri zəhərləmək istəməmişdi. Xırda bizneslə məşğul olurdu, topdan ətriyyat alıb pərakəndə satırdı, çörəkpulunu çıxarırdı. Millətçi və hərəkatçı olan, fikirdə dabandabana onun ziddini təşkil edən anası təqaüddəydi, təqaüd pulu alırdı, həyat yoldaşı isə tibb bacısıydı, vaxtlı-vaxtında cüzi də olsa əməkhaqqını alırdı. Əslində pis dolanmırdılar, uşaqları da doğulub özüylə ruzi-bərəkət gətirəsiydi. Amma bu müharibə, bu lənətə gəlmiş müharibə gəlişi ilə hər şeyi necə də alt-üst etdi...

...Bunkerə çökmüş sükutu yenə də artaşatlı gənclər pozdular, bu dəfə digəri astadan zümzümə etməyə başladı ki, digərlərinin də qırışıqları açılsın. Qagikinsə xəyalı iyirmi gün əvvələ - onu xoşbəxtlər xoşbəxti edəsi halda bədbəxtlər bədbəxti edən həmin o günə güzar etdi.

Arvadını doğum evindən çıxarasıydı, dünyaya yenicə gələn körpəsini evlərinə aparasıydı. Üç gün öncə anası onu şad xəbərlə muştuluqlayanda “Bəlkə uşağın adını Artsax qoyaq?” təklifini də vermişdi, amma anasının sevincinə, qonşuların da aramsız təbriklərinə başı qarışdığından adın fərqinə varmamışdı. Ancaq üç gündən sonra anası ilə birgə arvadını və oğlunu doğum evindən gətirməyə yollananda sanki birdən ayılmışdı. Anası bir daha təkrarlayanda ki, “nəvəmin adını Artsax qoymuşam”, lap əsəbiləşmişdi. Üzünü çevirib indiyə qədər xətrinə dəymədiyi anasına sərt şəkildə çəmkirmişdi:

- Artsax nədir, ana?

- Necə yəni Artsax nədir? Artsak bizim tarixi məskənimizdir. Düz-dünya Artsaxdan danışır, sən bilmirsən Artsax nədir?

Qagik əvvəlcə üzdən getmiş, anasının xətrinə çox dəyməmək fikri ilə “uşağa torpaq adı verməyin düşər-düşməzi” arqumenti ilə “Artsax” adının üstündən xətt çəkmək istəmişdi, amma anasının iki ayağını bir başmağa dirədiyini gördükdə istər-istəməz hirsini boğa bilməmişdi:

- Ay ana, sən hardan bilirsən Artsax bizim tarixi məskənimizdir?!

- Bəs tarixi məskənimiz olmasa, bizimkilər orada niyə qan tökür, niyə vuruşur?

- Çünki allahsızdırlar, vicdansızdılar.

- Qagik, sən nə danışırsan? Niyə allahsız, vicdansız olsunlar?

- Ona görə ki, özgə malına tamah salırlar.

Ana - Mariya Qagikin sözlərini eşitcək birdən-birə büzüşmüşdü. O, oğlunu diqqətlə süzmüşdü. Qagik onun gözlərində balaca, 2-3 yaşlı bir uşağa çevrilmişdi, o uşağa ki, Mariya başını sığallaya-sığallaya onun qulağına pıçıldayardı: “Oğlum, yadında saxla, bu dünyada türk adlı bir millət yaşayır. Onlar sənin əzəli düşmənlərindir”. Ana sanki hər dəfəsində oğluna hansısa gizli bir sirrin üstünü açırdı, halbuki zaman-zaman Mariya bu “sirri” oğluna təkrar-təkrar söyləməkdəydi və hər dəfə də tapşırardı: “Yaddan çıxarma bunu, oğlum”.

Mariya bəxtdən millətçi bir ailədə doğulmuşdu, onun atası Akop çəkməçi olsa da, siyasi proseslərin həmişə önündə getmişdi, övladlarını qatı millətçi kimi böyüdərək “Kim ki bizdən deyil, demək bizim düşmənimizdir” ideologiyasına sürükləmişdi. Təsadüfi deyil ki, ona “Daşnak Akop” deyirdilər.

Tələbəliyində Mariya gizli millətçi dərnəyə üzvlüyədək gedib çıxmışdı. Ermənistanda Qarabağ hərəkatı başlayanda, İrəvandakı Teatr meydanında mitinqlər öz apogey nöqtəsinə çıxanda Mariya da öncül mövqelərdə qərarlaşmışdı.

Oğlunu ağıllı, təhsilli biri kimi böyütdüyündən, onu vətənpərvər birisi kimi tanıyırdı, yenicə dünyaya gəlmiş nəvəsini də qəhrəman kimi təsəvvür edirdi, Artsax adını ona yaraşdırırdı, yəgin ki, nəvəsinin ilk eşitdiyi söz də Mariyanın “Türk bizim düşmənimizdir” sirri olacaqdı. Amma indi oğlu ümumerməni məsələsinə naxələf çıxırdı? Hərəkatda, meydanlarda bərkiyən, neçə-neçə bəyanatlar, petisiyalar imzalayan cəsarətli, əzmkar bir qadının oğlu niyə belə eləsin axı?

Necə olsa da, Mariya öz mövqeyini asanlıqla əldən vermək fikrində deyildi. Yenidən tarixə rakurs etmiş, oğluna çox da uzaq olmayan keçmişdən danışmışdı. Dağlıq Qarabağı tələb edən izdihamlı mitinqlər, Teatr meydanının nəbzinin “miatsum”la döyünməsi, şəxsən özünün odlu-alovlu çıxışları, erməni cavanlarını mübarizəyə ruhlandırmaları... Mariya qürur hissi ilə oğluna danışmışdı ki, həmin gənclər də onun və silahdaşlarının çağırışlarından güc alaraq Qarabağın üzərinə gediblər, Qarabağı türklərdən azad ediblər.

Bu söhbətlər Qagikin özü üçün də gözlənilməz olmuşdu, anasını millətçi birisi kimi tanıyırdısa da, bir qadının hərəkat liderliyinə meyillənməsi onun ağlına belə gəlməzdi. Sakitcə anasından soruşmuşdu:

- Bunlar nə vaxt olub, ay ana?

Anası da gözü önündə eynən balaca uşaq kimi dayanan Qagiki bağrına basıb öpmüşdü, istəmişdi ki, oğlu barı bundan sonra anasının Qarabağ uğrundakı mübarizəsinin tarixçəsini yaxşı bilsin.

- Bunlar 80-ci illərin sonları 90-cı illərin əvvəllərində olub, mənim balam. Onda sən hələ dünyaya göz açmamışdın. Meydanda bizim qışqırıqlarımız sayəsində erməni cavanlarının qanı cuşa gəlirdi. Onlar məhz bizim sayəmizdə azərbaycanlıları bir nəfər kimi öncə Ermənistandan, ardınca da Böyük Qarabağdan qovub çıxartmışdılar.

Qagik elə doğum evinin qabağındaca ədalətsiz danışan anası ilə mübahisə etməyə məcbur olmuşdu, müxtəlif tarixlər, faktlar gətirmək çabalarına girişmişdi. Amma anası ona aman vermir, dil-boğaza qoymurdu:

- Yenə azərbaycanlılar baş qaldırıblar. Böyük Qarabağı qaytarmaq istəyirlər. Amma havayı şeydir. Yuxularında görərlər. Bizim erməni cavanları onlara təzə Xocalı, Qaradağlı faciələri yaşadarlar, ağılları başlarına gələr.

Qagikin etirazları yağış kimi yağırdı:

- İndi o zaman deyil, ana. Bəlkə də, onlar bundan sonra dərs alacaqlar. O vaxt elədikləri cinayətlərə, törətdikləri əməllərə görə cavab verməli olarlar.

Amma ana təslim olmurdu:

- Yox, yox, Qagik, dünya bizim tərəfimizdədir. Biz çox qədim xalqıq. Biz yeri gələndə heç nəyə, heç kimə rəhm etmirik. Biz onların burunlarını ovub yerlərinə oturdarıq.

- Siz, yəni kim?

- Bütün dünya erməniləri. Hamısına xəbər vermişik. Axışıb gəlməkdədirlər. Tezliklə Qarabağa hücum çəkən azərbaycanlılar qan içində boğulacaqlar.

- Sən nə danışdığını bilirsən, ana?

- Mən nə danışdığımı yaxşı bilirəm, nəvəmi də qəhrəman erməni əsgəri kimi böyüdəcəm. Ona başa salacam ki, heç vaxt düşmənə rəhm etməsin.

Qagik doğum evinin qəbul şöbəsinə adlayanda anası ilə danışmağın faydasız olduğunu başa düşmüş, daha dinməmişdi. Amma qəti qərara gəlmişdi ki, oğlunun adını Artsax yazdırmayacaq. Nə yazdırsa da, anasının razılaşmayıb dava-dalaş salacağını da başa düşürdü. Ona görə də yaddaşında tarixlə bağlı olub-qalan adları aramağa başlamışdı. Pompey ordusunun erməni əsilli bir əsgərinin adını yadına salmışdı. Bu, Vartan idi. Hərçənd ki, Qagik tarixi yaxşı bildiyindən ona da əmin idi ki, Vartanın qəhrəmanlığı da uydurmadır. Vartan, əslində Qafqaz xalqlarına xəyanət etmiş erməni casusunun adıydı. Amma hər halda Artsax olmaqdansa, Vartan olmaq daha yaxşıydı.

Doğum evinin ikinci mərtəbəsinə qalxmışdılar. Burada baş həkimin qəbul otağı yerləşirdi. Qagik dəhlizdə oturub gözləmişdi, anası içəriyə keçmişdi.

Doğum evinin tibb işçiləri Mariyanı yaxşı tanıyırdılar. Axı Yerevanda məşhur mitinqlərdə onun cır səslə mikrofonla danışmağı yaşlı nəslin yadından çıxmamışdı. Cavan nəsil də az-çox onu tanıyanlardan barəsində eşitdikləri üçün Mariyanın qabağını kəsməmişdilər, o, birbaşa baş həkimin yanına girmişdi. Baş həkim yaşlı bir qadın idi. Mariya onu yaxşı tanıyırdı. Çünki qız nəvələri də dünyaya gələndə onun yanına gəlib-getmişdi, payını, umacağını da kəsməmişdi. Mariya düşünürdü ki, baş həkim onu gülə-gülə qarşılayacaq, tez ayağa qalxacaq, xalatının cibini də ona tərəf yaxın edəcək ki, Mariya hədiyyəsini asanlıqla ora qoysun. Amma Mariyanın gözlədiyi kimi olmamışdı. Baş həkim heç yerindən tərpənməmişdi də. Başını azca qaldırıb Mariyanın salamını alıb ona yer göstərmişdi. Mariya əyləşmək istəməmişdi, özüylə gətirdiyi gül dəstəsini masanın üstünə qoymaq istəmiş, gözləri ilə kabinetə nəzər salanda gözü bir tərəfdə boş güldanı almışdı. Güldanı götürüb suyla doldurmaq üçün bayıra çıxmaq istəmişdi, amma baş həkim ona əli ilə oturmağa işarə eləmişdi.

Mariya baş həkimin qəribə davranışından bir şey anlaya bilməmişdi. Elə bil onun tanıdığı həmişəki acgöz insan deyildi.

Nəhayət baş həkimin sirri açılmışdı, o, masanın siyirməsini çəkmiş, xeyli axtarışdan sonra bir kağız tapıb çıxararaq öncə özü diqqətlə oxumuş, sonra Mariyaya uzatmışdı. Mariya istər-istəməz yarım vərəqlik kağızın üstündəki bir neçə cümləlik yazıya nəzər yetirmişdi. Bu, Yerevanın Mərkəzi Hərbi Komissarlığından gəlmiş çağırış vərəqi idi. Orada açıq-aydın Stepanyan Qagikin adını görəndə gözlərinə inanmamışdı. Bir daha oxumuş, yenə oxumuşdu... Bəli, onun oğlunu səfərbərliyə çağırırdılar.

Mariyanın səsi batmışdı. Ha istəmişdi ki, nəsə desin, amma deyə bilməmişdi. Heç anlamırdı bu çağırış vərəqəsinin doğum evinə nə dəxli var. Hələ orasını demirdi ki, kim cəsarət edib Mariyanın oğlunu hərbi xidmətə çağıra bilərdi?

Onun ağlından bu an nələr keçirdi, inciklik, küskünlük dolurdu içinə... O, Qarabağ uğrunda can qoyub. Birinci Qarabağ savaşında nə qədər cavanları döyüşə ruhlandırıb, özü də onlarla birgə Qarabağa gedib, orada hərbi hissələrin qonağı olub, günlərlə hərbçilərin yanında qalıb. Birinci Qarabağ savaşının qəhrəmanları onu yaxşı tanıyır, hələ arabir onun evinə qonaq da gəlirlər. Doğrudur, az qala aradan 30 il keçib, hamısı yaşlanıblar. Amma ənənə davam edir.

Tezliklə baş həkim məsələnin kökünü açmışdı. Demək, hər şeyə əl atan Hərbi Komissarlıq buna da əl atırmış. Zorən insanları cəbhəyə aparmaq üçün kimin övladı dünyaya gəlirdisə, onun başının üstünü məhz doğum evindəcə kəsdirirmişlər.

Baş həkim ona izah eləmişdi ki, əgər oğlu hərbi komissarlığa gedib çağırışa razılıq verməsə, gəlinini və uşağı xəstəxanadan buraxmayacaqlar.

Mariya pərt halda istəmişdi köhnə təhər-tövrunu işə salsın, Ermənistan uğrunda, Qarabağ uğrunda xidmətlərini xatırlatsın. Səsini də qaldırmaq istəmişdi. Amma deməzsənmiş, baş həkim tədbirini öncədən görübmüş, onun barmağını hansısa bir düyməyə uzatması ilə Mariyanın tanımadığı qara maskalı, hərbi formalı şəxslər içəri doluşmuşdular. İki nəfər Mariyanın qoluna girmiş, demək olar, onu zorla qaldırıb qapıdan bayıra çıxarmışdılar.

Məsələ Qagikə aydın olanda o, qınayıcı baxışlarla anasına baxmışdı, bu baxışlar bir kəlmə ifadə etmişdi: “Ay ana, bu da sənin Artsaxın!”

*(ardı var)*



# Biz hərb istəmirdik

*Kəssə hər kəs tökülən qan izini,*
*Qurtaran dahi odur Yer üzünü.*

Böyük şairimiz Hüseyn Cavidin bu məşhur misralarından çıxış etsək, Prezident, Ali Baş Komandan İlham Əliyevin necə dahiyanə iş gördüyü bir daha təsdiq edilmiş olur. Qarabağ Azərbaycanın qan verən yarası idi. Atəşkəs də möhkəm deyildi və erməni işğalçıları tərəfindən hər gün pozulurdu.

Tarix, zaman göstərmişdir ki, gözümüz heç vaxt özgə torpaqlarında olmamışdır, biz min illər boyu yaşadığımız, ömür sürdüyümüz vətənimizdə dinc əməklə məşğul olaraq yaşayıb-yaratmışıq. Amma biz yurdumuzu da kimsəyə verməmişik. Torpaq uğrunda döyüşmüşük, qan tökmüşük.

Bu dəfə də belə oldu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün çağırışlar etdi, səylər göstərdi. Əvəzində ikili standartlar yolunu seçən ATƏT-in Minsk qrupunun diplomatları belə düşündülər ki, vaxt uzandıqca, illər keçdikcə problem unudulacaq, Qarabağ Ermənistana qalacaq. Qərbdə və digər regionlarda yaşayan erməni lobbisinin və diasporunun məqsədi də elə bundan ibarət idi.



Üstəlik, Azərbaycanın sülh çağırışı Ermənistan tərəfindən zəiflik kimi qarşılanırdı. Onların xəyalı 90-cı illərə gedirdi, öz ordularını yenilməz hesab edirdilər. Bu düşüncə tərzi ilə bir-birinin ardınca təhrikedici hadisələr törədirdilər. Nəzərə almırdılar ki, artıq Azərbaycanın müasir ordusu, cəngavər kimi əsgər və zabitləri var. Məhz onlar sentyabrın 27-də başlayan əks-hücumun ilk həmləsində strateji yüksəklikləri, işğal olunan yaşayış məntəqələrini bir-birinin ardınca düşməndən geri aldılar. Məhz onlar noyabrın 10-da düşməni təslim aktına imza atmağa məcbur etdilər. Noyabrın 20-də Ağdam, 25-də isə Kəlbəcər rayonları bir atəş açılmadan, şəhid vermədən geri alındı. Dekabrın 1-də Laçının bu yolla boşaldılmasını gözləyirik.

Bunlar Prezident, Ali Baş Komandan İlham Əliyevin sülhsevərliyinin nəticəsidir. Azərbaycan dövlət başçısının timsalında əvvəldən münaqişənin sülh, danışıqlar yolu ilə həll olunmasını istəyirdi. Əgər belə olsaydı, hər iki tərəfdən nə şəhid olardı, nə də dağıntı. Nə anaların, qız-gəlinlərin, uşaqların gözü yaşlı qalardı, nə də yaşayış məntəqələri xarabalığa çevrilərdi.

İndi dünyanın obyektiv, mütərəqqi liderləri, siyasi şərhçiləri, sağlam düşüncəli insanları İlham Əliyevin sülhpərvər siyasətini bəyənir, müdafiə edirlər. Azərbaycan əhalisi isə öz rəhbərinin ətrafında daha sıx birləşdiyini nümayiş etdirir. Salyan şəhər sakini, müəllimə Gülzar Hüseynova deyir ki, 30 ilə yaxın bir vaxtda məhz qan tökülməsini istəmədiyi üçün Azərbaycan tərəfi siyasi danışıqlara üstünlük verirdi: “Lakin, xüsusən, Paşinyan və onun komandası müharibəyə hazırlıq gör-



düklərini, başqa ərazilərimizi işğal etmək planlarını gizlətmirdilər. Nəticəsi nə oldu? Cavablarını aldılar. İndi biz Qarabağın işğaldan azad olunmasını bayram edirik, Ermənistan isə matəm içindədir”.

Lənkəran şəhər sakini, aqrar elmlər üzrə fəlsəfə doktoru Həzər Hüseynov isə bildirir ki, Qarabağ polad iradəli, müdrik Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməndən geri alındı: “Azərbaycanın hər yerində olduğu kimi, Lənkəran da bu günlər sevinc və bayram içindədir. 30 illik ayrılıqdan sonra məcburi köçkünlərimiz öz yurd yerlərinə qayıdacaqlar. Bundan əziz, bundan əlamətdar bir hadisə ola bilməz. Bu qələbə Azərbaycanda yaşayan bütün azsaylı xalqların, etnik qrupların Azərbaycan bayrağı altında sıx birləşdiklərini bir daha nümayiş etdirdi. İlham Əliyev müdrik liderdir. Dağlıq Qarabağ problemini sülh yolu ilə həll etməyə çalışırdı. Lakin özgələrinin çaldığı havaya Şuşada yallı gedən N.Paşinyan bunu anlamadı. Hələ üstəlik digər ərazilərimizi də zəbt edəcəyini bəyan etdi. Bu onun Azərbaycan xalqını yaxşı tanımadığından irəli gəlirdi. Gördü ki, bu dövlət, bu xalq nəyə qadirdir. Ali Baş Komandan İlham Əliyevin şərtinə əsasən, Ağdam və Kəlbəcər düşməndən döyüşsüz alındı, yaxın günlərdə Laçının da qaytarılması başa çatacaq, özü də bir şəhid vermədən. Budur sülhsevərliyin nümunəsi”.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***



# Arxa cəbhə



## Qətərlə iqtisadi əməkdaşlığın inkişafı istiqamətləri müzakirə edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Qətər Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşüb.**

Görüşdə Azərbaycan və Qətər arasında əlaqələrin yüksək səviyyədə olduğu, qarşılıqlı səfərlərin əməkdaşlığın inkişafında əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Qətər Dövlətinin Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində ədalətli həllini dəstəkləməsi ölkəmizdə yüksək qiymətləndirilir.

İqtisadiyyat naziri bildirib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq uğurla inkişaf edir, 2020-ci ilin yanvar-oktyabr aylarında ticarət dövriyyəsində artım müşahidə olunur.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib, Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın əlaqələrin genişləndirilməsində rolunun gücləndirilməsi vurğulanıb, Qətər şirkətləri Azərbaycana investisiya yatırmağa və birgə layihələrin həyata keçirilməsində iştiraka dəvət edilib.

Qətər Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri ölkəmizdə fəaliyyətindən məmnunluğunu bildirib, qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, ölkələrimiz arasında əməkdaşlığın inkişafı perspektivləri barədə fikirlərini bölüşüb.

## Bərpa olunan enerji mənbələrindən istifadə məsələsi gündəmdədir

Azərbaycan Respublikası Prezidentinin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 05 dekabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış komissiyanın dördüncü iclası keçirilib.

Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə videokonfrans formatında keçirilən iclasda komissiyanın üçüncü iclasından ötən dövr ərzində pilot layihələrin icrası istiqamətində görülən işlər nəzərdən keçirilib, "ACWA Power" şirkəti ilə imzalanacaq müqavilə layihələrinin yekun versiyaları təsdiq olunub.

İclası açan Pərviz Şahbazov komissiya üzvlərini Qarabağ müharibəsində qazanılmış möhtəşəm qələbə münasibətilə təbrik edib, "ACWA Power" və "Masdar" şirkətləri ilə imzalanmış icra müqavilələri çərçivəsində həyata keçiriləcək külək və günəş enerjisi layihələrinin reallaşdırılması üçün torpaq sahələrinin ayrılması, şəbəkəyə qoşulma və enerjisistemə inteqrasiya, dövlət zəmanətlərinin verilməsi mexanizminin müəyyənləşdirilməsi, eləcə də digər istiqamətlər üzrə aidiyyəti qurumlarla birgə görülmüş işlər barədə məlumat verib.

Sonra hazırlanmış müqavilə layihələri barədə təqdimat dinlənilib. Qeyd olunub ki, "ACWA Power" şirkəti ilə imzalanması nəzərdə tutulan 6 müqavilə - İnvestisiya Müqaviləsi, Enerji Alqı-satqı Müqaviləsi, Ötürücü Şəbəkəyə Qoşulma Müqaviləsi, Torpaq İcarə Müqaviləsi, Müstəqil Mühəndis Müqaviləsi və Birbaşa Razılaşma Müqaviləsinin layihələri hazırlanıb və iki mərhələdə aidiyyəti qurumlardan rəy və təkliflər toplanaraq, təkmilləşdirilib və investorla razılaşdırılıb. Komissiya bu iclasda layihələri təsdiq etdikdən sonra onlar paraflanacaqdır. Eyni zamanda "Masdar" şirkəti ilə müvafiq layihə sənədləri üzrə danışıqların son mərhələdə olduğu, yaxın gələcəkdə yekunlaşdırılacağı diqqətə çatdırılıb.

İclasda komissiya üzvləri çıxış edərək hazırlanmış sənədləri dəstəkləyiblər, səsləndirilmiş bir neçə təklif nəzərə alınmaqla müqavilə layihələri təsdiq olunub.

## "Qobu"dan doğan işıq

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, Prezident İlham Əliyev bu il avqustun 21-də yarımstansiyanın tikintisi ilə tanış olmuş və elektrik stansiyasının təməlini qoymuşdur. Həmin tədbirdə dövlət başçısı demişdir: "Əlbəttə ki, yeni generasiya güclərinin yaradılması bizim ümumi inkişafımızın təzahürüdür. Çünki enerji sistemimizin müasirləşdirilməsi ölkəmizin ümumi inkişafı ilə uzlaşır və bütün işlər planlı şəkildə aparılır. Bildiyiniz kimi, infrastruktur layihələri arasında elektrik stansiyalarının tikintisi xüsusi yer tutur və deyə bilərəm ki, biz I növbədə bu məsələ ilə məşğul olmağa başlamışdıq. Təsadüfi deyil ki, 2004-cü ildə qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramında elektrik stansiyalarınn tikintisi xüsusi nəzərə alınmışdır. O vaxtdan bu günə qədər ölkəmizdə 30-dan çox elektrik stansiyası tikilib... Bu stansiyalar tikilməsəydi, bu gün biz öz enerji potensialımızı bu səviyyəyə çatdıra bilməzdik".

"Qobu" layihəsinin həyata keçirilməsi görülmüş bu genişmiqyaslı işlərin davamıdır. Yaradılan yeni mənbə Abşeron enerji sistemində tənzimləyici generasiya gücü funksiyasını daşıyacaq. "Qobu" yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, o, Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiya olacaq. Ən başlıcası, yeni obyekt ölkənin strateji yarımstansiyası olan 500 kilovoltluq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyacaq. Bir neçə il əvvəl "Mingəçevir" İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində Bakı şəhərinin, Abşeron yarımadasının və ölkəmizin bir sıra digər bölgələrinin işıqsız qaldığı hamının yadındadır. Ona görə də "Qobu" layihəsinin məhz Abşeron yarımadasında reallaşması, həmçinin qəzalardan sığortalanmaq deməkdir.

Bu obyektlər, eləcə də yaxın illərdə respublikada fəaliyyətə başlayacaq bir sıra qeyri-neft sənayesi müəssisələrinin, o cümlədən Ələt qəsəbəsinin yaxınlığında yaradılacaq "Azad İqtisadi Zona"nın etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq.



### Bu layihə enerji sistemində bir mənbədən asılılığı aradan qaldıracaq, bölgələrdəki stansiyaların paytaxta yönəldilən yükünü azaldacaq

Layihənin icrası digər bir vacib məsələdə də əhəmiyyəti ilə seçilir. Belə ki, "Qobu" elektrik stansiyasının və "Qobu" yarımstansiyasının işə salınması məşğulluğun artırılmasına töhfə olacaq. Burada 120-dən artıq yeni iş yeri yaradılacaq.

Odur ki, "Azərenerji" ASC-nin layihə çərçivəsində tikinti işlərini intensivləşdirilməsi də təsadüfi deyil. Artıq elektrik stansiyasının hər 3 maşın zalının yeraltı kommunikasiya xətlərində aparılan işlər tamamlanıb, 7 blok transformatorunun yeraltı əlaqələnmə xətləri çəkilib, su, drenaj, qaz boruları atılıb, metal-konstruksiya işləri davam edir. Yarımstansiyada isə işlərin çox hissəsi, o cümlədən metal-konstruksiya işləri başa çatıb, hazırda avadanlıqların montajı aparılır. Yeni idarəetmə binası tikilib və binanın montaj işləri davam edir. Eyni zamanda müasir standartlara cavab verəcək tədris və yataqxana binasının inşası həyata keçirilir.

"Qobu" layihəsinin enerji sistemi ilə inteqrasiyası üçün çəkilən yüksəkgərginlikli xətlərin inşası da sürətlə gedir. Stansiya və yarımstansiyada işlərin 2022-ci ilin əvvəlində yekunlaşması nəzərdə tutulmuşdu. Lakin layihənin vaxtından bir qədər də tez - gələn ilin sonuna qədər tamamlanması gözlənilir.

Bütövlükdə bu layihənin böyük əhəmiyyəti var. Çünki ən müasir texnologiyaların tətbiq ediləcəyi yeni stansiya və yarımstansiyanın timsalında da ölkəmizin enerji sisteminin böyük inkişaf dövrü yaşadığı aydın görünür. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan elektrik enerjisinin əlçatanlıq indeksinə görə dünyada ikinci yerdədir. Bu sistemin inkişafı olmadan istənilən ölkədə ümumü tərəqqidən söhbət gedə bilməz. Odur ki, elektroenergetikamızın inkişafı müasir Azərbaycanın ümumi inkişafının göstəricisidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Yolların keyfiyyətinə görə MDB-də 1-ci, Asiyada 10-cuyuq

### "World Economic Forum" avtomobil yollarının vəziyyətinə dair "Quality of roads" hesabatını yeniləyib




**Azərbaycan MDB məkanında ən yüksək nəticə göstərib - 1-ci yer. Asiya qitəsində 10-cu, ümumilikdə, 141 ölkə arasında isə dünyada 24-cü yerdə qərarlaşmışıq.**

Qeyd edək ki, avtomobil yollarının keyfiyyətinə görə, ölkəmiz 2016-cı ildə 51-ci, 2018-ci ildə isə 35-ci yerdə idi.

## Azərbaycanda pambıq yığımında növbəti rekord göstərici qeydə alınıb

**Bugünədək sahələrdən 320542 ton pambıq yığılıb, orta məhsuldarlıq 32 sentneri keçib**

Bu il Azərbaycanda pambıq yığımında rekord orta məhsuldarlıq göstəriciləri qeydə alınır. Pambıq yığımı başa çatmasa da, artıq fermerlər sahələrdən 320542 ton məhsul yığaraq qəbul məntəqələrinə təhvil veriblər. Bu, ötən ilin yekun göstəricisindən 25,5 min ton çoxdur. Qeyd edək ki, 2019-cu il pambıq mövsümünün yekununda ölkə üzrə 295 min ton pambıq yığılaraq məntəqələrə təhvil verilmişdi.

Noyabrın 26-na olan operativ məlumata görə, pambıq yığımında orta məhsuldarlıq 32,09 sentner təşkil edir. Bu, Azərbaycanın pambıqçılıq tarixinin ən yüksək göstəricilərindən biridir. Hazırda sahələrdə pambıq yığımı davam edir, mövsümün yekununda həm məhsul həcmi, həm orta məhsuldarlıq göstəricilərinin daha da artacağı gözlənilir. Pambıq yığımının optimal müddətdə başa çatdırılması nəzərdə tutulur.




2020-ci ildə Azərbaycanın 21 rayonunda 100 min hektara yaxın sahədə pambıq əkilib. İndiyədək ən yüksək orta, məhsuldarlıq Salyan (40,12 sent/ha), Neftçala (38,15 sent/ha), Beyləqan (34,42 sent/ha), Yevlax (34,05 sent/ha), Ağcabədi (33,44 sent/ha), Goranboy (33,25 sent/ha), Tərtər (32,32 sent/ha), Saatlı (32,27 sent/ha), Sabirabad (31,81 sent/ha), Bərdə (31,66 sent/ha) və Ağdam (30,78 sent/ha) rayonlarında qeydə alınıb. Daha iki rayonda - Zərdab (29,71 sent/ha) və Hacıqabulda (29,40 sent/ha) pambıq üzrə orta məhsuldarlıq göstəricisi 30 sentnerə yaxındır.

2020-ci ildə ən çox pambıq əkini Saatlı (14141 ha), Ağcabədi (10689 ha), Bərdə (10646 ha), Biləsuvar (10061 ha), Sabirabad (9683,5 ha) və Beyləqan (8743 ha) rayonlarında aparılıb.

Qeyd edək ki, Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Yeni subsidiya mexanizminə əsasən, pambıqçı fermerlər təhvil verdikləri məhsula görə dövlətdən həm əkin, həm məhsul subsidiyası alırlar. Pambıq sahəsinin hər hektarına görə fermerə 220 manat subsidiya verilir, eyni zamanda, fermerlər qəbul məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 100 manat subsidiya alırlar. Yetişdirilən məhsul fermerdən keyfiyyətindən asılı olaraq hər tonu 550-650 manat olmaqla satın alınır. Həyata keçirilən dövlət dəstəyi mexanizmləri nəticəsində pambıqçılıq kənd təsərrüfatının ən əməktutumlu və ən çox gəlir gətirən sahəsinə çevrilib.

## Daha 28 şəhid ailəsi və Qarabağ müharibəsi əlili evlə təmin olundu

**"Xalqımız cəmi 44 gün ərzində işğalçı Ermənistanı diz çökdürən və möhtəşəm Qələbəyə imza atan, torpaqlarımızı erməni faşizminin əsarətindən azad edən güclü Azərbaycanımızla, Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevlə, qəhrəman Ordumuzla fəxr edir!"**





Bu fikri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 10 rayonda (Göyçay, Daşkəsən, Gədəbəy, Saatlı, Kürdəmir, Quba, Salyan, Şəmkir, Qazax, Ağdaş) fərdi yaşayış evlərinin təqdim edildiyi şəhid ailələri və Qarabağ müharibəsi əlilləri vurğulayıblar.

Həmin rayonlar üzrə ümumilikdə 28 fərdi ev qeyd edilən kateqoriyalardan olan vətəndaşlara təqdim edilib. Göyçay rayonunda evlərin təqdim edilməsi tədbirində Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov, Göyçay Rayon İcra Hakimiyyəti başçısının müavini Zivər Zeynalova iştirak ediblər.

Bildirilib ki, ölkəmizdə Qələbə ovqatı hökm sürür. 30 ilə yaxındır ki, işğal altında qalmış torpaqlarımızın azadlığa qovuşması hər birimizə sonsuz fərəh və iftixar duyğuları bəxş edir. Vəhşi düşmən işğal etdiyi yurd yerlərimizdə barbarcasına hər şeyi, bütün infrastrukturu məhv etsə də, dövlətimiz yenidən həmin ərazilərdə abad, gözəl, müasir yaşayış məntəqələri, kənd və qəsəbələr, şəhərlər salacaq. O torpaqlarımız azad, firavan həyatını yaşayaraq, öz doğma sahiblərinin gücü, zəhməti ilə yenidən gülüstana, abad diyara çevriləcək.

Qeyd edilib ki, dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub və onlardan artıq böyük əksəriyyəti sahiblərinə təqdim edilib. İndiyədək isə nazirlik tərəfindən 8451 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara verilib.

Yeni fərdi evlə təmin olunan şəhid ailələrinin üzvləri, müharibə əlilləri erməni faşizmini məhv edən Ordumuzun misilsiz rəşadətindən və dünya hərb tarixinə əbədi həkk olunan uğurlu hərbi əməliyyatlarından, tariximizə şanlı qəhrəmanlıq səhifəsi kimi yazılan böyük Qələbəmizdən fərəh və qürur hissi ilə bəhs ediblər. Onlar bu parlaq Qələbəyə və həssas qruplara göstərilən yüksək qayğıya, bu gün yeni evlərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.

## Tərtər rayonunun Şıxarx qəsəbəsində qaz xətlərinin təmirinə başlanılıb

Tərtər rayonunda məcburi köçkünlərin məskunlaşdığı Şıxarx qəsəbəsində Vətən müharibəsi zamanı düşmənin namərd atəşi nəticəsində qaz təsərrüfatına dəyən ziyan aradan qaldırılır.

Bunun üçün "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyevin göstərişi ilə Bakıdan Tərtər rayonuna bir neçə tikinti heyəti yola salınıb. Lazımi avadanlıqlarla təchizat məsələləri də yüksək səviyyədə həll olunur. Qeyd edək ki, Şıxarx qəsəbəsində 34 yaşayış binasında hazırda 1172 abonentin qaz təchizatı müvəqqəti olaraq dayandırılıb. Bölgədə yalnız bu ərazidə sakinlər qaz almır. Döyüşlər zamanı düşmənin qaz təsərrüfatına ziyan vurduğu Tərtər Regional qaz istismarı İdarəsinin xidmət sahəsinə daxil olan digər rayonlarda - Ağdam, Ağcabədi, Bərdə, Beyləqan və Füzulidə bütün problemlər aradan qaldırılıb.

## Gömrük Akademiyası İspaniyanın Fiskal Araşdırmalar İnstitutu ilə anlaşma memorandumu imzalayıb

**Dövlət Gömrük Komitəsinin Akademiyası (DGKA) ilə İspaniya Krallığının Fiskal Araşdırmalar İnstitutu (IEF) arasında anlaşma memorandumunun imzalanması mərasimi keçirilib.**

Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, onlayn formatda keçirilən mərasimdə komitənin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, İspaniya Gömrüyünün baş direktoru xanım Pilar Jurado, DGKA-nın rəisi Qulu Novruzov, Fiskal Araşdırmalar İnstitutunun direktoru Aleyin Kuensa və İspaniya səfirliyinin müvəqqəti işlər vəkili İqnasio Sançez Taboada iştirak ediblər.

P.Jurado iki ölkənin gömrük orqanları arasındakı səmərəli, işgüzar münasibətlərdən və perspektivlərdən məmnunluqla söhbət açıb. Baş direktor imzalanacaq memorandumun gömrük təlimləri və tədqiqatları sahəsində əməkdaşlığa töhfə olacağına, qarşılıqlı əlaqələri daha da gücləndirəcəyinə əminliyini ifadə edib.

S.Mehdiyev Azərbaycan ilə İspaniya arasında qarşılıqlı anlaşmaya əsaslanan mövcud əlaqələrdən bəhs edib və bildirib ki, iki ölkə beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, bir-birlərinin ərazi bütövlüyünün, suverenliyinin, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyir və hörmət edirlər.

Komitə sədri bildirib ki, Ümumdünya Gömrük Təşkilatı (ÜGT) ilə Dövlət Gömrük Komitəsi arasındakı səmərəli əməkdaşlıq və qarşılıqlı münasibətlər uğurla inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gömrük sistemində, gömrük işinin səmərəli təşkili, beynəlxalq ticarətin asanlaşdırılması, tranzit əməliyyatlarının sürətləndirilməsi istiqamətində innovativ islahatlar həyata keçirilir. Ümumdünya Gömrük Təşkilatı ilə səmərəli əməkdaşlıq da islahatların uğurla reallaşdırılmasına mühüm töhfə verir.

DGK-nın sədri komitə ilə Ümumdünya Gömrük Təşkilatı arasında "ÜGT-nin e-Learning Modullarından istifadə üzrə Lisenziya" verilməsinə dair razılaşma imzalandığını bildirib. Təhsildə yeni metod və yanaşmaları ehtiva edən, bilik və məlumatların elektron qaydada məsafədən əldə olunmasına, öyrənilməsinə, təhlil edilməsinə və dəyərləndirilməsinə şərait yaradan bu sistemin tətbiqi Azərbaycanın gömrük xidməti əməkdaşlarının bilik və bacarıqlarının artırılmasında, potensialın gücləndirilməsində mühüm rol oynamaqla yanaşı, təcrübə mübadiləsi istiqamətində də səmərəli nəticələrin əldə olunmasını təmin edir.

O vurğulayıb ki, Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda 44 gün davam edən Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən şanlı qələbə nəticəsində Azərbaycan üçün yeni dövr başlayıb. Ordumuzun uğurlu əməliyyatları nəticəsində Azərbaycan-İran sərhədinin işğal altında olan 132 kilometrlik hissəsinin də işğaldan azad olunaraq Azərbaycanın nəzarətinə qaytarıldığını diqqətə çatdıran S.Mehdiyev bildirib ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunması, düşmənin məğlub edilməsi bütün digər sahələr kimi gömrük xidməti qarşısında da ciddi vəzifələr qoyur.

Gömrük Akademiyasının əsas missiyası ölkəmizin gömrük xidmətinin inkişaf tempini qoruyub saxlamaq və daha da irəli aparmaq üçün yüksək peşəkarlığa və fərqli bacarıqlara sahib mütəxəssislər hazırlamaqdır deyən DGK-nın sədri qeyd edib ki, 2019-cu ildə 700-dən çox gömrük xidməti əməkdaşı akademiyada təşkil edilən ixtisasartırma təlimlərində iştirak edib: "Təəssüflə qeyd etməliyəm ki, qlobal pandemiya cari ildə bu istiqamətdə fəaliyyətimizə təsirsiz olmayıb. Hazırda bir sıra təlimlərin məsafədən onlayn həyata keçirilməsində ən yaxşı təcrübələrin tətbiqi nəzərdən keçirilir. DGKA ilə İspaniya Krallığının Fiskal Araşdırmalar İnstitutu arasında gömrük təlim-tədrisi üzrə anlaşma memorandumunun imzalanması bu baxımdan əhəmiyyətli hadisədir".

Sonra Dövlət Gömrük Komitəsinin Akademiyası ilə İspaniyanın Fiskal Araşdırmalar İnstitutu arasında anlaşma memorandumu imzalanıb. Sənədi DGKA-nın rəisi Q.Novruzov və Fiskal Araşdırmalar İnstitutunun direktoru A.Kuensa imzalayıblar.

Qeyd edək ki, anlaşma memorandumunda iki ölkə arasında qarşılıqlı maraq doğuran sahələr, o cümlədən gömrük və əlaqədar sahələrdə təlimlərin, kursların, seminarların və digər tədbirlərin keçirilməsi, elektron tədris və distant təhsil üzrə birgə fəaliyyətlər, tələbə, heyət, informasiya mübadilələri, elmi araşdırma və tədqiqatlar, beynəlxalq əməkdaşlıqda qarşılıqlı dəstək, onlayn kursların yaradılması və onlardan birgə istifadə, ikili və beynəlxalq layihələrin hazırlanması və digər məsələlər nəzərdə tutulur.

# Biz birlikdə güclüyük!

## Ali Məhkəmə koronavirusun qarşısının alınması məqsədilə məhkəmələrdə həyata keçirilməli olan tədbirlərə dair məlumat yayıb

Ali Məhkəmə Azərbaycanda koronavirus (COVID-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədilə məhkəmələrdə həyata keçirilməsi zəruri olan tədbirlər haqqında məlumat yayıb.

Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini və Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması ilə bağlı əlavə tədbirlər barədə" 2020-ci il 19 noyabr tarixli 450 nömrəli qərarını nəzərə alaraq hakimlərin, məhkəmə aparatı işçilərinin və məhkəməyə müraciət edən şəxslərin sağlamlıq və təhlükəsizliyini qorumaq məqsədilə Azərbaycan Respublikasının məhkəmələrinə aşağıdakılar tövsiyə edilib:

Azərbaycan Respublikasının məhkəmələri üzrə 2020-ci il dekabrın 2-si saat 06:00-dan dekabrın 23-ü saat 06:00-dək aşağıdakı təxirəsalınmaz qaydada baxılmalı olan, yaxud məhkəmə baxışının keçirilməsini tələb etməyən işlər istisna olmaqla, icraatlarında olan digər işlərə baxılması müvəqqəti olaraq təxirə salınır:

1. Mülki və kommersiya mübahisələri üzrə - ailə-nikah münasibətlərindən (nikahın pozulması, aliment, uşaqla ünsiyyət, əmlak bölgüsü və digər), əmək münasibətlərindən irəli gələn və xüsusi icraat qaydasında baxılan mülki işlərə, tərəflərin sayı ikidən artıq olmayan kommersiya mübahisələrinə, əmr icraatına, kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraata, habelə bütün kateqoriya işlər üzrə iddianın təmin tədbirləri ilə bağlı məsələlərə. Digər kateqoriya mülki və kommersiya mübahisələri üzrə isə Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin tələbləri nəzərə alınmaqla məhkəmə icraatının "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması imkanlarından istifadəsi davam etdirilsin;

1.2. Cinayət işləri üzrə - Cinayət-Prosessual Məcəlləsinin 51-2-ci maddəsinə müvafiq olaraq məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirilməsi mümkün olan cinayət işlərinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına, xüsusi ittiham qaydasında şikayət üzrə materiallara; tibbi xarakterli məcburi təbirlərinin tətbiq edilməsi haqqında materiallara; qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğvi, həbsdə, ev dustaqlığında saxlama müddətlərinin uzadılması, ev dustaqlığı qətimkan tədbiri ilə əlaqədar şəxsin üzərinə qoyulmuş vəzifələrin ləğvi, dəyişdirilməsi barədə, habelə məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında verilmiş digər müraciətlərə; hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında təqdimatlara və ərizələrə;

1.3 İnzibati xətalara dair bütün kateqoriya işlərə;

1.4 İnzibati mübahisələr üzrə - sosial təminat hüququnun həyata keçirilməsi və vergi mübahisələri kateqoriyasına aid işlərə, eləcə də müvəqqəti xarakterli müdafiə tədbirinin tətbiqi ilə bağlı məsələlərə. Digər kateqoriya inzibati mübahisələr üzrə isə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin 16-cı maddəsinin tələbləri nəzərə alınmaqla şifahi məhkəmə baxışı (şifahi dinləmələr) keçirilmədən baxılması imkanlarından istifadəsi davam etdirilsin.

2. Məhkəməyədək icraat zamanı barələrində həbs qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxslər haqqında cinayət işləri, habelə təqsirləndirilən şəxslərin sayı iki nəfərdən artıq olmayan digər cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları yuxarıda qeyd edilən müddətdə məhkəmələrin icraatına qəbul edilsin.

3. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin 16-cı maddəsinin tələbləri nəzərə alınmaqla şifahi məhkəmə baxışı (şifahi dinləmələr) keçirilmədən baxılması mümkün hesab edilən inzibati işlər istisna olmaqla, Azərbaycan Respublikasının Ali Məhkəməsində yuxarıda qeyd edilən müddətdə işlərə baxılması təxirə salınsın.

4. Hakimlərin və məhkəmə aparatı işçilərinin iş rejimi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrindən irəli gələn digər zəruri məsələlər həll olunsun.

5. Vətəndaşların qəbulu dayandırıldığından qəbul yalnız telefon, mobil və internet rabitəsi vasitəsilə həyata keçirilsin. Məhkəmələr fiziki və hüquqi şəxslərin ərizələrinin, o cümlədən apellyasiya və kassasiya şikayətlərinin yalnız poçt vasitəsilə və ya elektron şəkildə qəbulunu təmin etsinlər.

6. Məhkəmə fəaliyyəti Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilsin. Hakimlərin, məhkəmə aparatı işçilərinin və vətəndaşların məhkəmə binalarında olduqları müddət ərzində qoruyucu maskalardan istifadə etmələri, şəxsi gigiyena, tibbi-profilaktik qaydalara, eləcə də sosial məsafəyə riayət etmələri təmin olunsun. Məhkəmələrin inzibati binalarında mütəmadi olaraq dezinfeksiya işləri aparılsın və qoruyucu-gigiyenik vasitələrlə təchiz edilsin.

## Hər bir vətəndaş sağlamlığına məsuliyyətlə yanaşmalıdır

### Əhalinin pandemiyadan etibarlı müdafiəsini təşkil etmək üçün ölkəmiz zəruri tədbirlər görür

**Koronavirus infeksiyasının (COVID-19) dünyada geniş yayıldığı, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qlobal pandemiya elan etidiyi şəraitdə ölkələr öz əhalisinin sağlamlığının qorunması və virusun qarşısının alınması üçün ciddi tədbirlər həyata keçirsələr də, son vaxtlar, xüsusən payız mövsümü başlayandan vəziyyət ciddiləşib. Koronavirusdan xilas olmanın yolları indi daha ciddi araşdırmalar tələb edir. Qayda-qanunlara əməl etməli olduğumuz halda bəzən laqeydlik, məsuliyyətsizlik bütün yoluxmaların və ölənlərin sayının hər gün artmasına səbəb olur.**



Məsələ ilə bağlı infeksionist həkim Kifayət Nəsibova fikirlərini bölüşərkən qeyd etdi ki, virus yenicə ortaya çıxanda pandemiyanın geniş yayılmaması üçün ayrı-ayrı dövlətlərlə təmasların minimallaşdırılması və ya ümumiyyətlə, dayandırılması, ölkələr daxilində ictimai həyata və davranışa bir az sərt məhdudiyyətlərin tətbiq edilməsi ilk vaxtlar narahatlıqla qarşılansa da, sonradan insanlar buna öyrəşdilər. Vətəndaşların sağlam həyat şəraitinin, eləcə də təhlükəsizliyinin təmin edilməsi və hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün də ən vacib və prioritet məsələdir: "Azərbaycan güclü dövlətdir, öz vətəndaşlarını bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. ÜST-ün ekspertlərinin də ilk aylardan qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biri kimi tanındı. Pandemiyanın ölkəmizdə yayılmağa bağladığı ilk vaxtlardan bu, özünü qısa müddət ərzində göstərdi. Çünki dövlət və hökumət, eləcə də ictimaiyyət tərəfindən qabaqlayıcı və profilaktik tədbirlərə ciddi əməl edilirdi".

Həkimin xüsusi vurğuladığı kimi, hazırda Azərbaycan hökuməti ÜST-ün tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün bütün mümkün vasitələrdən istifadə edir. Həyata keçirilən tədbirlərin əhatə dairəsi daha da genişləndirilir. Hələ bu ilin fevral ayının əvvəlindən reallaşdırılan profilaktik tədbirlər infeksiyanın xaricdən idxalını məhdudlaşdırmaq və onun ölkə daxilində yayılmasının qarşısını almaq məqsədi daşıyırdısa, bu gün mübarizənin coğrafiyası da dəyişilib. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması, gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi və digər addımlar hazırkı dövrə kimi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib. Lakin pandemiyanın bir neçə mərhələdə dünyanı öz çənginə almaq ehtimalı daim bizi ayıq-sayıq olmağa səsləyib: "Bildiyimiz kimi, bu ilin yaz aylarında ölkəmizdə koronavirusa yoluxma halları az müşahidə edilirdi. Həmin müddətdə sağalanlar isə hər gün artırdı. Bunun da, təbii ki, müxtəlif səbəbləri var idi. Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın tətbiq etdiyi qaydalar, hüquq mühafizə orqanlarının məsələyə ciddi münasibəti, tövsiyələr, qadağalar, cərimələr və digər amillər yoluxmanın azalmasına səbəb oldu. Paytaxt Bakıda, eləcə də əksər regionlarda təcili şəkildə yaradılan modul tipli xəstəxanalar və klinikalar, testlərin operativliyi üçün xaricdən alınan laboratoriyalar isə yoluxanların aşkar edilib, müalicə aldıqdan sonra qısa müddətdə sağalaraq öz doğmalarına qovuşmalarına şərait yaratdı".

Tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə, bütün cəmiyyətin, hər bir vətəndaşın üzərinə böyük məsuliyyət qoyur. Həmin qaydalar milli təhlükəsizlik və həmrəylik məsələsidir. Tutduğu mövqedən, baxışlarından asılı olmayaraq, hər bir vətəndaşdan maksimum şəkildə diqqətli və məsuliyyətli olması tələb edilir. Eyni zamanda hər bir vətəndaş bilməlidir ki, tətbiq olunan qaydalar, ilk növbədə, onun və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin edən müvəqqəti və eyni zamanda məcburi addımlardır. Buna görə də hamı qaydalara anlaşıqlı, dözümlü yanaşmalı, onları maksimum icra etməyə çalışmalıdır. Bununla da onlar nümunəvi davranışı, dövlət orqanlarının işinə dəstək vermək ilə özünü, ailəsini, yaxınlarını qorumuş olacaq və ümumilikdə, cəmiyyətimizin təhlükəsizliyinə öz töhfəsini verəcəkdir.

İlin yay aylarından Ermənistanın ölkəmizə qarşı yenidən təxribat törətməsi əsasında diqqətin az da olsa, pandemiyadan uzaqlaşaraq, düşmənlə savaşa yönəlməsi, sanki bu gözəgörünməz bəlaya yeni bir fürsət verdi. İnfeksionist həkim K.Nəsibova bu məsələ ilə də bağlı fikirlərini açıqlayarkən xüsusi vurğuladı ki, müharibənin dəhşətləri amansız xəstəliyi sanki xalqımıza unutdurdu. Hər kəs düşmənə layiqli cavab vermək üçün ayağa qalxdı: "Əlbəttə, bu zaman ara məsafəsi unuduldu. Gəncə, Bərdə və Tərtərdə ermənilərin törətdiyi terrorlar ilə insanların bir yerə kütləvi axışını xatırlayın. Kütləvilik əvvəlki dövrə baxanda xeyli artdı. Bura şəhidlərimizin dəfni və hüzr mərasimlərindəki yaxın təması və doğma ünsiyyətdən gələn münasibətləri də əlavə etsək, məsələyə daha yaxşı aydınlıq gətirmiş olarıq. Hələ İkinci Qarabağ müharibəsinədək, yəni sentyabrın ortalarına kimi də vəziyyət öz məcrasından çıxmışdı. Hər gün yoluxmaların və ölümlərin sayının artması müşahidə edilsə də, sanki buna qarşı ölkə əhalisində bir qorxmazlıq, deyərdim ki, saymamazlıq da yaranmışdı. Əlbəttə, bu böyük səhv idi. Nəzərə almalıyıq ki, müharibə aparan bir ölkədə həkim və xəstəxanaların fəaliyyətinin həmin sahəyə yönəlməsi daha vacibdir. Ona görə də hər kəs bunu bilməli, özünü və ətrafını, hətta həkimlərimizi qorumaq barədə ciddi düşünməlidir".

İlin payız fəsli olduğu üçün mövsümi qrip və digər infeksion xəstəliklərin artmasını nəzərə alsaq, pandemiyanın növbəti dalğasının daha təhlükəli ola biləcəyini anlamalıyıq. Həkim müşahidələrinə əsasən bildirdi ki, söhbət xəstəliyin yayılmasının kritik həddə çatmasından gedir. Vaxtilə bu göstəricilər ikirəqəmli olduğu halda, bu gün yoluxmaların ölkəmizdə 3 minin üstünə keçməsi ciddi təhlükədən xəbər verir. Bu, həm də həkimlərin böyük hissəsinin diqqətinin yaralı əsgərlərimizdən ayrılaraq, pandemiya xəstələrinə yönəlməsi ilə məhdudlaşması anlamına gəlir. Eyni zamanda xəstəxanalarda çarpayı sayının da çatışmazlığına gətirib çıxara bilən məsələdir.

İkinci və daha ağrılı bir məsələ isə böyük şəhərlərimizdə, xüsusən də paytaxt Bakıda əhalinin ictimai nəqliyyatdan düzgün istifadə etməməsidir. Bu barədə dəfələrlə söz açılsa da, görülən tədbirlərin əhəmiyyəti azdır. Bura yalnız ictimai nəqliyyatda maskadan istifadə etmək daxil deyil. Müşahidə edilən basabaslar da ciddi problem yaradan amillərdəndir. Metronun işləməməsi müxtəlif marşrut xətlərində sərnişin daşıyan avtobusların sürücülərinin sanki əlavə qazanc mənbəyinə çevrilib. Sürücülər var ki, avtobusa maskasız daxil olanlara, sadəcə, "maskalarınızı taxmaq tövsiyə edilir",- deməklə öz işini bitmiş hesab edirlər. Bəzən sərnişinlər də məsuliyyətsiz hərəkət edirlər. Onlar cərimələrdən qorxduqları üçün maskanı çənələrinin altında saxlamaqla, özlərini qayda-qanuna tabe kimi göstərirlər. Düşünmürlər ki, bununla yalnız özlərini aldadırlar. Görünür, ictimai qınaq və təbliğat hələ də yetərincə deyil.

Təəssüfləndirici haldır ki, dünyada koronavirusa yoluxanların sayı durmadan artmaqdadır. Bu fakt Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumatda da təsdiqlənib. Antarktidadan başqa, bütün qitələrə yayılmış virusdan xilas yolları araşdırılmaqdadır.

Təkcə dövlət orqanlarının səmərəli fəaliyyəti deyil, ayrı-ayrılıqda hər bir şəxsin sosial məsuliyyətdən irəli gələn davranışı, Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlarına qeyd-şərtsiz əməl edilməsi qarşıda duran vəzifələrin mümkün qədər səmərəli icrasını reallaşdıracaq əsas faktorlardan biridir.

Hər hansı xəstəliyin müalicəsi, əlbəttə, ilk növbədə həkimin müayinə və diaqnozundan çox asılıdır. Dünyanı vahimə içərisində saxlayan koronavirusun da müalicəsi, təbii ki, onun profilaktikasından başlayır. Dünya səhiyyəsinin son nailiyyətlərini nəzərə alsaq, bu virusa yoluxmanın qarşısının alınması ilə bağlı həyəcanı müqayisə etmək o qədər də asan deyil. Unutmayaq ki, koronavirus bəşəriyyətin başağrısıdır. Maskasız isə həyat yoxdur. Bu, hələlik qaçılmazdır, həm də yalnız bizim ölkədə deyil, dünyada qəbul ediləndir. Əhalinin pandemiyadan etibarlı müdafiəsini təşkil etmək üçün ölkəmiz zəruri potensiala malik olsa da, məsuliyyəti hər kəs daşımalıdır.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

## Quba, Masallı və Cəlilabadda COVID-19 xəstələrinin yaşayış yerini tərk etdiyi aşkarlanıb

Quba Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində qurulmuş karantin postunda xidmət aparan zaman yaşadığı evi qanunsuz tərk edən koronavirus xəstəsi aşkarlayıblar.






Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, araşdırmalarla həmin şəxsin rayonun Amsar kənd sakini Süleyman Mütəllimov olduğu müəyyən edilib.

Onun koronavirus testinin nəticəsi pozitiv olduğuna görə ev şəraitində müalicə təyin edilsə də, S.Mütəllimov qaydaları pozaraq Qusar rayonuna getmək istəyib.

Dərhal həmin əraziyə həkim briqadası dəvət edilib və təcili tibbi yardım avtomobili ilə S.Mütəllimov yaşadığı ünvana geri qaytarılıb.

Gün ərzində şöbə əməkdaşları karantin postunda xidmət aparan zaman yaşadığı evi qanunsuz olaraq tərk edən daha iki şəxsi də aşkarlayıblar. COVID-19 infeksiyasına yoluxduğunu bilərək özünütəcrid qaydalarına riayət etməyən Şabran rayon sakini İlyas İsaqov və Bakı şəhər sakini Gülnaz Bağırova Quba rayonuna daxil olmaq istəyən zaman polis əməkdaşları tərəfindən saxlanılıblar.

Hər iki şəxs təcili tibbi yardım avtomobilinə mindirilərək koronavirusa yoluxmuş şəxslərin müalicə aldığı xəstəxanaya yerləşdiriliblər.

Qeyd edilən faktla bağlı Quba RPŞ-də araşdırmalar aparılır.

❖ ❖ ❖

Ölkəmizdə COVID-19 pandemiyası ilə mübarizə məqsədilə sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Masallı və Cəlilabad rayonlarında polis əməkdaşlarının keçirdiyi müvafiq tədbirlərlə koronavirus infeksiyasına yoluxmuş daha 5 nəfər rayon sakininin yaşayış yerini tərk etdiyi müəyyən edilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, Masallı rayon sakinləri S.Mehdiyev, L.Kərimov, Ə.Əkbərov, Cəlilabad rayon sakinləri S.Yüzbaşov və M.Əbülhəsənova COVID-19 infeksiyası testinin pozitiv nəticəsinə görə ev şəraitində müalicə təyin edilib və onlara yaşayış yerini tərk etməmələri tapşırılıb.

Masallı və Cəlilabad Rayon Polis şöbələrinin əməkdaşlarının keçirdiyi müvafiq tədbirlərlə həmin şəxslərin yaşayış yerlərini tərk etdiyi müəyyən edilib və onlar müxtəlif ərazilərdə saxlanılaraq yaşadıqları ünvanlara geri qaytarılıblar.

Həmin şəxslərin törətdiyi əmələ hüquqi qiymət verilməsi üçün araşdırma aparılır.

## Şəkidə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri davam edir



**Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu Şəki rayonunda koronavirus infeksiyasının yayılma sürətinin azaldılması və qarşısının alınması məqsədilə sakinlər arasında maarifləndirmə tədbirləri davam etdirilir.**






Şəhər icra hakimiyyəti tərəfindən yaradılan mobil qrupların əhali arasında apardığı ictimai maarifləndirmə tədbirlərinə Gənclərin İnkişaf və Karyera Mərkəzinin Şəki nümayəndəliyinin könüllüləri də həvəslə qoşulublar. Şəki Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 27-də keçirilən növbəti maarifləndirici aksiya zamanı gənclər icra hakimiyyəti tərəfindən hazırlanan və üzərində "Virusdan qorunmaq əlimizdədir", "Koronavirusdan qorunmaq qaydaları", "Məsafə saxlayın" və digər təbliğat-təşviqat şüarları yazılmış reklam plakatlarını əhalinin sıx toplaşdığı məkanların, ticarət obyektlərinin, apteklərin, bankomatların, ödəmə terminallarının qarşısına yapışdırıblar.

Şəkidə belə maarifləndirici tədbirlər davamlı xarakter daşıyır.

## Azərbaycanda koronavirus infeksiyasına daha 3712 yoluxma faktı qeydə alınıb, 1359 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3712 yoluxma faktı qeydə alınıb, 1359 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 35 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 109 min 813 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 69 min 931 nəfər müalicə olunaraq sağalıb, 1291 nəfər vəfat edib. Aktiv xəstə sayı 38591 nəfərdir. Ötən müddət ərzində 1 milyon 682 min 234 test aparılıb.

Dünənki test sayı isə 16402-dir.



# Beynəlxalq ictimaiyyət Azərbaycanın zəfərini yüksək qiymətləndirir



Fransa Senatı Fransa hökumətini qondarma "DQR"in müstəqilliyini tanımağa səsləyərkən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Rusiyanın səylərini pozmağa cəhd göstərib.

AZƏRTAC xəbər verir ki, Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikov bu sözləri "Vestnik Kavkaza" nəşrinə müsahibəsində söyləyib.

"Mən ABŞ-dan gözləmədiyim kimi, Fransadan da Rusiyanın tərəfləri normal nizamlanma yoluna çıxarmasına görə təəssüf hissi keçirməsindən başqa heç nə gözləmirdim. Vəziyyətin sülhə doğru getdiyini, tərəflərin razılığa gəlməsini görüncə, Paris bu prosesi pozmağa, hansısa gərginlik yaratmağa yenidən cəhd edir", - deyə siyasətçi qeyd edib.

Rusiyalı deputatın fikrincə, buna bənzər hərəkətlər indiki mərhələdə tamamilə qeyri-konstruktivdir və Minsk qrupu həmsədrinin birtərəfli müdaxiləsi, sadəcə olaraq, yolverilməzdir.

L.Kalaşnikov deyib: "Bu qətnamənin Cənubi Qafqazda heç kəsə faydası olmayacaq. Bu addım yalnız Rusiyanın regionda səylərini hər hansı yolla pozmağa yönəlib. Reallıqda bu, Rusiyanın mövqeyinə heç cür təsir etməyəcək, lakin hər halda xoşagəlməz təəssürat qalacaq. Fransa Senatının qərarı ən azından hazırda Rusiya Federasiyasını Cənubi Qafqaza sülh gətirməkdə təqsirləndirən radikalları ruhlandıracaq. Qətnamənin məqsədlərindın biri budur".

Deputatın proqnozlarına görə, çox güman ki, Fransa hökuməti Senatın təxribatını dəstəkləməyəcək. "Fikrimcə, Fransa hökuməti özünü daha məsuliyyətli aparır və başa düşür ki, təəssüf hissini ifadə etməkdən başqa məsələlər də mövcuddur, münaqişəni əməli surətdə nizamlamaq lazımdır. Siyasətdə təəssüflər üçün yer yoxdur", - deyə Dövlət Duması komitəsinin sədri sonda vurğulayıb.

❖ ❖ ❖



"Mən bu qətnamə təklifini qəbul etmirəm. Bu təklif tarixi, siyasi və diplomatik baxımdan aydın deyil. Düşünürəm ki, bu, yalnız erməni lobbisinin məmnunluğu üçündür və heç bir əhəmiyyəti yoxdur".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Fransa Senatının üzvü Natali Qule deyib.

Natali Qule bildirib ki, Fransa Minsk qrupunun həmsədri kimi neytral olmalıdır, lakin Ermənistanın tərəfini tutur. Bu, yolverilməzdir. Əsas təəccüb doğuran məqamlardan biri də Azərbaycana aid olan qətnamədə Türkiyəyə qarşı da hücumların olmasıdır.

Senatın üzvü qeyd edib ki, bu ədalətsiz qətnamənin heç bir nəticəsi olmayacaq. Fransa mövcud olmayan bir "respublika"nı tanımayacaq. Heç Ermənistanın özü bu qondarma "respublika"nı tanımayıb.

Natali Qule bildirib ki, qətnamənin qəbul olunmasının digər səbəblərindən biri də bəzi senatorların çoxsaylı erməni elektoratının olmasıdır. Qətnamənin lehinə səs verən senatorların çoxu Qarabağı xəritədə göstərə bilməzlər, çünki onlar heç bilmirlər ki, o haradadır. BMT-nin qətnamələrində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərini tərk etməsi tələb olunurdu, lakin heç kim tərpənmirdi. Otuz il davam edən münaqişəyə etinasız olan, onunla maraqlanmayan siyasətçilər Rusiyanın iştirakı ilə atəşkəsə nail olunandan sonra sanki "qəflət yuxusundan ayıldılar".

❖ ❖ ❖

Türkiyə Respublikasının Ombudsman təsisatı Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi müharibə cinayətləri ilə bağlı xüsusi hesabat hazırlayıb.

AZƏRTAC xəbər verir ki, "Ermənistan-Azərbaycan müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən insan haqlarının pozulması ilə bağlı hesabat" adı ilə təqdim olunan sənəd təcavüzkar Ermənistanın 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanda dinc əhaliyə, yaşayış məskənlərinə və mülki infrastruktura qarşı həyata keçirdiyi hərbi təcavüzə dair faktlar, o cümlədən raket və ağır artilleriya zərbələri nəticəsində yaranmış tələfat və dağıntılar əksini tapıb.

Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun hesabata yazdığı təqdimatda Birləşmiş Millətlər Təşkilatı başda olmaqla insan haqlarını qorumaq məqsədilə təsis edilən beynəlxalq təşkilatların missiyası xatırlanır. Diqqətə çatdırır ki, təcavüzkar Ermənistan dünyanın gözü qarşısında Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirib və bu azmış kimi, davamlı olaraq




təxribatlar törədərək yeni ərazi iddiaları irəli sürüb. Sentyabrın 27-də başlayan müharibənin və hərbi əməliyyatlar zamanı Azərbaycanın dinc əhalisinə qarşı törədilən müharibə cinayətlərinin birbaşa məsuliyyətini Ermənistan dövləti daşıyır. Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı məqsədyönlü hücumları nəticəsində Azərbaycanda uşaqlar, qadınlar, yaşlılar daxil olmaqla 94 dinc sakinin öldürüldüyü, 400 nəfərdən çox günahsız şəxsin yaralandığı xatırlanır. Vurğulanır ki, insan haqlarının qorunması ilə məşğul olan beynəlxalq təşkilatlar bu bəşəri cinayətə səssiz qalmamalıdırlar.

Hesabatın "Dağlıq Qarabağ məsələsi" adlı bölməsində tarixi faktlar və rəsmi sənədlər təqdim olunur. Bu bölmədə ermənilərin regiona sonradan köçürülməsi ilə bağlı məlumat da yer alıb. Azərbaycan torpaqlarının hesabına indiki Ermənistan dövlətinin yaradılması, eləcə də bu ölkənin əzəli sakinləri olan azərbaycanlılara qarşı yürüdülən etnik təmizləmə siyasəti bu bölmədə öz əksini tapıb. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirdiyi, Dağlıq Qarabağı və ətrafındakı yeddi rayonu zəbt etdiyi diqqətə çatdırılır. Münaqişənin həlli üçün beynəlxalq məsuliyyət daşıyan ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyi vurğulanır.

"Münaqişə bölgəsindəki gündəlik vəziyyət" bölməsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini və infrastrukturunu hədəfə alması barədə məlumat verilir. Burada ballistik raket və artilleriya zərbələri ilə hədəfə alınan dinc insanların hücum nəticəsində hansı acınacaqlı vəziyyətə düşmələri orijinal fotolarla təqdim olunur. Dağıntı və tələfatın göstəriciləri Ermənistanın müharibə cinayətləri barədə aydın təsəvvür yaradır. Bildirilir ki, müharibə günlərində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 3410 fərdi evə, 120 çoxmərtəbəli binaya və 512 mülki obyektə ciddi ziyan dəyib.

"Hücumların insan haqlarının pozulması aspektindən dəyərləndirilməsi" bölməsində 1949-cu ilin Cenevrə Konvensiyası, 1977-ci il tarixli eyni mahiyyətli protokollar, humanizm prinsipləri xatırladılır. Göstərilir ki, təcavüzkar Ermənistan üç dəfə atəşkəs barədə razılaşmanı pozaraq Azərbaycanın dinc əhalisinə qarşı dağıntı və tələfatla nəticələnən hücumlar edib. Dağıntı və tələfatın miqyası, habelə hücumların edilməsi vaxtı deməyə əsas verir ki, bütün bu hadisələr məqsədli və planlı şəkildə törədilən cinayətlərdir.

Hesabatın nəticə hissəsində Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın dinc əhalisini, yaşayış məskənlərini və mülki infrastrukturunu hədəf alan raket və artilleriya hücumlarının xronologiyası, eləcə də həmin zaman kəsiyində qətlə yetirilən və yaralanan insanların siyahısı təqdim olunub. Siyahıda qətlə yetirilən şəxslərin ad, soyad və ata adları, yaşları, onların harada və hansı formalı hücum nəticəsində öldürülmələri aydın şəkildə göstərilib.

Hesabatın əhatə dairəsi, əlavə edilən fotolar və infoqrafika üslubunda məlumatlar oxucuda ilk baxışdan mövzu ilə bağlı aydın təsəvvür yaradır. Hesabat təkcə beynəlxalq təşkilatlar və məhkəmə orqanları üçün deyil, eyni zamanda tarix, politologiya, münaqişələrin təhlili, terror, müharibə, hərbi cinayətlər və s. sahələr üzrə araşdırmaçılar üçün də əyani vəsaitdir.

Bildirilir ki, hesabat bu həftədən etibarən Avropa İttifaqı ölkələrinin insan haqları komissiyalarına, eləcə də Türkiyədə və digər dövlətlərdə insan haqları ilə məşğul olan qurumlara göndəriləcək.

Xatırladaq ki, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun başçılıq etdiyi nümayəndə heyəti cari ilin oktyabrında Azərbaycanda səfərdə olub. Nümayəndə heyətinin üzvləri Gəncədə, Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində dağılmış yerlərdə olub, yaralanan insanlarla görüşüb, törədilən müharibə cinayətlərinin fəsadlarını öz gözləri ilə görüblər.

❖ ❖ ❖

"Fransa Senatının qətnaməsi növbəti təxribatdır. Bu təxribatla Fransa qərəzli olduğunu göstərdi və artıq özünü ATƏT-in Minsk qrupundan kənarda qoydu. Qətnamə bəzi fransız deputatların siyasi korrupsiya amilinin və onların Fransadakı erməni lobbisi ilə əlaqələrinin təsiri altında qəbul edildi".

AZƏRTAC xəbər verir ki, bu barədə "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko bildirib.

İqor Korotçenko deyib ki, Fransa əvvəllər də tarazlığa riayət etmirdi və Ermənistanın maraqlarını açıq şəkildə irəli çəkirdi, indi bu bir daha təsdiqləndi və bu dəfə Senatda. Hüquqi baxımdan bu qətnamə əhəmiyyətsizdir. Ümumiyyətlə, bu, sadəcə, ağılsız hərəkətdir və nəticələri Parisin öz maraqlarına zərbə vuracaq. Fransa biznesinin Azərbaycanda müəyyən itkiləri ola bilər. Azərbaycanın milli maraqlarının qorunması üçün lazım olan şəkildə reaksiya vermək üçün bütün əsasları var.

❖ ❖ ❖



İtaliyanın Kaserta əyalətinin Santa Maria a Viko, Draqoni, Qalluççio və Presenzano bələdiyyələri "Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələri dərhal icra edilməlidir" adlı sənədlər qəbul edib.

AZƏRTAC xəbər verir ki, sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüz və etnik təmizləmə siyasəti nəticəsində Dağlıq Qarabağ və ətraf 7 rayon daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğu, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü, azərbaycanlılara qarşı müharibə cinayətləri və Xocalı soyqırımının törədildiyi bildirilir.

BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının münaqişə ilə bağlı qətnamələrinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verərək Dağlıq Qarabağı ölkəmizin ayrılmaz tərkib hissəsi kimi tanıdığı, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş həmin ərazilərdən dərhal çıxarılmasını tələb etdiyi vurğulanır.

Avropa İnsan Hüquqları Məhkəməsinin 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarında da Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının Ermənistan tərəfindən işğal edilməsinin təsdiqlənməsi öz əksini tapıb.

Sənədlərdə, həmçinin rəsmi İtaliyanın davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə diqqət çəkilir və bu xüsusda Azərbaycan Prezidentinin cari ilin fevralında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "İtaliya Respublikası ilə Azərbaycan Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"yə istinad edilir.

Münaqişə ilə bağlı mövcud hüquqi əsaslara və 30 ilə yaxındır ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılan danışıqlara baxmayaraq, Ermənistanın destruktiv siyasəti nəticəsində danışıqların dalana dirəndiyi, Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşdiyi və 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvasına qayıda, ailə üzvlərinin məzarlarını belə ziyarət edə bilmədiyi vurğulanır.

Sənədlərdə sentyabrın 27-dən etibarən Ermənistanın yeni hərbi təcavüzü zamanı qəsdən mülki obyektləri və mülki şəxsləri hədəf alaraq Gəncə və Bərdə şəhərlərini bombalaması pislənilir. Eyni zamanda Gəncə və Bərdə şəhərlərinin sakinləri, habelə bütövlükdə Azərbaycan xalqı ilə həmrəylik ifadə edilir.

Sənədlərdə aidiyyəti bələdiyyələrin beynəlxalq hüququn norma və prinsiplərini daim dəstəklədiyi, bu xüsusda Ermənistanın təcavüzkar siyasətini pislədiyi, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmalı, BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının münaqişə ilə bağlı müvafiq qətnamələrinin dərhal yerinə yetirilməli, eləcə də azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaq hüququnun təmin edilməli olduğu vurğulanır.

Xatırladaq ki, bundan əvvəl oxşar sənədlər İtaliyanın Kataniya Şəhər Şurası, Neapol şəhərinin Ottaviano və Liveri bələdiyyələri tərəfindən də qəbul olunub. Habelə İtaliya Deputatlar Palatasının Xarici əlaqələr komissiyası Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış Bəyanatın müddəalarının yerinə yetirilməsinə çağıran qətnamə qəbul edib.

❖ ❖ ❖

"Fransa Senatının Qarabağla bağlı qəbul etdiyi qətnamə təkcə beynəlxalq hüquqa qarşı təhdid deyil, eyni zamanda bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədri kimi uzun illər ədalətsiz mövqedə olduğuna dair ciddi şübhələr ortaya çıxarır. Başqa sözlə, Senatın üzvləri bu qərarla bütün dünyaya göstərdilər ki,



Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi Qarabağ məsələsində heç vaxt ədalətli olmayıb. Onlar bütün bu həqiqətləri öz fəaliyyətləri ilə nümayiş etdirdilər. Bu qərarı ədalətsiz hesab edir və kəskin şəkildə qınayırıq".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ifadə edib.

Azərbaycanın 44 günlük savaşda şanlı Zəfər qazandığını diqqətə çatdıran millət vəkili deyib: "Bu müharibənin real nəticəsi Qafqaz bölgəsinə sülh, sabitlik və inkişaf vəd edir. Prosesin bu məcrada inkişafı dünyanın bütün sülhsevər qüvvələri tərəfindən dəstəklənməlidir. Çünki müzəffər Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları ilə BMT-nin Azərbaycanın müstəqilliyinin tanınması və ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlı qətnamələrinin, eləcə də bu istiqamətdə digər beynəlxalq təşkilatların qərar və qətnamələrinin tələblərini yerinə yetirib. Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi dəfələrlə münaqişənin həllinə tərəfdar olduğuna və buna səy göstərdiyinə dair bəyanat verib. Fransa Prezidenti Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu bəyan edib. İndi haqlı bir sual yaranır: "Ortadakı ziddiyyətin məqsədi nədir". Deməli, Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi Qarabağ məsələsində heç vaxt ədalətli olmayıb və münaqişənin beynəlxalq hüququn tələb etdiyi şəkildə həllinə maraq göstərməyib".

❖ ❖ ❖



"Azərbaycan Ermənistanın işğalı altında olmuş torpaqlarını məhz Prezident İlham Əliyevlə xalqın sarsılmaz birliyi, ərazilərini azad etmək üçün göstərdiyi əzm və iradə sayəsində azad etməyə nail oldu".

Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində Tokio Universitetinin professoru, Müasir İslam Araşdırmaları Mərkəzinin direktoru Akira Matsunaqa deyib. Azərbaycan xalqını böyük Qələbə münasibətilə təbrik edən yapon professor əlavə edib ki, müstəqilliyin bərpasından sonra Azərbaycanın əldə etdiyi uğurlar iqtisadiyyatın inkişafı, müasir tələblərə cavab verən ordunun yaradılması, kadrların hazırlanması üçün böyük imkan yaradıb. Ermənistan isə əksinə, qonşu ölkədə baş verən müsbət dəyişiklikləri düzgün qiymətləndirmək və bundan lazımi nəticə çıxarmaq əvəzinə, əlavə torpaqlar işğal etmək iddiasına düşmüşdü. Özü də bu, iqtisadiyyatın tənəzzülə uğradığı, heç bir inkişafın qeydə alınmadığı bir ölkədə baş verirdi. Təbii ki, öz iqtisadi uğurları və sürətli inkişafı ilə böyük irəliləyişə nail olan, regionun lider dövlətinə çevrilən Azərbaycan kimi dövlət heç vaxt torpaqlarının işğal altında qalmasına razı olmazdı. Digər tərəfdən, beynəlxalq hüquq, dünyanın ən böyük təşkilatı olan BMT digər beynəlxalq qurumların qəbul etdiyi qətnamələr torpaqları azad etmək üçün Azərbaycana ciddi əsas verirdi. Bu sənədlər Ermənistan ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Azərbaycan 44 gün davam edən müharibə nəticəsində həmin sənədlərin icrasını yerinə yetirdi. İnanıram ki, işğal olunmuş ərazilərin azad edilməsi Qarabağda uzunmüddətli sülh üçün əlverişli şərait yaradacaq.

Azərbaycanın ermənilər tərəfindən işğal edilən torpaqlarında törədilən soyğunçuluğa, tarixi irsin, dini və mədəni abidələrin dağıdılmasına münasibət bildirən A.Matsunaqa bunun kökündə onların tarixi faktları saxtalaşdırmaq, Qarabağdan azərbaycanlıların izini silmək niyyətinin dayandığını bildirib. Bunun qətiyyən yolverilməz olduğunu vurğulayan yapon professor ermənilərin həmin ərazilərə gəlmə, azərbaycanlıların isə bu torpaqların aborigen xalqı olduğunu bütün dünya elminin etiraf etdiyini vurğulayıb. Bununla yanaşı, bəzi ermənipərəst qüvvələrin bir sıra hallarda bu saxtakarlığı real fakt kimi təqdim etmək niyyətinin olduğunu da təəssüflə bildirib. Həmin şəxslərə bu gün ermənilərin Ağdamdan, Kəlbəcərdən, Şuşadan çıxarkən meşələri, evləri və digər sosial obyektləri necə yandırmalarına baxmalarını tövsiyə edib. Deyib ki, bu, ermənilərin nə qədər ədalətsiz bir xalq olduğunu bir daha sübut edir.

Azərbaycan Ordusunun müzəffər yürüşü nəticəsində torpaqların işğaldan azad olunması zamanı nümayiş etdirdiyi humanizmə, ermənilərdən fərqli olaraq, ələ keçirilən əraziləri tərk edənlərə necə yardım göstərməsinə diqqət çəkən A.Matsunaqa bunun azərbaycanlılarla ermənilər arasındakı fərqi aydın şəkildə nümayiş etdirdiyini vurğulayıb. 1993-cü ildə Kəlbəcər işğal edilərkən separatçıların azərbaycanlılara rayonu tərk etmək üçün cəmi 10 saat vaxt verməsinin müqabilində, Azərbaycan tərəfinin ermənilərin xahişini nəzərə alaraq onlara əlavə 10 gün ayırmasını əsl humanizm nümunəsi kimi dəyərləndirib. Qeyd edib ki, bütün dünya Azərbaycanın bu humanist addımını yüksək qiymətləndirməlidir.

Bu gün Azərbaycanda baş verən son proseslərin Yaponiyada da diqqətlə izlənildiyini bildirən professor vurğulayıb ki, yapon xalqı ölkəmizin işğal altındakı torpaqları azad etməsini alqışlayır. Qeyd edib ki, Yaponiyada Azərbaycanın qələbəsinin əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqın sıx həmrəyliyinin və birliyinin dayandığını yaxşı başa düşürlər. Bilirlər ki, Azərbaycanın milli gücü Ermənistandan qatqat çoxdur. Ümid edirlər ki, münaqişə tezliklə sülh yolu ilə öz ədalətli sonluğunu tapacaq və bütün məcburi köçkünlər öz evlərinə qayıdacaqlar. Bu torpaqlara davamlı sülh və əmin-amanlıq gələcək.

❖ ❖ ❖




Fransa parlamentinin yuxarı palatasının qətnaməsi yalnız tövsiyə xarakteri daşıyır.

AZƏRTAC xəbər verir ki, bu barədə "Politcoystik" Teleqram-kanalın müəllifi Marat Başirov "Sputnik" radiosunun efirində bildirib.

O, qeyd edib ki, Senatın qətnaməsi Fransa Respublikası tərəfindən qondarma "DQR"in müstəqilliyinin tanınması demək deyil. Lakin eyni zamanda bu, həm Parislə Bakı arasında münasibətləri gərginləşdirə, həm də Fransa ilə Türkiyənin münasibətlərini daha çox korlaya bilər.

Marat Başirov deyib: "Bu, Türkiyəni qıcıqlandıracaq, Türkiyə Fransa Senatının bu bəyanatını yəqin ki, sakit qəbul etməyəcək. Əlbəttə, Türkiyə tərəfindən müəyyən diplomatik səylər göstəriləcək ki, qətnamə Fransa icra orqanları səviyyəsində təsdiqlənməsin".

❖ ❖ ❖



Fransa Senatının "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə təklifi"nin səsə qoyulması ilə bağlı dinləmələr keçirilib. Senatda Azərbaycanın və Ermənistanın Fransadakı səfirləri ayrı-ayrılıqda dinlənilib.

Dinləmələr Senatın xarici işlər, müdafiə və silahlı qüvvələr komissiyasının rəhbəri Kristian Kambonun sədrliyi ilə keçirilib.

Çıxışında R.Mustafayev müharibə müddətində Fransada siyasi və mətbuat sahəsində saxta və səhv məlumatların verilməsindən təəssüfləndiyini bildirib. O, Senatda qətnamə təklifi hazırlananda birtərəfli məlumatla kifayətlənməyin düzgün olmadığını, mətbuatın qərəzli məlumatlar dərc etdiyini bildirib. Hətta mətbuatda cavab hüququndan istifadəyə imkan verilmədiyini qeyd edib.

Səfir Senata təqdim edilmiş qətnamə təklifinin bəzi məqamlarına toxunub, göstərilən məlumatların səhv olduğunu bildirib. O, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməni xatırladıb, həmin qətnamələrin Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun Azərbaycan torpaqları olduğunu və bu torpaqların erməni silahlı qüvvələri tərəfindən işğal edildiyini tanıdığını bildirib. O, həmçinin qətnamələrin erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz bu torpaqlardan çıxmasını tələb etdiyini diqqətə çatdırıb.

Diplomat Azərbaycan tərəfdən heç vaxt "muzdlu" döyüşçülərin olmadığını, Azərbaycan Prezidentinin də bildirdiyi kimi, ölkəmizin 100 minlik ordusunun olduğunu qeyd edib. O, əlavə edib ki, muzdlularla bağlı iddia edənlər sübut göstərməli, əks təqdirdə Azərbaycan xalqından üzr istəməlidirlər. Fransa tərəfi də bu iddianı etsə də, heç bir sübut göstərə bilmədi. Ancaq Azərbaycan tərəfi Ermənistan silahlı qüvvələrində muzdluların olmasını faktlarla sübut edib. Onların kimliyini, mobil nömrələrini, mənşə ölkələrini əks etdirən siyahı hazırlanıb.

Səfir Azərbaycanın çoxmədəniyyətli, çoxkonfessiyalı bir ölkə olduğunu vurğulayaraq, işğaldan əvvəl Qarabağda çoxsaylı etnik qrupların nümayəndələrinin yaşadıqlarını diqqətə çatdırıb. Ancaq işğaldan sonra ermənilər bölgədə etnik təmizləmə aparıb və həmin vaxtdan bu bölgədə yalnız ermənilər yaşayıb.

Diplomat müharibə zamanı Ermənistanın hücumları nəticəsində mülki azərbaycanlı əhalinin həlak olduğunu da qeyd edib. Bildirib ki, Ermənistan Azərbaycanın Qarabağdan uzaqda yerləşən şəhərlərində yaşayış məhəllələrini hədəfə alıb. Gəncə, Tərtər, Bərdə şəhərlərini hədəfə alan Ermənistan qadağan olunmuş silahlardan istifadə edib. Bu silahlardan istifadə Ermənistan rəhbərliyinin mülki əhalini məqsədli şəkildə hədəfə aldığını təsdiqləyir. Azərbaycan isə yalnız hərbi obyektləri hədəfə alırdı.

Səfir bildirib ki, Fransa qərəzli mövqeyi ilə Azərbaycanda ona olan etibarı itirib.

Diplomat Ermənistanın Azərbaycana qarşı təxribatçı addımları barədə ətraflı məlumat verib, onun münaqişənin sülh yolu ilə həllində heç vaxt maraqlı olmadığını vurğulayıb.

Azərbaycan-Türkiyə münasibətləri ilə bağlı suala cavabında səfir deyib ki, Türkiyə Azərbaycana yalnız siyasi və mənəvi dəstək verib.

Müharibə cinayətləri ilə bağlı bildirilib ki, Azərbaycan bu cinayətlərin təhqiq edilməsində daha çox maraqlıdır. Ermənilər işğal etdikləri ərazilərdə bütün dini abidələri, məscidləri dağıdıblar, tövləyə çeviriblər. Ermənistan tərəfindən bölgədə erməniləşdirmə siyasəti aparılıb.

Səfir deyib ki, Senatda qəbul edilən qətnamə ilə Azərbaycan heç nə itirməyəcək, itirən Fransa özü olacaq. Belə bir addımı atmaq əvəzinə regionun inkişafına, tərəqqisinə, sabitliyinə töhfə vermək lazımdır.

❖ ❖ ❖




Noyabrın 26-da Kanadanın Azərbaycan icmasının üzvləri ilə bu ölkənin xarici işlər naziri Fransua-Filip Şampeyn və parlamentin üzvü Rob Olifant arasında virtual görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Kanada Azərbaycanlıları Şəbəkəsi tərəfindən təşkil edilmiş görüşdə Vankuver, Edmonton, Kalqari, Ontario, Kvebek daxil olmaqla, bu ölkənin bütün əyalətlərindən olan Azərbaycan fəalları iştirak ediblər.

Görüş zamanı bir çox mühüm məsələlər barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan icmasının üzvləri işğaldan azad olunmuş torpaqlarımızın bərpası, azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtması, sülh quruculuğu prosesinə Kanadanın töhfəsi, Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və son müharibə ilə bağlı məsələləri, habelə xarici işlər naziri Fransua-Filip Şampeynin Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların dayandırılması ilə bağlı noyabrın 11-də verdiyi qərəzli bəyanatı müzakirə ediblər.

Görüşdən sonra Kanadanın xarici işlər naziri Fransua-Filip Şampeyn öz "Twitter" hesabında Azərbaycan icmasının üzvləri ilə apardığı müzakirələrdən məmnunluğunu bildirib, regionda davamlı sülhün bərqərar olunmasına ümid etdiyini vurğulayıb.

❖ ❖ ❖

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevin "Kəlbəcərin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının sənədlərini Fransa səfiri necə zəiflətdi" sərlövhəli yazısı ABŞ-ın "Medium" onlayn media platformasında dərc edilib.

Ölkəmizin Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a verilən məlumata görə, məqalədə baş konsul noyabrın 25-də Kəlbəcərin 27 illik işğalına son qoyulduğunu bildirir, bununla on minlərlə məcburi köçkünün öz doğma yurduna qayıda biləcəyini qeyd edir.




N.Ağayev 1993-cü ildə Kəlbəcərin işğalının və orada yaşayan azərbaycanlıların etnik təmizləməyə məruz qalmalarının Ermənistan-Azərbaycan münaqişəsinin ən ağrılı səhifələrindən biri olduğunu bildirir. O, bu xüsusda "Human Rights Watch" təşkilatının hesabatına istinad edərək, Kəlbəcərin işğalı nəticəsində 60 min insanın öz doğma torpaqlarından didərgin salındığını, onların ağır müharibə şəraitində və çətin hava şərtləri altında rayonu tərk etdiyini, çox sayda mülki azərbaycanlının öldürüldüyünü və əsir götürüldüyünü vurğulayır.

Kəlbəcərin işğalı ilə bağlı bu dəhşətli faktların sübutu kimi baş konsul bu yaxınlarda apardığı araşdırmalar zamanı ermənilər tərəfindən çəkilmiş bir videonu üzə çıxardığını və onun sosial şəbəkələrdə geniş yayıldığını qeyd edir. N.Ağayev bildirir ki, sözügedən videoda Kaliforniyada doğulmuş erməni terrorist Monte Melkonyan və onun əlaltıları gülərək və əylənərək Kəlbəcərdəki azərbaycanlı əhaliyə rayonu tərk etmək üçün 10 saat vaxt verdiklərini səsgücləndirici vasitəsilə bildirirlər.

N.Ağayev qeyd edir ki, Kəlbəcərin işğalından dərhal sonra - 1993-cü il aprelin 6-da BMT Təhlükəsizlik Şurası bu işğalı pisləyən və işğalçı qüvvələrin rayon ərazisindən çıxarılmasını tələb edən bəyanat qəbul etmişdi. O, bu yaxınlarda Klinton Prezident Kitabxanası tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı yayılmış, Dövlət Departamentinin məxfilik qrifi qaldırılmış məktublarına istinad edərək, həmin vaxt Fransanın BMT-dəki daimi nümayəndəsi Jan-Bernard Merimenin (Jean-Bernard Merime) Kəlbəcərin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının bəyanatının mətnində əhəmiyyətli dəyişikliklər etməyə nail olduğunu vurğulayır. Belə ki, Jan-Bernard Merime ABŞ-ın BMT-dəki səfiri M.Olbrayt və qurumun Təhlükəsizlik Şurasının digər üzvlərinin təklif etdikləri mətnə qarşı çıxaraq, işğalçı tərəf kimi Ermənistanın təqsirləndirilməsinin qarşısını hər vəchlə almaq üçün Kəlbəcəri işğal edən tərəf kimi sənədə "yerli erməni qüvvələri" ifadəsinin daxil edilməsinə nail olmuşdu. 1993-cü il aprelin 30-da qəbul edilmiş, Kəlbəcərin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinə də Merimenin səyləri nəticəsində eyni ifadə daxil olunmuşdu.

Baş konsul qeyd edir ki, həmin dövrdə BMT Baş katibinin Təhlükəsizlik Şurasında məsul köməkçisi erməni əsilli Benon Sevan idi. 2000-ci illərin əvvəllərində Sevan və Merime Səddam Hüseyn rejimindən rüşvət almaqda təqsirkar bilinmişdilər.

N.Ağayev Merimenin erməni təəssübkeşliyinin yarım milyonluq erməni icmasının mövcud olduğu Fransanın yürütdüyü diplomatiya ilə də həmahəng olduğunu bildirir. Baş konsul yazır ki, məhz bu səbəbdən Azərbaycan 1997-ci ildə Fransanın Minsk qrupunun həmsədrliyinə gətirilməsinə etiraz etmiş və qrupda müəyyən tarazlığa nail olmaq üçün ABŞ-ın da həmsədr təyin edilməsinə nail olmuşdu.

Erməni lobbisinin təkidi ilə Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın "müstəqilliyi"nin tanınmasını hökumətə tövsiyə edən qətnamənin qəbuluna toxunan N.Ağayev qeyd edir ki, belə bir tanıma ciddi beynəlxalq hüquq pozuntusu olmaqla yanaşı, Fransanın Minsk qrupundakı həmsədrliyi statusuna uyğun gəlmir. Baş konsul Fransa prezidenti Emmanuel Makronun bir neçə gün əvvəl sosial şəbəkələrdə yayılan videosunda Dağlıq Qarabağ və yeddi ətraf rayonun Azərbaycanın ərazisi olduğunu bildirməsini də diqqətə çatdırır.

N.Ağayev bildirir ki, erməni lobbisi və onun havadarları nə qədər dəridən-qabıqdan çıxsalar da, həm prezident Makron, ondan da əvvəl isə Rusiya Prezidenti Vladimir Putinin təkrar etdikləri sadə həqiqəti dəyişə bilməzlər: Dağlıq Qarabağ və yeddi ətraf rayon Azərbaycanın ayrılmaz tərkib hissəsidir!

# Azərbaycan-Özbəkistan İşgüzar Şurasının birinci iclası keçirilib





**Noyabrın 27-də Azərbaycan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə Azərbaycan-Özbəkistan İşgüzar Şurasının birinci iclası keçirilib.**



İclasda Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Özbəkistan Ticarət və Sənaye Palatasının sədri Adxam İkramov, Özbəkistanın Azərbaycandakı səlahiyyətli səfiri Baxrom Aşrafxanov, Azərbaycanın Özbəkistandakı səlahiyyətli səfiri Hüseyn Quliyev, Özbəkistan Turizmin İnkişafı üzrə Dövlət Komitəsinin sədr müavini Uluğbek Azamov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun İnvestisiyaların Təşviqi Departamentinin direktoru Zöhrab Qədirov, Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədr müavini Rüfət Atakişiyev, Özbəkistan Əczaçılıq Sənayesinin İnkişafı Agentliyinin direktor müavini Alişer Temirov və sahibkarlar iştirak ediblər.

Şuranın iclasını açan Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev bildirib ki, ölkələrimizdə mövcud siyasi sabitlik iqtisadiyyatımızın inkişaf üçün əsas münbit şərait yaradır. Onun sözlərinə görə, erməni separatçılarının Azərbaycan torpaqlarını işğal etməsi uzun müddət region üçün potensial risk yaradırdı.

Azərbaycanın əks-hücum əməliyyatı nəticəsində qazanılan Böyük Qələbəyə görə ölkə sahibkarları adından prezident İlham Əliyevə və Şanlı Ordumuza təşəkkür edən M.Musayev bir milyondan çox qaçqın və köçkün soydaşlarımızın öz doğma yurdlarına qayıdacağını qeyd edib. "İşğal zamanı Azərbaycan vətəndaşlarına, eləcə də dövlətə məxsus böyük həcmdə mülklər məhv edilib. Hazırda işğal altında qalan torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması prosesi davam edir. Cenevrə Konvensiyasına zidd olaraq Azərbaycan ərazisində qanunsuz məskunlaşdırma aparılıb və azərbaycanlıların evlərinə sığınan erməni separatçıları indi də vandalizm hərəkərlərini davam etdirirlər. Torpaqlarımızdan çıxarkən ermənilər tərəfindən nadir ağaclar, flora və fauna məhv edilir, evlər yandırılır. Bu vurulan zərərin həcmi isə milyardlarla ölçülür", - deyə M.Musayev vurğulayıb.

ASK prezidenti dövlətlərimiz arasında ticarət dövriyyəsinin həcminin 2019-cu ildə 82 milyon dollar olduğunu, Azərbaycan ilə Özbəkistan arasında iqtisadi əlaqələrin arealının genişləndiyini diqqətə çatdıran Konfederasiya prezidenti Naxçıvan dəhlizinin açılması ilə Cənubi Qafqazı, Türkiyəni Orta Asiya türk dövlətləri ilə birləşdirəcək səmərəli tranzit əlaqələrinin yaranacağını söyləyib. Azərbaycan sahibkarlarının azad olunmuş torpaqların sosial-iqtisadi inkişafında böyük məsuliyyət daşıdığını qeyd edən M.Musayev Özbəkistan investorlarını Qarabağa sərmayə yatırmağa dəvət edib.

Özbəkistan Ticarət və Sənaye Palatasının sədri Adxam İkramov İşgüzar Şuranın birinci iclasına uğurlar arzulayaraq, noyabrın 2-də Türk Ticarət və Sənaye Palatasının Bakı görüşü çərçivəsində onları qəbul etdiyinə görə Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevə təşəkkürünü bildirib: "Azərbaycan münaqişənin həllinə nail oldu və "Qarabağ Azərbaycandır!" ifadəsini artıq bütün dünya qəbul etdi. Biz şadıq ki, haqq öz yerini tapır və bu, bizim üçün böyük qürurdur".

İşgüzar Şuranın yaradılması ilə bağlı səylərinə görə M.Musayevə minnətdarlıq edən A.İkramov Azərbaycandan Özbəkistana gələn sahibkarları böyük məmnuniyyətlə qəbul etdiyini söyləyib. Onun sözlərinə görə, pandemiya olmasına baxmayaraq, ötən 8-9 ay ərzində Özbəkistanda Azərbaycan kapitallı 65 müəssisə fəaliyyətə başlayıb. O bildirib ki, Özbəkistan Azərbaycan vasitəsilə Avropaya çıxa bilər və bu yolda Azərbaycan xüsusilə vacib geosiyasi məkanda yerləşir. "Özbəkistan daim Azərbaycanın dostudur və yanındadır", - söyləyən Palata sədri Şurada təmsil olunan özbək sahibkarlar haqqında iştirakçılara məlumat verib.

Tədbirin moderatoru Vüqar Zeynalov ilk Türk Ticarət Evinin Bakıda açılacağı ilə bağlı Türk Ticarət və Sənaye Palatasının qərarı olduğunu bildirərək, Azərbaycan-Özbəkistan işgüzar münasibətlərində daha intensiv yeni əməkdaşlıq dövrünün başlandığını qeyd edib.

Şuranın iclasında "Qarabağın iqtisadi potensialı ilə bağlı təqdimat" təqdim edilib və hər iki ölkənin əczaçılıq, turizm sektoru, investisiya imkanları, vergi-gömrük sistemi ilə bağlı suallar cavablandırılıb.


## "Azərsu" ASC

## daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə "Sukanal" ETLİ laboratoriyası üçün tələb olunan reaktiv və avadanlıqların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https:// www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu və aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK - AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 dekabr 2020-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **28 dekabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **29 dekabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 16 sentyabr 2020-ci ildə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaqla onların psixoloji rifahının yaradılması istiqamətində müəllimlərin peşəkar potensialının artırılması üzrə ixtisasartırma təlimləri (distant) xidmətlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən, "İLM-Learn Beynəlxalq Təhsil Mərkəzi Əlavə Təhsil Müəssisəsi" MMC qalib olmuşdur.

Qalib təşkilatla 27 noyabr 2020-ci ildə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***



## "Azərsu" ASC

## daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə polad boruların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https:// www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu və aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 400 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK - AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 dekabr 2020-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **28 dekabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **29 dekabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***



## "Azərsu" ASC

## daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə polad və polietilen borular üçün xamutların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https:// www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu və aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK - AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 dekabr 2020-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **28 dekabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **29 dekabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi startap layihələrinin dəstəklənməsi məqsədilə lazımi aktivlərin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50 (əlli) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış* ***(01.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.12.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.12.2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.12.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Dövlət sərhədini pozaraq ölkə ərazisinə narkotik vasitələr keçirməkdə şübhəli bilinən iki qardaş saxlanılıb

Dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, noyabrın 18-də DSX-nin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Qapçıməhəllə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində iki nəfərin dövlət sərhədini pozması əlamətləri aşkarlanıb. Əməliyyat-axtarış tədbirləri nəticəsində dövlət sərhədini pozmaqda şübhəli bilinən Astara rayonunun Rüdəkəran kənd sakini 1991-ci il təvəllüdlü Məmmədov Mərhəmət Təyyubulla oğlu saxlanılıb. Onun yaşadığı mənzilə baxış keçirilərkən 0,5 kiloqram heroin və 115 ədəd "Metadon-40" həbi aşkarlanaraq götürülüb. M.Məmmədov dindirilərkən dövlət sərhədini qardaşı - Astara rayonunun Rüdəkəran kənd sakini 1981-ci il təvəllüdlü Məmmədov Seymur Təyyubulla oğlu ilə birlikdə qanunsuz olaraq keçdiyini etiraf edib. Daxili İşlər Nazirliyinin Astara rayon şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində S.Məmmədov yaşadığı evdə saxlanılıb. Araşdırma zamanı onun əvvəllər dəfələrlə oğurluq cinayəti törətdiyinə görə məhkum olunması müəyyənləşdirilib.

Fakt üzrə cinayət işi başlanılıb. Vətəndaşlar M.Məmmədov və S.Məmmədov təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbiri seçilib.

Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN (MƏSLƏHƏT XİDMƏTLƏRİ)

Azərbaycan Respublikası
Məşğulluğa Dəstək Layihəsi
Layihənin İD №: P171250

Tapşırığın adı: Xüsusi təlim modullarının hazırlanması və yenilənməsi və müvafiq təlimlərin təşkili, ÖMP-nın həyata keçirilməsi, mentorluq xidmətlərinin göstərilməsi üzrə Məsləhət Xidmətləri

İstinad Nömrəsi (Satınalma Planına uyğun olaraq): AZ-MLSPP-183494-CS-QCBS

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri (“Xidmətlər”) Xüsusi təlim modullarının hazırlanması və yenilənməsi və müvafiq təlimlərin təşkili, ÖMP-nin həyata keçirilməsi, mentorluq xidmətlərinin göstərilməsi üzrə, 55 ay ərzində icra olunmaqdan ibarətdir (2021-ci ilin mart ayında başlayacağı gözlənilir).

Ətraflı Texniki Tapşırıq ilə aşağıdakı linkdən tanış olmaq olar: https://drive.google.com/file/d/1Qgu13x_niobS743-PmCsffWFaNI0-ROaV/view?usp=sharing

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, uyğun məsləhətçi şirkətləri qeyd olunan xidmətlərin təmin edilməsində maraqlı olduqlarını bildirməyə dəvət edir. Xidmətlərin həyata keçirilməsində maraqlı olan məsləhətçi şirkətlər müvafiq təcrübə və ixtisaslarını göstərən məlumatları təqdim etməlidirlər. Qısa siyahıya düşmək üçün meyarlar: Qısa siyahı mərhələsində əsas işçi heyəti qiymətləndirilməyəcək.

Maraqlı olan məsləhətçilərin diqqəti Dünya Bankının iyul 2016-cı il, 2017-ci ilin noyabr və 2018-ci ilin avqust aylarında yenidən baxılmış (“Satınalma Qaydaları”), iyul 2016-cı il tarixli “İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları” sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçi şirkətlər öz ixtisasını artırmaq üçün əməkdaşlıq qura bilərlər, lakin dərnəyin ortaq müəssisə və / və ya subkonsultasiya şəklində olub-olmadığını aydın şəkildə göstərməlidirlər. Birgə müəssisə olduqda, ortaq müəssisədəki bütün tərəfdaşlar seçildiyi təqdirdə müqavilə üzrə ortaq və ayrı-ayrılıqda öhdəlik daşıyırlar.

Məsləhətçilərin seçim prosesi Satınalma Qaydaları ilə müəyyən edilmiş məsləhətçilərin keyfiyyət və qiymətə əsaslanan seçim metoduna uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumatı iş saatı ərzində (Bazar ertəsi-cümə günləri saat 09:00-dan 18:00-a kimi) aşağıda göstərilən ünvandan əldə etmək olar.

Maraq məktubları 18 dekabr 2020-ci il tarixədək aşağıdakı ünvanlara (şəxsən, məktub şəklində, faks və ya elektron poçt vasitəsilə) göndərilməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
Kimə: Hüseynqulu İsmayılov, Satınalma üzrə mütəxəssis
AZ1009, Salatın Əsgərova, 85
Bakı, Azərbaycan
Tel: (994 12) 541-98-49 E-mail: asep.huseyn@gmail.com

## REQUEST FOR EXPRESSIONS OF INTEREST (CONSULTING SERVICES - FIRMS SELECTION)

**The Republic of Azerbaijan**
**Employment Support Project**
Loan No.: 9044-AZ

**Assignment Title:** Development and update of special training modules and organization of relevant trainings, Implementation of SEP program, and Involvement of Business integration experts and assessment

**Reference No.** (as per Procurement Plan): AZ-MLSPP-183494-CS-QCBS

The Ministry of Labor and Social Protection of Population has received financing from the World Bank toward the cost of the Employment Support Project, and intends to apply part of the proceeds for consulting services.

The consulting services (“the Services”) include Development and update of special training modules and organization of relevant trainings, implementation of SEP program and providing of mentoring services, with 55 month of implementation period (expected to start about March 2021).

The detailed Terms of Reference (TOR) for the assignment can be found at the following website: **https://drive.google.com/file/d/1Qgu13x_niobS743PmCsffWFaNI0-ROaV/view?usp=sharing**

The Ministry of Labor and Social Protection of Population / Employment Support Project now invites eligible consulting firms (“Consultants”) to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services. The shortlisting criteria are: Experience in design and implementation of self-employment and employment projects in particular targeting vulnerable populations; Experience in design and delivery of business, soft skills trainings, financial literacy, and technical trainings in the required fields; Experience in conduction of training, mentoring and follow up services for SEP implementation; Experience in development of Vocational Training modules; Experience with design and implementation of social assistance and activation programs; Regional experience or at least experience in similar regions and circumstances. Key Experts will not be evaluated at the shortlisting stage.

The attention of interested Consultants is drawn to Section III, paragraphs, 3.14, 3.16, and 3.17 of the World Bank's “Procurement Regulations for IPF Borrowers” July 2016, revised November 2017 and August 2018 (“Procurement Regulations”), setting forth the World Bank's policy on conflict of interest.

Consultants may associate with other firms to enhance their qualifications, but should indicate clearly whether the association is in the form of a joint venture and/or a sub-consultancy. In the case of a joint venture, all the partners in the joint venture shall be jointly and severally liable for the entire contract, if selected.

A Consultant will be selected in accordance with the Consultants Quality and Cost-based Selection method set out in the Procurement Regulations.

Further information can be obtained at the address below during office hours (Monday to Friday 09:00 to 17:00 hours).

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by December 18, 2020.

Ministry of Labor and Social Protection of Population / Employment Support Project
Attn: Mr.Huseyngulu Ismayilov,
Procurement Specialist
AZ1009, Salatin Askarova, 85
Baku, Azerbaijan
Tel: (994 12) 5419849
E-mail: **asep.huseyn@gmail.com**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparatı “Katriclərin dolum xidməti”nin satın alınması üçün *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iştirak etmək istəyənlər siyahını aşağıdakı ünvandan ala bilərlər:
Ünvan: Bakı şəhəri, Zərifə Əliyeva, 77, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi.
Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 01 dekabr 2020-ci il saat 11:00-a qədərdir.

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 598-19-84**
**Email: fahmadov@mincom.gov.az**

*Tender komissiyası*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tibbi ləvazimatların kotirovka sorğusu üsulu ilə *satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar +99412 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 27.11.2020-ci il saat 15:00-dan 02.12.2020-ci il saat 15:00-dək qəbul olunur.

**Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**
**Telefon: +99412 497-71-34**
**E-mail: dmx@mlspp.gov.az; shahin.gubadov@sosial.gov.az**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az Portalında 02.10.2020-ci il tarixdə elan edilmiş Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 107 ünvanında yerləşən inzibati binanın dam örtüyünün yenidən qurulması işlərinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **“Xurcan” MMC** müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və **“Xurcan” MMC** arasında 25.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# OXUCULARIN NƏZƏRİNƏ

# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası başlayıb!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərmətbuatyayımı” ASC | (012) 440-46-94, (070) 244-17-34 |
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 212-40-53 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az Portalında 29.09.2020-ci il tarixdə elan edilmiş yük avtomobillərinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **“AZƏRMAŞ GROUP” MMC** müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC və **“AZƏRMAŞ GROUP” MMC** arasında 25.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 27 noyabr 2020-ci ildə “Azərbaycan” qəzetində elan edilmiş inventarların satın alınması kotirovka sorğusunda inventar sözü kreslo kimi oxunmalıdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxsi tərəfindən “Məlumat bazası proqram təminatları lisenziyalarının və dəstək xidmətlərinin satın alınması” üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibi “Technofusion” Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir. “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxsi ilə “Technofusion” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 27.11.2020-ci ildə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Toğrul Sadıqov
**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev və partiya təşkilatının üzvləri Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Əməkdar elm xadimi
**MƏMMƏD CÜMŞÜD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov
**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Abel, Adil və Rauf Məhərrəmovlar BDU-nun Fizika fakültəsinin dekanı, professor
**MƏHƏMMƏDƏLİ RAMAZANOVUN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və qardaşı Nəbi Ramazanlıya dərin hüznlə başsağlığı verirlər.

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları Dilbər Şıxəliyevaya atası
**ƏLİSA ŞIXƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elçin Tağızadə və Firdovsi Aslanov
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu 1978-ci ildə bitirmiş 483-A qrupunun məzunları İsgəndər Hacıyev, Səmayıl Quliyev, Ramiz Əliyev, Gülbala Teymurov, Fuad Əhmədov, Fizuli Hacıyev, Arif Cəbiyev və Feyzulla Mütəllimov tələbə yoldaşları
**HACI YAŞAR ŞAHAB OĞLU ƏZİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7466
Sifariş 2652
Qiyməti 40 qəpik